Hazırda alimlərin yeni istiqaməti məhz insanlarda mikrobiomun inkişaf tarixinin sağlamlığa təsirləri kontekstinin başa düşülməsinə, eyni zamanda sahib orqanizmdə onun molekulyar səviyyədə qarşılıqlı əlaqəsi haqqında biliklərimizin təkmilləşdirilməsinə yönəldilmişdir. Bu isə son nəticədə sağlamlığın bərpası və ya xəstəliklərin qarşısının alınması vasitəsi kimi pozulmuş insan mikrob ekosistemlərini bərpa etmək üçün effektiv yanaşmaların işlənib hazırlanmasına yönəlib. Mikrobiomda mikroorqanizmlərin kolonizasiya rezistentliyi hətta rezistent ştamlardan qorunmada da iştirak edir. Növlər arasındakı çox səviyyəli konkurentlik də vacib yerlərdən birini tutur və immun sistem hüceyrələri tərəfindən stimulə edilir. Mikroorqanizmlərin lokal olaraq hər hansı bir orqanda yerləşməsi həmin mikrofloranın qoruyucu effektinin göstəricisidir. Belə ki, mikrobiomda olan dəyişiklik immun sistemdə də paralel olaraq dəyişikliklərə səbəb olur. Məsələn monoziqot əkizlərin müxtəlif ölkələrdə yaşaması onun qidalanması, ətraf mühit, və s. bağırsağın mikrobiotasının formalaşmasına təsir etmişdir. İnsan orqanizmindəki mikroorqanizmlərin müxtəlifliyinin, onların funksional gen imkanlarının və insan orqanizmində istehsal etdikləri biokimyəvi maddələrin genişliyinin qiymətləndirilməsi gələcəkdə insan sağlamlığı ilə bir çox problemlərin həllinin tapılmasına kömək edəcəkdir. Bu səbəbdən də onların təyin edilməsi aktual problemlərdən biridir. Mikroorqanizmlərin genlərinin funksional imkanlarını və mikrobiomların transkripsiya fəaliyyətini araşdırmaq səyləri müvafiq olaraq təcrid olunmuş DNT (metagenomics) və ya RNT (metatranscriptomics/RNT Seq) ardıcıllığı üsullarının mükəmmelləşməsilə aparılır. Paralel olaraq, metabolitlər və zülallar daxil olmaqla, mikrobiomla əlaqəli məhsulların aşkarlanması və identifikasiyası qaz və kütlə spektrometriyası ilə aparılır. Yüksək göstəricilərə malik texnologiyalardakı irəliləyişlər nəinki insanla əlaqəli mikrobiomun tərkibinin və funksiyasının təhlilini asanlaşdırır, həm də insan orqanizmilə mikroorqanizmlərin

növlərarası qarşılıqlı əlaqələrini asanlaşdıran müxtəlif mikrob mənşəli məhsulları müəyyən etməyə də şərait yaradır.

Son illərdə aparılmış müşahidələr göstərir ki, bağırsaq mikrobiotası insan orqanizminin metabolik sağlamlığına və müxtəlif xəstəliklər zamanı (piylənmə, 2-ci tip diabet, qeyri-alkoqol qaraciyər xəstəliyi, ürək-damar xəstəlikləri), o cümlədən müxtəlif metabolik pozğunluqların patogenezində böyük rol oynayır. Bağırsaq mikrobiotasının maddələr mübadiləsinə necə təsir etdiyinə dair anlayış əldə etmək üçün bu istiqamətdə də tədqiqatlar aktiv olaraq aparılır.

Pəhrizin mikrobiotanın tərkibinə və funksiyasına təsiri hamıya məlumdur. Lakin burda təkcə pəhriz yox digər hormonlar, antibakterial və ya antifunqal müalicə, PPİ (proton pompası inhibitorları), ksenobiotlar, ətraf mühitin toksiki maddələri və ümumiyyətlə kimyəvi preparatların təsiri kimi faktorlar da mühüm əhəmiyyət kəsb edir. Əldə edilən məlumatların nəticələri bağırsaqlarda insanın bütün həyatı boyu bu mikroorqanizmlərin birgə yaşayışı mikrobiomu formalaşdırır və unikal, spesifik hər insan üçün mikrob "əl izini" yaradır.

Ksenobiotlar kimi sintetik molekullar orqanizmə düşdükdə proteinin aminturşu ardıcıllığını pozur. Bu isə xərçəng xəstəliyindən tutmuş müxtəlif patologiyaların yaranması ilə nəticələnir. Gün ərzində orqanizmə xaricdən müxtəlif maddələr daxil olaraq DNT-nin zədələnməsinə səbəb ola bilər. Bu da öz növbəsində gələcəkdə xərçəng riski yaradır. İnsan orqanizmində mikroorqanizmlər xüsusi təbəqə yaradaraq bu təsirlərdən qoruyur. Bu qoruyucu mikrobioma təbəqəsinin disbalansı digər mikroorqanizmlərin orqanizmdə xəstəlik törətməsinə gətirib çıxarır.

Təyin edilmişdir ki, 1 aylıq uşağın mikrobiotunun tərkibinin dəyişilməsi metabolik funksiyanya təsir etməklə atopiya və astma riskinin yaranmasına şərait yaradır. Eyni zamanda mikrobioma 1 yaşa qədər uşaqlarda tez bir zamanda inkişaf edən bakterial müxtəliflik, 3 yaşında zəifləyir, 5 yaşında isə tərkibinə görə müxləlifliyi və stabilliyi ilə özünü göstərir ki, bu zaman da *Bacteroides* üstünlük təşkil edir. Bu isə sağlam yetkin insanın mikrobiomasından fərqlənir. Toksonların kəmiyyəti və genlərin funksiyasına gəldikdə isə bağırsaq mikrobiomunun müxtəlifliyi 7-12 yaşında formalaşır. Lakin, mikroorqanizmlərin mübadiləsi taksonomik və funksional baxımdan orta yaşlı insanlarınkından fərqlənərək, daha az *Bacteroides,* nisbətən çox səviyyədə isə *Bifidobacterium* müəyyən edilir. Yaşlı insanlarda bağırsaq mikrobiomu dəyişkən olub, tərkibinə görə daha az müxtəlifliyi ilə seçilir. Bu isə immun sistemin zəifləməsi ilə əlaqələndirilir. Mikrobiotanın tərkibinin azalması yaşlı insanlarda mikrob növlərinin və onların genlərinin funksiyalarının itirilməsi daha çox orqanizmin məhvinə yəni ölümə, bəzi *Akkermansia* və *Bifidobacterium* kimi bakteriyaların zənginliyi isə uzun ömürlülüklə əlaqələndirilir.

Bağırsağın mikrobiomunun əsas funksiyalarından biri də MBT-nın epitel hüceyrələrinin əsas enerji mənbəyi olan mürəkkəb karbohidratların metabolizminin katalitik yolu olaraq, qısa zəncirli yağ turşularının sintezi, iltihab əleyhinə təsiri və antiproliferativ lipidlər sintez etmələridir.

Digər mikrob mənşəli bioaktiv metabolitlərə K və B vitaminləri, hormonlar, triptofan metabolizmi nəticəsində sintez olunan serotonin kimi sinir siqnal molekulları və böyük çeşidə malik digər təbii maddələr daxildir.

Ən vacib xüsusiyyətlərindən biri də anadangəlmə və qazanılmış immunitetdəki roludur. İmmun disfunksiya bildiyimiz kimi xroniki xəstəliklərin yaranmasında, piylənmə, metabolik sindrom, dağınıq skleroz, autistik spektrin pozğunluqlarda əsas rol oynayır. Bu xəstəliklər zamanı isə mikrob müxtəlifliyinin azalması xüsusilə də immun tolerantlıqda əsas rol oynayan Akkermansia və Faecalibacterium üzərinə düşür.

Mikrobiotanın modifikasiyası əsas 3 qrupa bölünür. Belə ki, çox zəifləməsi antibiotiklərin təsirindən, modulyasiyası pre və probiotiklər, pəhrizlər və əvəzlənməsi isə fekal mikrobiotanın transplantıdır. Mikroorqanizmlərin kəmiyyət və keyfiyyət dəyişiklərini öyrənmək üçün bir çox tədqiqatlar aparılıb. Onların nəticəsi olaraq qeyd olunan bakteriyalara xüsusi əhəmiyyət verilib.

Məs.*Bifidobacterium Teenageris* MBT-nın modulyatoru olaraq Th17 hüceyrələrinə təsir edərək baryer funksiyasını qoruyaraq, patogen mikroorqanizmlərdən müdafiə edir.

Clostridium və bəzi növləri CD4 $^{+}$, hüceyrələrini, Foxp3 $^{+}$ T reg 3-in sintezi hesabına SCFAs induksiya edir.

Bacteroides fragilis-in səthi A polisaxaridi dentrit hüceyrələrin səthində yerləşən TLR 2 lə birləşib, Treg hüceyrələri tərəfindən İL10 sintez edərək, immun tolerantlığa səbəb olur.

Əldə edilən nəticələrə əsaslanaraq mikroorqanizmlərinin növündən aslı olaraq onların orqanizmdə yaratdığı xəstəliklərin həm diaqnostikasında, həm də müalicəsində nəzərə alınması mütləqdir.

Bağırsaq mikrobiotasının tərkib və funksiyasının pozulması bakteriyalar, göbələk baxımından bağırsağın iltihabi xəstəliklərini, Kron, xoralı kolit kimi xəstəliklərlə bağlıdır. Hər iki halda da əsas mikrobiotanı təşkil edən mikroorqanizmlərin azalması və *Enterobacteriaceae* kimi bakteriyaların isə artması ilə müşayət olunur. Bu isə heyvanlarda xüsusilə iltihabla əlaqələndirilir. *Faecalibacterium prausnitzii* isə tərsinə Kron xəstəliyində iltihabı azaldaraq, heyvanların sağalmasına səbəb olur.

Bəzi alimlər isə helmintlərlə yoluxmanın bağırsağın iltihabi xəstəliklərini azaltması müşahidələrini təqdim edir. Helmintlərlə yoluxma bağırsaq mikroflorasının müxtəlif populyasiyaların artmasına, o cümlədən iltihab əleyhinə olan *Clostridia*-larin çoxalmasına gətirib çıxarır. Bu konsepsiya isə bağırsağın bakteriyalarla manipulyasiyası iltihabi proseslərin profilaktika və müalicəsində əsas potensial oduğu fikri ilə üst üstə düşür.

Bir çox xoralı kolitlərdə Th2 və Th1in miqdarının naiv T hüceyrələrinə nisbətinin artması müşahidə edilmişdir. Xüsusilə Th2 nin artması daha çox mikrobiotun spesifik tərkibindən və xəstəliyin ağırlıq dərəcəsindən aslı olaraq dəyişir. Ağır xəstələrdə daha çox *Bacteroides* və *Candida* ilə müşayət olunur. Bu isə xəstələrin mikrobiomunda metabolizm məhsulları və mikrob liqandları ilə əlaqələndirilmişdir. Eyni zamanda bu xəstələrin nəcisində triptofanın indol törəmələrinin konsentrasiyasının azalması ilə müşayət olunub. *Lactobacillus* ştamlarının əlavə edilməsi isə triptofanın mübadiləsini gücləndirərəkmüalicədə İL-22-nin artmasına və iltihabi prosesin zəfləməsinə səbəb olmuşdur.

Beləliklə, bağırsaq iltihabını bakteriyalarla modulyasiya etməklə disbiozda mikrobiomun manipulyasiyasının, xüsusilə xəstələrdə pozulmuş funksiyalarını bərpa edən ştammların əlavə edilməsi terapevtik müdaxilə kimi qiymətləndirilə bilər.

Belə ki, mikrobiomun təyini bizə nə verə bilər

- Bağırsaq mikroorqanizmlərinin xəstəliklərdən qorumasını
- Pəhrizin bağırsaq mikrobiomasına təsirini
- Bağırsaq mikrobiomasının vitamin sintez etmək qabiliyyəti
- Nəticələrə əsasən fərdiləşdirilmiş qidalanma tövsiyələri

Son onillikdə heyvan modeli və insanlarda aparılan epidemioloji tədqiqatlar, körpələrdə müxtəlif istiqamətli mikrobioma əlaqələrinin pozulması problemini ortaya qoydu. Zəif metabolik pozğunluqlar sonrakı dövrlərdə də immun sistemlə əlaqəli dəyişikliklərə səbəb olur. Bu isə uşaqların inkişaf dövrünün metabolik pozğunluqlarında bağırsaq mikrobiomasına müdaxilələr bu tip terapevtik potensialdan istifadə etmək üçün növbəti zəruri addımdır. Əhəmiyyətli tərəfi də odur ki, aparılan tədqiqatlar göstərir ki, erkən dövrdə mikrob növlərinin yaranma dinamikasına ətraf mühit faktorları, immun və metabolik homeostaz təsir edir və sonrakı dövrlərdə iltihabi, allergik və s. xəstəliklərə səbəb ola bilər ki, bu da yeni yanaşmalar tələb edir. Buna görə də, effektiv diaqnostik və terapevtik strategiyaların işlənib hazırlanması üçün istifadə oluna bilən mikrob ekologiyası nöqteyi-nəzərindən, mikroorqanizm-makroorqanizm dinamikasını öyrənmək üçün yeni istiqamətə ehtiyac olduğu göz önündədir.

Aparılan tədqiqatlar nəticəsində xəstəliklərin inkişaf dövründə bağırsaq mikrobiotasının əhəmiyyətinə dair kifayət qədər sübutlar əldə edilsə də, həyatın erkən dövründə bağırsaq mikrobiotasında baş verən dəyişikliklərin sahib orqanizmdə uzun müddət davam edən və ya daha sonra baş verən dəyişikliklərlə eyni təsirə malik olub-olmayacağı aydın deyil. Bu isə bəzi tədqiqatların nəticələrinə görə dəyişə bilər. Beləliklə, sahib orqanizmin bağırsaq mikrobiotasının nəcis və zərdabdakı biomarkerlərinin təhlili və məlumatların korreksiyasının tətbiqi, mikrobiotanın sahib orqanizmin metabolizminə təsirini başa düşmək üçün böyük əhəmiyyət kəsb edir. Bu biliklərə əsaslanaraq, uşaqlarda dizbiozun səbəblərinin araşdırılması, probiotiklərlə müdaxilələr aparılmalı və onlar arasında olan əlaqənin müəyyənləşdirilməsi lazımdır.

Anadan dölə şaquli olaraq ötürülən metabolik fenotiplərdə mikrobiotanın rolu və laktasiya dövründə yenidoğulmuşlara ananın dərman və qidalanmasının təsiri kimi mexanizmləri haqqında hazırda az məlumat var. Nəsillərarası metabolik disregulyasiyanın tsiklik prosesini dayandırmaq üçün prenatal profilaktik müdaxilələrə ehtiyac olduğunu nəzərə alaraq bu suallara cavab vermək üçün bu problem aktual olaraq alimlər tərəfindən öyrənilməlidir.

M43

SİFİLİSDƏ MÖVCUD VƏZİYYƏT

Leyla MƏMMƏDOVA
Azərbaycan Tibb Universiteti, Tədris Cərrahiyyə Klinikası
dr.memmedovaleyla@gmail.com

Treponema pallidum spiroxetləri tərəfindən törədilən sifilis mühüm qlobal və ictimai sağlamlıq problemi olaraq qalmaqdadır. Xəstəliyin yüksək gəlirli ölkələrdə yayılması artım istiqamətində davam edir. Son onillikdə sifilisin bütün dünyada, xüsusilə Afrika, Cənub-Şərqi Asiya, Qərbi Avropa, Rusiya və Çində yayılması, bu ərazilərdə ciddi ictimai sağlamlıq problemlərinə səbəb olmuşdur. Xəstəliyin profilaktikası üçün sərf edilən səylərə baxmayaraq kişilərlə cinsi əlaqədə olan kişilər arasında (MSM) sifilisə yoluxma halları əhəmiyyətli dərəcədə artmışdır (xüsusilə HİV-ə yoluxmuş insanlar arasında). Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin (CDC) məlumatına görə, 2020-ci ildə təxminən 134000 sifilisə yoluxma halı aşkarlanmışdır. CDC və ÜST tərəfindən irəli sürülən birincili və anadangəlmə sifilisin profilaktikası üçün həyata keçirilmiş ictimai səhiyyə tədbirləri sifilis hallarını əhəmiyyətli dərəcədə azaltmışdır, lakin qarşıya qoyulan məqsədlərə nail olmaq hələlik mümkün olmamışdır. Son 20 ildə sifilisə yoluxmuş xəstələrin sayının artması ilə erkən diaqnoz və müalicənin zəruriliyi böyük önəm qazanmşdır.

Xəstəliyin bəzi infeksiyalara oxşar müxtəlif cür təzahürü klinisistlərdə diaqnozun qoyulması zamanı çaşqınlıqlar yaradır. Buna görə də, T. pallidumun vaxtında aşkarlanması üçün həssas bir üsulun seçilməsi xüsusi əhəmiyyət kəsb edir. Sifilisin diaqnozu üçün morfoloji müayinə, immunohistokimyəvi test, dovşanlarda bioloji sınaq, seroloji testlər və ZPR testi tətbiq edilmişdir. Erkən sifilisdə şankr nümunələrində T. pallidumu birbaşa aşkarlama metodu kimi morfoloji müayinə- qaranlıq sahə mikroskopiyası, gümüşlə boyanma və birbaşa flüoresan anticisim boyanması tətbiq oluna bilər. İmmunohistokimyəvi testlər xüsusilə ikincili sifilisdə lezyonun biopsiyası zamanı yüksək həssas və spesifik analizlərdir. Dovşanlarda bioloji test klinik nümunələrdə T. pallidumun aşkarlanması üçün etibarlı və tarixi üsul kimi istifadə olunur. Sifilis üçün seroloji testlər ənənəvi və ya tərs alqoritmlə qeyri-treponemal və treponemal testlər olaraq geniş istifadə olunur və sifilis xəstələrinin diaqnozunda qızıl standart olaraq qalır. Bundan əlavə, ZPR analizi xəstələrdən alınan nümunələrdə T. pallidum DNT-ni aşkar etməyə imkan verir. Yuxarıda göstərilən üsulların hamısı sifilisin müxtəlif mərhələlərində mühüm rol oynayır. Bu icmalın məqsədi sifilisin aşkarlanması üsullarının xüsusiyyətlərinin xülasəsini təqdim etməkdir.

Sifilisin diaqnozu anamnez, fiziki müayinə və laborator testlərə əsasən qoyulur. T.pallidumu kultivasiya etməyin çətinliyi digər diaqnostik üsullara müraciəti zəruri edir, bu səbəbdən də birbaşa və dolayı üsullardan istifadə edilir.

Birincili sifilisdə müsbət qaranlıq sahə mikroskopiyasının və ya şankrdan götürülmüş materialın zəncirvari polimeraza reaksiyasının nəticəsi (ZPR), klinika və müsbət seroloji testlər diaqnostik meyarlar hesab olunur. İkincili sifilisə isə pozitiv qaranlıq sahə, reaktiv treponemal və ya alternativ qeyri-treponemal testlər vasitəsilə diaqnoz qoyulur. Təəssüf ki, bəzi mərhələlərdə xəstəlik asimptomatik gedişata malik olduğu üçün çox erkən sifilis, neyrosifilis və üçüncülü sifilis zamanı diaqnozun qoyulması bir sıra çətinliklər yaradır.

Texnologiyanın inkişafı T. pallidumun diaqnozu üçün bir çox yeni üsullar nümayiş etdirdi; buna baxmayaraq,bu üsulların əksəriyyəti qeyri-qənaətbəxşdir. T. pallidumun rekombinant zülallarının aşkarlanması və NAAT-ın tətbiqi sifilisin diaqnozu üçün gələcək tədqiqatların prioritetləridir. Texnologiya və innovasiyaların davamlı inkişafı sifilisin diaqnostikası və həmçinin terapevtik təsirlərin qiymətləndirilməsi üçün daha sürətli, dəqiq və effektiv üsulların tətbiqi ilə nəticələnəcəyinə dair böyük ümidlər yaradır.

M44

ANTİBİOTİKLƏRƏ HƏSSASLIQ TESTLƏRİ VƏ YERLƏRDƏ QARŞILAŞILAN PROBLEMLƏR

Nərminə İSMAYILOVA
Sağlam Ailə Tibb Mərkəzi
dr.narminaismayilova@gmail.com

Antibiotiklərə həssaslıq testlərinin təyini üsullarına disk-diffuziya, durulaşdırma, E-test, avtomatlaşdırılmış sistemlər aiddir.

Disk-diffuziya üsulu (**Kirby-Bauer üsulu**) daha çox tətbiq edilir (Cədvəl 1). Tədqiq edilən bakteriya suspenziya bərk qidalı mühitə (Müller-Hinton və ya qoyun qanlı aqarı) yayıldıqdan sonra səthinə antibiotiklər hopdurulmuş kağız disklər düzülür. 18-24 saat 37°C temperaturda inkubasiyadan sonra disklərin ətrafında mikroorqanizmlərin inkişafı dəyərləndirilir. Bakteriya antibiotikə həssas olarsa, diskin ətrafında steril inhibisiya zonaları əmələ gəlir.

Cədvəl 1. *Kirby-Bauer üsulunun standartları*

İstifadə olunan qidalı mühit	**Müller-Hinton aqar**
Qidalı mühitin Petri kasasındakı qalınlığı	4-6 mm
Qidalı mühitin pH-ı	7,2-7,4
Bakteriya suspenziyasının bulanıqlığı	0,5 McFarland
Bakteriya suspenziyasının həcmi	0,2 ml
Disklər arasında məsafə	2-2,5 sm
Disklərlə Petri kasasının kənarı arasında məsafə	1,5 sm

AHT-yə təsir edən faktorlara (cədvəl 2) qidalı mühitin pH-ı, qalınlığı, rütubət, timin-timidin tərkibi, ikivalentli kationların qatılığı, qan və serum əlavələri, antibiotiklərin saxlanma və daşınma şəraiti, suspenziyanın hazırlanması, inkubasiya temperaturu, atmosferi, müddəti kimi göstəricilər aiddir.

Cədvəl 2. *AHT-yə təsir edən faktorlar*

pH ↓	Aminoqlikozid, xinolon, makrolidlərin aktivliyi azalır (yalançı davamlılıq)
Ca^{+2}, Mg^{+2} ↑	Aminoqlikozid, tetrasiklin aktivliyi azalır (yalançı davamlılıq)
Zn^{+2} ↑	Karbapenemlərin aktivliyi azalır (yalançı davamlılıq)
Rütubət	Homogen yayılmaması
Aqar qalınlığı ↑	Qalın aqarda antibiotik daha qısa məsafəyə yayılır (yalançı davamlılıq)
Suspenziya qatılığı ↑	Yalançı davamlılıq
Suspenziya qatılığı ↓	Yalançı həssaslıq

AHT nəticələri verilən zaman test edilən mikroorqanizmin təbii davamlılıq vəziyyəti, xəstəxananın davamlılıq vəziyyəti, yanlış identifikasiya, xətalı antibiotikoqram, səhv oxuma kimi mümkün problemlər nəzərə alınmalıdır.

Durulaşdırma üsulu zamanı antibiotiklərin maye və bərk qidalı mühitlərdə ardıcıl şəkildə durulaşdırılması əldə edilir və hər bir durulaşmaya həssaslığı təyin olunacaq bakteriyanın məlum sayda hüceyrədən ibarət suspenziyası əlavə edilir. İnkubasiyadan sonra mikroorqanizmin inkişafını dayandıran ən aşağı konsentrasiya – ***minimal inhibisiya konsentrasiyası (MİK)*** qeyd edilir.

E-test üsulunda bakteriyanın 0,5 McFarland qatılığında suspenziyası Müller-Hinton aqarına steril tamponla inokulyasiya edilir. Qidalı mühitin səthinə müəyyən bir antibiotik qradiyentinə malik **E-test kağız stripləri** yerləşdirilir. 18-24 saat inkubasiya edildikdən sonra MİK dəyəri

təyin edilir. MİK dəyər strip ətrafında əmələ gələn inhibisiya ellipsinin lent üzərindəki ölçü ilə kəsişdiyi nöqtədir.

Avtomatlaşdırılmış sistemlərə (cədvəl 3) VİTEK2 Compact, Microscan, Phoenix və digərləri aiddir.

Cədvəl 3. *Avtomatlaşdırılmış sistemlərin üstünlükləri və çatışmazlıqları*

Üstünlüklər	**Çatışmazlıqlar**
Daha qısa müddətdə nəticələrin verilməsi	Panellər standart olduğundan başqa antibotiklərin ayrıca test edilməsi
İş yükünün azaldılması	Mütəxəssis rəyinə ehtiyacın hər zaman olması
Manual giriş edilmədən birbaşa sistemə nəticələrin ötürülməsilə xətaların azalması	Hansı mikroorqanizmin işlənilməsi, saf koloniyanın alınması, xətalar zamanı testin təkrarlanması
Standartlaşdırılmış sistemlər sayəsində xüsusi davamlılıqların aşkarlanması, ehtiyac olduqda dəyişiklik edilməsi	Çətin inkişaf edən, anaerob və bəzi fermentləşdirməyən bakteriyaların AHT edilməməsi
Testlər bazasına asan şəkildə baxılması	Bahalı olması

AHT-də yerlərdə qarşılaşılan çətinliklər əsasən aşağıdakı şəkildə meydana çıxır:

1) Törədicilərin izolə edilməsi üçün müayinə materialının düzgün götürülməməsi, AHT edilməsi
2) Törədici olmayan, normal floraya aid və ya kolonizasiya olan mikroorqanizmlərə AHT işlənilməsi
3) Standartlaşdırılmış antibiotiklərə həssaslıq testlərinin tətbiq edilməməsi, təsadüfi şəkildə seçilmiş antibiotiklərlə AHT edilməsi.
4) Bəzi mikroorqanizmlərin təbii davamlılığının nəzərə alınmaması
5) Bəzi hallarda lazımi qidalı mühitlərin olmaması, manual şəkildə hazırlanmış antibiotik disklərindən istifadə.
6) Avtomatlaşdırılmış sistemlərin olmaması, MİK nəticələrinin əldə oluna bilməməsi

M45

AZƏRBAYCANDA İİV-İNFEKSİYASI/QİÇS-LƏ BAĞLI EPİDEMİOLOJİ VƏZİYYƏT VƏ MÜBARİZƏ TƏDBİRLƏRİ

Səbinə BABAZADƏ

sabina.babazade@isim.az

Dünyada İİV/QİÇS-ə qarşı aparılan mübarizəyə baxmayaraq, onun xüsusən də, Şərgi Avropa və Mərkəzi Asiya (ŞAMA) regionunda yayılması davam etməkdədir. Azərbaycanda bu infeksiya əsasən yoluxma yüksək riskli qruplar arasında yayılmışdır. Son illər digər region ölkələrdə olduğu kimi Azərbaycan da da heteroseksual yoluxma yolu üstünlük təşkil edir.

Ümumilikdə, Azərbaycanda ilk dəfə İİV-infeksiyasının aşkar edilidiyi 1987-ci ildən 2022-ci ilin sonunadək, Respublika QİÇS-lə Mübarizə Mərkəzində 8563 İİV- lə yaşayan Azərbaycan vətəndaşı rəsmi qeydiyyatdadır. Onlardan 69,5%-i kişi, 30,5%-i qadınlardır.

Azərbaycanda İİV-infeksiyasının yayılması əsasən inyeksion narkotik istifadəsi nəticəsində baş verir. İnyeksion narkotikdən istifadə (İNİ) halları Respublikanın şəhər və rayonlarında yayılaraq, nəticədə bu qrupun nümayəndələri arasında İİV-infeksiyasının sayının artmasına səbəb olur. Bundan əlavə inyeksion narkotik istifadəsi zəminində başlayan epidemiya, İNİ-in cinsi kontaktlar, heteroseksual yolu və daha sonra anadan uşağa ötürülməklə geniş əhali kütləsi arasına yayılır.

Respublika QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən 2022-ci ilin sonunadək qeydiyyata götürülən ölkə vətəndaşlarından 35,6%-də İİV-ə yoluxma inyeksion narkotik istifadəsi nəticəsində, 53,6%-də heteroseksual, 4,5%-də homoseksual kontakt nəticəsində, 1,5%-də anadan uşağa keçməklə baş vermişdir.

Elmin son nailiyyətlərini nəzərə alaraq İİV-lə yaşayan bütün insanlara xəstəliyin gedişatına nəzarət etmək imkanı yaradan müalicə kimi antiretrovirus terapiyasının (ART) tətbiq olunması tövsiyə edilmişdir. Bu müalicə nəticəsində tam sağalma mümkün olmasa da, xəstəliyin şiddətlənməsinin, ikincili xəstəliklərin inkişafının qarşısını alıb, hətta geriyə qaytarmaq (əgər ikincili xəstəliklər artıq baş qaldırmışlarsa), əmək qabiliyyətinin itirilməsini dayandırmaq mümkün olur, pasiyentin yaşama müddətinin uzadılması və İİV-in ötürülmə riskinin endirilməsinə nail olmağa imkan yaranır. Azərbaycanda ÜST-ün İİV-ə yoluxan şəxslər üçün "hamını müalicə etmək" tövsiyəsi tətbiq olunur və hazırda bütün İİV-lə yaşayan pasiynetlər üçün ART əlçatandır.

Ölkəmiz UNAİDS-in 95-95-95 hədəflərinə yaxınlaşan ölkələr sırasındadır: Bu hədəf göstəricilərinə əsasən İİV-lə yaşayanların 95% öz müsbət İİV-statuslarından xəbərdar olmalı, müsbət İİV-statuslarından xəbərdar olanların 95% ART qəbul etməli və ART alanların 95% müəyyən edilməyən səviyyədək yatırılmış virus yükünə malik olmalıdır. Bu məqsədlərə nail olmaq QİÇS epidemiyasının, 2030-cu ildə zərərsizləşdirilməsinə imkan verəcəkdir. 2022-ci ilin nəticələrinə əsasən Azərbaycanda kaskad rəqəmləri: 80.5% - 84.4% - 80.7%

İİV/QİÇS–in yayılmasının qarşısını almaq ücün ölkədə Səhiyyə Nazirliyi rəhbərliyi altında və digər əlaqədar qurumlar tərəfindən qarşılıqlı əməkdaşlıq şəkildə profilaktika işi aparılmaqdadır.

İİV/QİÇS–lə mübarizədə RQMM tərəfindən çoxşaxəli profilaktik fəaliyyət həyata keçirilir:

- İİV–in profilaktikası istiqamətində ən əhəmiyyətli profilaktik tədbirlərdən olan, donor qanının təhlükəsizliyinin təmin olunmasıdır;
- tibbi prosedurların təhlükəsizliyinin təmin olunması;
- İİV–in anadan uşağa ötürülməsinin profilaktikası;
- nigaha daxil olanların İİV-ə görə müayinəyə cəlb olunması;

- gənclər və digər əhali qrupları arasında İİV–in profilaktikasının həyata keçirilməsi və marifləndirmə işlərinin aparılması;
- Kütləvi informasiya vasitələrində kampaniyalarının aparılması;
- İİV–lə yaşayan insanlara qarşı stiqma və diskriminasiya səviyyəsinin azaldılması və tolerantlığın yüksəldilməsi.

Azərbaycanda hər bir şəxs İİV–ə görə, müayinədən kecə bilər. Belə ki, vətəndaşlığından asılı olmayaraq, hər bir şəxs RQMM-də və onun regional laboratoriyalarında İİV–ə görə ödənişsiz və anonim qaydada müayinədən keçə bilər.

İİV infeksiyası ilə bağlı mövcud epidemioloji vəziyyət məqsədyönlü tibbi və profilaktik tədbirlərin vaxtında həyata keçirilməsi, son illər sosial əhəmiyyətli infeksion xəstəliklərin artma tendensiyası nəzərə alaraq, hər bir həkim mütəxəssisin İİV-in erkən diaqnostikasında iştirakı vacibdir.

M46

İNVAZİV ASPERGİLLOZLARIN LABORATOR DİAQNOZU

Səidə ƏLİYEVA
Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
aliyevasaida19@gmail.com

Aspergillus növləri xüsusilə immun sistemi problemi olan xəstələrdə ciddi infeksiyalara səbəb olan və immunsupressiv dərman və antibiotiklərin geniş istifadəsi ilə əhəmiyyəti artan infeksiyalar törədən göbələklərdir. Aspergillus sporlarının gündəlik inhalyasiyası adi hal olsa da, immun sistemi zəifləmiş və ya ağciyər patologiyası olan xəstələrin yalnız kiçik bir hissəsində xəstəlik inkişaf edir. Ağciyər aspergillozunun üç kateqoriyası var: allergik bronxopulmonar aspergilloz (ABPA), xroniki ağciyər aspergillozu (XAA) və invaziv ağciyər aspergillozu (IA)Nadiren endoftalmit, osteomielit, endokardit və s. kimi xəstəliklərə də səbəb ola bilir.İnvaziv xəstəlik hallarında təcrid olunan ən çox yayılmış növlər A.fumigatus, ardınca A.flavus, A.terreus və A.nigerdir. IA ağır immun çatışmazlığı olan şəxslərdə baş verir .IA hematopoietik kök hüceyrə transplantasiyası alıcılarında ən çox yayılmış göbələk infeksiyasıdır,həmçinin solid orqan transplantasiyası xəstələrində, xüsusən də ağciyər transplantasiyası resipiyentlərində geniş yayılmışdır.

IA laborator diaqnostikasında birbaşa mikroskopik müayinə,histoloji müayinə, kultivasiya, seroloji və molekulyar tetlərdən istifadə olunur.

Mikroskopiyanın İA üçün həssaslığı ən yaxşı halda 50% təşkil edir . Nümunələr 10% kalium hidroksid əlavə edilmiş və ya əlavə edilməmiş yaş preparat kimi araşdırıla bilər. Calcofluor White və ya Blancophor kimi flüoresan boyalar artan həssaslıq, sürətli işləmə müddəti və geniş tətbiqetmə üstünlüklərinə malikdir, lakin Aspergillus üçün spesifik deyil. Gomori metenamin gümüş boyasi (GMS) və periodik asit-Schiff (PAS) histoloji kəsiklərə və yaxmalara tətbiq oluna bilər və IA ehtimalı olan bütün hallarda aparılması məsləhət görülür.

Bronxial yuyulma və ya bronxalveolyar lavaj (BAL) nümunələrindən əldə edilən Aspergillus kulturaları İA diaqnozu üçün aşağı həssaslığa malikdir (<30%), lakin ağır immun çatışmazlığı olan xəstələrdə yüksək müsbət proqnoz dəyərinə (>60%) malikdir.

Mayelərdə (xüsusilə BAL) Galaktomannanın (GM) aşkarlanması İA diaqnozu üçün kulturadan daha həssasdır.

Aspergillus DNT-nin PCR ilə amplifikasiyası başqa bir diaqnostik üsuldur. Ancaq bu üsulla, məsələn, BAL mayesində kolonizasiya və xəstəliyi aydın şəkildə ayırmaq mümkün deyil.

İnvaziv aspergillozlu xəstələrdə galactomannan(GM)ve 1-3-beta-glukan antigenləri müəyyən oluna biler. Aspergillus hüceyrə divarının tərkib hissəsi olan GM-nin antigen aşkarlanması ən çox istifadə edilən metodologiyadır. Testin həssaslığı dəyişkəndir və orqanizmdən asılıdır.

Məsələn, hematoloji bədxassəli xəstəlikləri olan xəstələrdə immunosupressiya dərəcəsi daha az olan xəstələrə nisbətən daha yüksək həssaslıq var və antifungal terapiya alan xəstələrdə yanlış mənfi GM nəticələri ola bilər. 1-3-beta-glukan antigen təyini faydalı ola bilər, lakin bu marker Aspergillus üçün spesifik deyil və onun mövcudluğu digər invaziv göbələk infeksiyalarını göstərə bilər.

Lateral flow device (LFD): Monoklonal JF5 anticismindən istifadə edərək, aktiv şəkildə çoxalan Aspergillus spp-nin mannoproteinini aşkarlayan bir üsuldur. Ucuzdur, sürətlidir, xüsusi avadanlıq tələb etmir. Həm serum, həm də BAL nümunələri istifadə edilə bilər. Yalnış pozitivlik ola bildiyinə görə təkbaşına LFD IA diaqnozunu qoymağa kifayət etmir.

Açar sözlər: İnvaziv aspergilloz, Galaktomannan, 1-3-beta glukan, LFD,PCR

M47

MOLEKÜLER GENETİK TESTLERDE VE SONUÇLARIN YORUMLANMASINDAKI ZORLUKLAR

Z. Oya UYGUNER

İstanbul Üniversitesi, İstanbul Tıp Fakültesi, Tıbbi genetik AD

o.uyguner@istanbul.edu.tr

Genetik testin istenmesinden uygulanmasına, raporlanmasından hastaya genetik danışmanlık eşliğinde verilmesine ve en nihayetinde hasta ve ailesinin tıbbi yönetimine kadar tüm bu süreçlerin çeşitli zorlukları ve istenmeyen durumları olabilmektedir. Bu süreçler altı farklı aşamada değerlendirilir; pre-pre-analitik, pre-analitik, analitik, post-analitik ve post-post-analitik. **Pre-pre analitik** evre, test yapan laboratuvarın denetiminde olmayan süreci içerir ve test merkezine dışarıdan gönderilmiş örnekleri, dışarıdaki saklama ve transport koşulu gibi durumlardaki sorunlarla ilişkilidir. **Pre-analitik** evre, laboratuvar içinde henüz testin başlamadığı aşamada ortaya çıkan durumlardır; yanlış örnekte test yapılması, yetersiz ya da bozulmuş örnekle çalışılması bu basamakta karşılaşılabileceğimiz örnekler arasındadır. **Analitik** aşama testin yöntemsel yaklaşım ve işleyişinde karşılaşılan durumları içerir. Test yönteminin doğru seçiminden koşullarının optimize olup olmamasına, cihazların kalibrasyon bakımlarının düzenli yapılıp yapılmamış olmasına kadar çeşitli aşamalardaki problemleri içerir. **Post-analitik** evre problemleri test sonucunun biyoinformatik analizinde ve yorumlanmasında yaşanabilecek durumlarla ilişkilidir. Bu basamakta da **post-post analitik** evre vardır. Bu bölüm sonuçların doğru yorumlanması ve hastanın doğru yönetilmesi ile ilgilidir.

Bu sunumda sizlere moleküler genetik testlerimizde tespit ettiğimiz analitik evre ve post-analitik evre zorluklarını örnekler eşliğinde göstermeye çalışacağım. Özellikle DNA'nın kişiye özgü yapısından ve polimorfik niteliklerinden kaynaklanan durumların oluşturduğu zorluklar dikkat çekicidir. Psödogen, duplike ya da düşük kopya sayılı bölgelerin varlığı, sekonder yapılanmaya neden olan diziler bir allelin okunmaması (allel-drop-out) sonucu heterozigotluğun gizli kalması ya da yapay varyant oluşturması gibi sorunların kaynağını teşkil eder. Ayrıca, yüksek kapasiteli dizilerde optimize edilmemiş iş akışının kullanılması, ya da tekniğin doğasında var olan kapsam ve derinlik sorunları yaratarak hatalı ya da yetersiz okumalara yol açabilmektedir. Testlerin hedefi en az hata ile test yapmak olsa da bu oranların güncel teknikler kapsamında ne yazık ki sıfırlanması mümkün değildir. Dış müdaheleye kapalı olan otomatik/robotik sistemler analitik hatalarının önüne geçmesi bakımından tercih edilebilir. Laboratuvarlarda iyi uygulama kurallarının oluşturulması ve uygulanması laboratuvardaki testlerin en az hata ile düzgün ve güvenilir işlenmesine önemli katkı sunacaktır.

KAYNAKLAR.

1. Ma, X., Shao, Y., Tian, L., Flasch, D. A., Mulder, H. L., Edmonson, M. N., Zhang, J. Analysis of error profiles in deep next-generation sequencing data. Genome Biol. 2019; 20(1): 50.
2. Julie A. Hammerling, A Review of Medical Errors in Laboratory Diagnostics and Where We Are Today, Laboratory Medicine, Volume 43, Issue 2, February 2012, Pages 41–44, https://doi.org/10.1309/LM6ER9WJR1IHQAUY
3. Plebani M. Errors in clinical laboratories or errors in laboratory medicine? Clin Chem Lab Med. 2006;44(6):750-9. doi: 10.1515/CCLM.2006.123. PMID: 16729864.

M48

APPLICATIONS, CHALLENGES AND ETHICAL ISSUES OF NON-INVASIVE PRENATAL TESTING (NIPT)

Thomas LIEHR

Jena University Hospital, Friedrich Schiller University,
Institute of Human Genetics,
Jena, Germany
Thomas.Liehr@med.uni-jena.de

There are two major principle modalities to perform prenatal genetic diagnostics: by invasive or non-invasive means. Invasive prenatal genetic diagnostics depends on fetal or placental tissues, which can only be acquired by approaching the unborn with a needle to gain this material for further in vitro studies. Conversely, non-invasive tests do not disturb the fetal or placental tissues at all. The newest non-invasive prenatal diagnostic test approach is the so-called non-invasive prenatal testing (NIPT). Here an overview on few advantages and still much more critical issues of this approach are summarized. NIPT had basic technical issues to be understood by the specialists offering and the families taking the test. In parallel the biological background in context of NIPT are as important for this understanding. Most important problem here is that the literature refers to the cell free DNA tested as cell free fetal DNA; however, indeed cell free placenta derived DNA is analyzed. Accordingly, medical problems arise, such as detecting a chromosomal imbalance confined to placenta, only, leading to false-positive NIPT results. Overall, NIPT is a great idea; in practice it is still leading in too many cases either to an unjustified relief or a unnecessary concern of the pregnant woman.

M49

MOLEKULYAR GENETİK-DİAQNOSTİK TESTLƏR VƏ ƏHƏMİYYƏTİ

Ağarza AĞAYEV
Milli Hematologiya və Transfuziologiya Mərkəzi
agarzaagayev@gmail.com

Molekulyar genetik metodların istifadəsi ilə hematoloji kimi çox faktorlu xəstəliklərin bünövrəsində yatan ana genetik səbəblərin ən həssas və doğru şəkildə aşkarlanması böyük miqyasda mümkün olmuşdur. Molekulyar genetik metodlar, o cümlədən molekulyar sitogenetik metodlar da daxil olmaqla fluoresan in situ hibridizasiya (FISH), PZR, RT-PCR, qRT-PZR, Mikroarray, DNT sekvenləşdirmə və yeni nəsil nəsil sekvenləşdirmə analizləri kimi birdən çox diaqnostik yanaşmanı əhatə edir. Molekulyar genetik metodların istifadəsi ilə xüsusi ilə nöqtə mutasiyaları, gen ifadə dəyişiklikləri, bilinən və yeni patogenik genomik variantların təyini mümkün olur. Günümüzdə genetika elmi hematoloq və onkoloqlara sadəcə diaqnostik analiz testi olaraq nəticə verməklə kifayətlənməyib, eyni zamanda klinisistin pasiyentin proqnozunu qiymətləndirməsində, hədəfli müalicənin seçimində (fərdiləşdirilmiş tibb) və müalicə təqibində mühim genomik məlumatın əldə edilməsinə şərait yaradır. Bu təqdimatın əsas hədəfləri, klassik metodlar və sekvenləşdirmə haqqında məlumat qazandırmaq, ən məqsədəuyğun düzgün analizin seçilməsi və nəticələrin qiymətləndirilməsi zamanı diqqət ediləcək nüansların qeyd edilməsidir.

Molekulyar analizlər üçün DNT/RNT-nin izolasiyası nukleusu olan hər hansı bir toxumadan (nümunə olaraq qan isə K3EDTA-lı sınaq şüşəsinə alınan 1-2 ml nümunədən, yanaq mukozası, tüpürcək, kultivasiya olunan hüceyrələr vs) edilə bilər. Genetik əsası bilinən xəstəliklər ilə bilinməyənlərin tədqiqində müxtəlif alqoritmalar əsas alınır. Genetik əsası bilinən, differensial diaqnostikası aydın olan xəstəlikərin molekulyar genetik diaqnozunda hədəfə istiqamətlənmiş testlər tədqiq olunması istənilən mutasiya/variantın tipi və genomik lokalizasiyasına görə seçilir. Kiçik variantların aşkarlanmasında Sanger sekvenləşdirmə ən geniş istifadə olunan metoddur. Metodun icrasında xüsusi primerlər dizayn edilir və həmin oligonükleotid primerlərin istifadəsi ilə icra olunan PZR sonrası saflaşdırılan məhsul sonradan eyni və/və ya başqa primerin istifadəsi ilə sekvenləşdirilir. Analiz nəticəsində əldə olunan elektroferoqram referans insan genomu ilə müqayisə edilərək qiymətləndirilir. Nümunə olaraq rutin müayinələrdə sıxlıqla istifadə olunan Beta və Alfa Talassemiya, Jak2 ekzon 12 və ABL kinaz domainində qeyd olunan TKİ yaradan variantların analizi göstərilə bilər.

Hematologiyada molekulyar genetik analizlərin sıx istifadə edildiyi bir digər sahə isə leykozlarda genomda yerdəyişmələrə bağlı olaraq meydana gələn füzyon genlər və onların müalicə əsnasında molekulyar nəzarətdir. Füzyon genlərin tədqiqi üçün ilkin olaraq toxumadan total RNT izolasiyası edilir və reverse transkriptaza fermenti ilə araşdırılan genin (bu misalda füzyonun analizi üçün kimerik gen nəzərdə tutulur) transkripti cDNT`yə çevrilir. Daha sonra tədqiq olunacaq gen referans olaraq istifadə olunan başqa bir housekeeping genlə eyni zamanlı olaraq qPZR metodu ilə analiz edilir və mütləq kantitasiya metodu ilə füzyon transkriptin həmin münunədəki (sümük iliyi, periferik qan vs) kopya miqdarı hesablanır. Nümunə olaraq molekulyar monitorinq və minimal qalıq xəstəliyin təqibi məqsədi ilə BCR-ABL, PML-RARa füzyonlarının analizini göstərmək olar.

Xüsusi ilə delesiya/duplikasiya mutasiyalarının araşdırılmasında MLPA (Multiplex Ligation Dependent Probe Amplification) metodundan istifadə edilir. Kompleks talassemiyaların analizində beta globin və əlaqəli gen lokuslarının delesiyası və fetal hemoglobin persistentliyinin diaqnostikasında bu metoddan istifadə oluna bilər.

Hədəfə istiqamətli testlərdən bir digəri restriksiya ferment kəsim testidir, PZR və bir restriksiya fermentinin birlikdə istifadə olunduğu metoddur. Bu testin istifadəsinə hədəf mutasiyanın təyinində (nümunə olaarq FLT3 genində p.D835) molekulyar diaqnostikada sürətli və maliyət baxımından uyğun olması baxımından üstünlük verilə bilər.

Hematologiyada fraqment analiz testi (STR mikrosatellit polimorfizmlərinə əsaslanır) ximerizm təqibində istifadə olunur. Amplified Fragment Length Polymorphism təməlinə dayanan, fluoresan işarəli primerlərin istifadəsi və elektroforetik (sekvens cihazı və ya klassik poliakrilamid gel) sistemdə öncədən amplifikasiya olan fərqli uzunluqdakı fraqmentləri aşkarlayan bir metoddur.

Genetik əsası aydın olmayan, differensial diaqnozu xüsusi bir fenotip/sindromla uyğun olmayan, etiologiyasında birdən çox genin/metobolik yolun səbəb olduğu düşünülən klinik halların və ya irsi xəstəliklərdə yeni bir genin araşdırıldığı hallarda isə bağlantı analizləri, genom boyu assosiasiya çalışmaları, mikroarray analizləri və yeni nəsil sekvenləşdirməyə əsaslanan "high-throughput" genetik analizlər icra olnur. Nadir hematoloji irsi xəstəliklərin analizində bütün ekzom (WES) və yeni nəsil sekvenləşdirməyə əsaslanan panel-gen analizlərinin icrası nümunə olaraq qeyd edilə bilər. Bu analizlərin icrasında bioinformatik analizin zəruriliyi, variantların sinifləndirilməsi, öncəlikləndirilməsi və annotasiyası, VUS (variant unknown significance) variantların şərhi metod(lar)un çətinlikləri arasında sayıla bilər. Bu analizlərin tətbiqi ilə praktik təcrübəmizdə genetik diaqnozu dəqiqləşdirilən Griscelli sindromu, Ghosal hematodiafizal sindrom, Fanconi Aplastik Anemiyası və digər irsi sümük iliyi çatışmazlığı sindromları, Glanzman trombosteniyası, Atipik Hemolitik üremik sindrom, Von Willebrand xəstəliyi, Herediter Elliptositoz, Sferositoz, Paroxysmal nocturnal hemoglobinuria-2 kimi klinik hallar göstərilə bilər. Sadalanan nümunələrdən birinin genetik diaqnoz yolu təqdimatda göstəriləcək.

Genetik testlərin şərhlərində bəzi faktorlar nəzərə alınmalıdır: Analitik doğruluq, klinik doğruluq - genotip-fenotip korrelasiyası (yanlış pozitivlik, penetrans yoxluğu və ekspressivliyin dəyişkənliyi, yanlış negativlik, allelik və lokus heterogenliyi), klinik istifadəyə uyğunluq.

M50

SİTOGENETİK VƏ MOLEKULYAR SİTOGENETİK ANALİZLƏRİN NƏTİCƏLƏRİNİN DƏYƏRLƏNDİRİLMƏSİ

Birsen KARAMAN

İ.Ü. İstanbul Tıp Fakültesi, tıbbi genetik Anabilim Dalı, İstanbul, türkiye

İ.Ü. Çocuk Sağlığı enstitüsü, Pediatrik Temel Bilimler Anabilim Dalı, İstanbul, Türkiye

bkaraman@istanbul.edu.tr

ÖZET

Tıbbi genetik uygulamalarının en önemli aşamalardan birisi uygulanan testlerin raporlandırılması ve klavuzlara uygun bir şekilde yorumlanmasıdır. Test sonuçlarının tıbbi genetik uzmanı olmayan bir klinisyenin de anlayabileceği sadelikte hazırlanması, kullanılan dilin net olması, özellikle kompleks sonuçların yorumlarının literatür bilgileri eşliğinde açıklayıcı, bilgilendirici ve evrensel olması gerekmektedir.

Normal sonuçlar dahil, tüm raporların "yorum" içermesi, bir anomali saptanması durumunda ve gereğinden uzun açıklamalardan kaçınılarak daha sade bir dille bu anomalinin ne olduğu, klinik anlamı ve prognozu hakkında bilgiler verilmesi gerekmektedir. Kullanılan metodolojiler raporun birincil amacı olmasa da uygulanan testin/testlerin hastanın başvuru endikasyonuna uygunluğunun anlaşılması nedeniyle bahsedilmesi yapılan işin doğruluğunun takibi açısından belirtilmesinde yarar vardır.

Test raporlarının yapılan her bir testin sınırlamaları, yapılan testin endikasyona uygunluğunun ve bu endikasyon için kesin tanı koydurucu olup olmadığı ve başka yapılması gerekli testlerin önerilmesi ile ilgili bilgileri de içermesi beklentileri cevaplaması açısından önemlidir. Raporlama süresinin yapılan testin özelliklerine ve aciliyetine uygun olup olmadığının takibi açısından materyalin laboratuvara geliş tarihi ile rapor tarihinin belirtilmesi gerekmektedir. Özellikle zamanla yarışılan antenatal dönemde, konjenital anomali ya da cinsiyet gelişim anomalileri nedeniyle olası operasyon gerekliliğinde yeni doğan evresinde ve tedaviyi yönlendireceğinden kanser testlerinde endikasyona uygun aciliyet düzeyi dikkate alınmalıdır.

Her laboratuvarın literatüre uygun olsa da kendine özgü bir çalışma metodolojisi bulunmakla birlikte kullanılan metodolojiden bağımsız olarak tüm raporların TSE EN ISO 15189, ACMG ve ECA kılavuzlarına uygun olarak hazırlanması uluslararası standardizasyonu sağlamak açısından da önemlidir.

Bu sunumda, tüm bu hassasiyetler gözetilerek basitten karmaşığa, klasik sitogenetik testlerden moleküler sitogenetik testlere kadar endikasyona ve uygulanan tekniğe ve uluslararası klavuzlara bağlı olarak sonuçların raporlandırılması ve yorumlanması anlatılacaktır.

Anahtar kelimeler: Sitogenetik, moleküler sitogenetik, Floresan in situ Hibridizasyon, Kromozomal mikroarray, raporlama

M51

SİITOGENETİK VƏ MOLEKULYAR-SİTOGENETİK TESTLƏR VƏ ƏHƏMİYYƏTİ

Adəm NƏCƏFLİ
Milli Hematologiya və Transfuziologiya Mərkəzi
necefli1@hotmail.com

Xromosomlar bölünmənin metafaza mərhələsində qısalıb qalınlaşmış xromatidlər şəklində mikroskop altında görünə bilən, paketlənmiş DNT-dir. Hər xromosomun bir sentromeri, bir və ya iki ucunda telomeri vardır. İnsan xromosomları sentromerin yerinə görə 3 yerə bölünür: metasentrik, submetasentrik və akrosentrik xromosomlar. Periferik qan, sümük iliyi, amniositlər və s. kimi toxumalardan xromosom əldə oluna və analiz edilə bilər. Xromosom əldə olunacaq materiala görə kultivasiya müddətləri və gedişatı fərqlənir. Kultivasiya prosesində steril şərait olmasına, hüceyrə tipinə uyğun medyum (mühit) istifadəsinə, mitotik stimulyator, antibiotik istifadəsi, optimal temperatur, pH, nəm kimi faktorlara diqqət edilməlidir. Klassik sitogenetik (karyotipləmə) və molekulyar sitogenetik (FISH, a-CGH) metodlarla hər xromosomun özünə xas quruluşundakı dəyişikliklər analiz edilir, pasiyentin ilkin diaqnozu və ya hər hansı patoloji vəziyyətlə əlaqəli variantlar qeyd edilir. Bu analizlərin bəzilərinin icrasında metafaza xromosomları vacib olsa da bəzilərində interfaza mərhələsindəki hüceyrələr və ya DNT də uyğundur. Nəticələrin yazılması beynəlxalq nomenklaturaya (ISCN) uyğun həyata keçirilərək rapor hazırlanır və genetik konsultasiya ilə birlikdə pasiyentə təqdim edilir. Bu proqramda məqsədimiz sitogenetika və onun tətbiq sahəsi, sitogenetik testlərə ümumi baxış, bunların üstünlükləri və çatışmazlıqları haqqında məlumatların bölüşülməsidir.

M52

HEMAQLOBİNOPATİYALARIN KLİNİK İSTİQAMƏTLƏNDİRİLMƏSİNDƏ GENETİK TESTLƏR NƏ QƏDƏR ROL OYNAYIR

Xuraman CƏFƏROVA

Milli Hematologiya və Transfuziologiya Mərkəzi

khuraman.jafarova@talassemiya-merkezi.com

İnsan hemoqlobini (Hb) hem və polipeptid qlobin zəncirlərindən ibarətdir. Embrionik Hb-lər Hb Gower 1=2ζ 2ε, Gower-2=2α 2ε; Portland 1=2ζ 2Υ olub, embrionik dövrdə embrional dövrdə iştirak edir və birinci trimestirin sonunda yerini tədricən HbF ve HbA'ya verir. Doğulduqdan sonra yenidoğulmuşda fetal Hb (Hb F=2α2Υ) %80 ve yetkin tip Hb (Hb A=2α2β) %20 nisbətində rast gəlinir. HbA2 (2α2δ) bu dövrdə rast gəlinmir. Doğuşdan sonra Hb komponentləri gündən-günə dəyişir, altıncı ayda isə əsas Hb, HbA olub çox az miqdarda HbF və təsbit edilen az miqdarda HbA2 olur.

Ümumiyyətlə, hemoqlobinopatiyaları 3 qrupa bölmək olar:

a) Keyfiyyət pozğunluqları (hemoqlobin variantları),

b) Kəmiyyət anomaliyaları (talassemiyalar),

c) Keyfiyyət və kəmiyyət anomaliyaları (hemoqlobin variantları və talassemiyalar).

İrsi hemoqlobin xəstəlikləri, ilk növbədə Cənubi Afrikadan, Aralıq dənizi bölgəsi və Orta Şərqdən Cənubi və Cənub-Şərqi Asiyaya qədər uzanan tropik regionun aşağı və ya orta gəlirli ölkələrində rast gəlinir. Buna baxmayaraq, son dövrdəki davamlı miqrasiya bu xəstəliklərin Avropa və Şimali Amerikadakı böyük, multietnik şəhərlərə də yayılmasını xeyli artırmışdır.

İrsi hemoqlobin xəstəlikləri iki əsas qrupa bölünür. Birinci qrupa yetkin hemoqlobin A-nın α- və ya β-qlobin zəncirlərinin qüsurlu sintezi nəticəsində meydana gələn α- və β talassemiyalar daxildir. İkinci qrupa isə hemoqlobin S, C və E kimi struktur hemoqlobin variantları daxildir. Hər valideyndən fərqli talassemiya mutasiyalarının irsi ötürülməsi və ya talassemiyanın struktur hemoqlobin variantları ilə yanaşı ötürülməsi nəticəsində müxtəlif talassemiya fenotipləri üzə çıxa bilir . Transfuziyadan asılılıq müxtəlif talassemiya fenotiplərini və onların ağırlıq dərəcəsini bir-birindən fərqləndirən əsas amildir.

Talassemiyanın Fenotip xüsusiyyətləri və genotip-fenotip assosiasiyası

Həm α-, həm də β-talassemiya sindromlarında genotip-fenotip assosiasiyaları geniş məlumdur. Talassemiyanın müxtəlif fenotiplərinin fərqləndirilməsi əsasən klinik parametrlər əsasında aparılsa da yenə də klinik gedişat barədə dəqiq məlumatı genetik müayinə təyin edir.

β-talassemiya fenotipinin əsas modifikatoru homoziqot və ya kompound-heteroziqot vəziyyətdə ötürülən zaman β-qlobin geninin ekspressiyasına təsir edən geniş müxtəlifliyə malik mutasiyalardır (>200 xəstəliyə səbəb olan mutasiyalar, yenilənmiş siyahı http://globin.cse.psu.edu). Bu mutasiyalar β-qlobin zəncirinin sintezində cüzi azalmaya səbəb olan yüngül promotor mutasiyalardan β-qlobin zənciri sintezinin tamamilə dayanmasına, yəni β°-talassemiyaya gətirib çıxaran geniş diapazonu əhətə edir. β-Qlobin geninin delesiyasına nadir hallarda rast gəlinir. Mutasiyaların müxtəlifliyi nəticəsində meydana gələn α/β-qlobin zəncir balansının müxtəlif dərəcədə pozulması və qeyri-effektiv eritropoez böyük β-talassemiyadan fərqli olaraq, aralıq β-talassemiya zamanı müşahidə olunan orta dərəcəli anemiya və müvafiq fenotipin əsas müəyyənedici faktorlarıdır. İkincili modifikatorlar α/β-qlobin zəncir balansının pozulmasının hansı dərəcədə baş verməsinə

birbaşa təsir edən faktorlar olub, bura α-talassemiyanın müxtəlif molekulyar formalarının yanaşı ötürülməsi, α-hemoqlobin stabilləşdirici proteinin ekspressiyasının artması və böyüklərdə γ-zəncirin effektiv sintezinin təmini kimi amillər aiddir. Bugünədək γ-zəncir sintezinə təsir edən və fenotipi yüngülləşdirən bir neçə gen aşkar edilmişdir ki, bunlardan bəziləri β-qlobin gen klasterində ($\delta\beta^0$-talassemiya və ya A-γ və ya G-γ promotorlarında yerləşən nöqtəvi mutasiyalar), digərləri isə fərqli xromosomlarda yerləşirlər (*BCL11A, KLF1, HBS1L-MYB*). Üçüncülü modifikatorlara isə qlobin zənciri sintezinə birbaşa təsir etməyən, lakin dəmirin sorulması, bilirubin mübadiləsi, sümük metabolizmi, ürək-damar xəstəlikləri və infeksiyaya həssaslıq kimi xəstəliyin spesifik ağırlaşmaları üzərində yüngülləşdirici təsiri olan polimorfizmlər aid edilir. Aralıq β-talassemiya fenotipi, həmçinin heteroziqot β-talassemiya ilə yanaşı ötürülən α-qlobin geninin triplikasiya və ya kvadriplikasiyasının səbəb olduğu α-qlobin zənciri sintezinin artması nəticəsində də meydana gələ bilər. Nadir hallarda isə, yalnız bir β-qlobin lokusunda mutasiya aşkar edildiyi halda digəri tamamilə normal olur ki, belə hallara dominant β-talassemik mutasiyalar səbəb olur. ***Cədvəl 1-1*** β-talassemiya fenotipinə səbəb olan genotipləri təsvir edir.

Cədvəl 1-1. *β-Talassemiyanın genotip-fenotip assosiasiyaları.*

Fenotip	Genotip	Klinik gedişat
Səssiz daşıyıcı	• səssiz β/β	• Asimptomatik • Hematoloji pozğunluq yoxdur
Daşıyıcı/minor	• β^0/β, β^+/β, və ya yüngül β^+/β	• Asimptomatik anemiya • Mikrositoz və hipoxromiya
İntermedia	• β^0/yüngül β^+, β^+/yüngül β^+, və ya yüngül β^+/yüngül β^+ • β^0/səssiz β, β^+/səssiz β, yüngül β^+/səssiz β, və ya səssiz β/səssiz β • β^0/β^0, β^+/β^+, və ya β^0/β^+ ***və*** delesional və ya nondelesional α-talassemiya • β^0/β^0, β^+/β^+, və ya β^0/β^+ ***və*** γ-zəncir sintezinin artması • δβ-talassemiyanın delesional formaları və FHİP • β^0/β və ya β^+/β ***və*** ααα və ya αααα duplikasiyaları • Dominant β-talassemiya (daxili cisimciklər)	• Gecikmiş təzahür • Yüngül-orta anemiya • Transfuziyadan asılı deyil • Klinik ağırlığı dəyişkən olub minorla major arasında variasiya edir
Major	• β^0/β^0, β^+/β^+, və ya β^0/β^+	• Erkən təzahür • Dərin anemiya • Transfuziya asılılığı

α-talassemiya (hemoqlobin H xəstəliyi)

β-Talassemiyadan fərqli olaraq, α-talassemiya zamanı α-qlobin zəncirlərinin sintezinin defisiti 16-cı xromosomdakı α-qlobin gen klasterindəki delesiyalar nəticəsində meydana gəlir. Təxminən 128 müxtəlif molekulyar defektin α-talassemiyaya səbəb olduğu məlumdur. α-Qlobin genlərinin müxtəlif ölçülü delesiyaları məlumdur. Cənub-Şərqi Asiya delesiyası ($-^{SEA}$) ən geniş yayılmış delesiya olub hər iki α-genini əhatə etsə də, embrional qlobin genlərini əhatə etmir. ($-^{THAI}$) kimi daha böyük delesiyalar embrional genləri də əhatə etdiyinə görə daha ağır fenotiplə assosiasiya olunur. α-Talassemiyanın müxtəlif fenotipləri ilk növbədə delesiyanın iki lokusdan hər birində bir (α^+-talassemiya) və ya hər iki (α^0-talassemiya) α-qlobin geninin silinməsindən asılı olaraq meydana çıxır (***Cədvəl 1-2***).

Hemoqlobin Barts hidrops fetalis (α-talassemiya major) dörd α-qlobin geninin hamısının delesiyası nəticəsində meydana gəlir və həyatla bir araya sığmayan vəziyyətdir. Üç α-qlobin geninin silinməsi isə hemoqlobin H xəstəliyinə (aralıq α-talassemiya) səbəb olur. Delesional formalarla yanaşı, təqribən 70-ə yaxın non-delesional hemoqlobin H xəstəliyi (aralıq α-talassemiya) formaları da məlumdur ki, bunlar daha ağır fenotip və arabir və ya tez-tez transfuziya ehtiyacı ilə xarakterizə olunur (***Cədvəl 1-3***).

Ən çox təsvir olunan non-delesional hemoqlobin H xəstəliyi formaları hemoqlobin H Constant Spring və həmçinin hemoqlobin H Paksé, Quong Sze və Suan Dokdur.

Cədvəl 1-2. *α-Talassemiyanın genotip-fenotip assosiasiyaları.*

Fenotip	Genotip	Klinik gedişat
Səssiz daşıyıcı	• -α/αα	• Asimptomatik • Hematoloji pozğunluq yoxdur
Daşıyıcı/minor	• -α/-α • --/αα	• Asimptomatik anemiya • Mikrositoz və hipoxromiya
Delesional hemoqlobin H xəstəliyi	• --/-α	• Yüngül-orta anemiya • Transfuziyadan asılı deyil • Klinik ağırlığı dəyişkən olub minorla major arasında variasiya edir
Non-delesional hemoqlobin H xəstəliyi	• --/$\alpha^{T}\alpha$	• Orta-ağır anemiya • Arabir və ya tez-tez transfuziya ehtiyacı
Major (hemoqlobin Barts hidrops fetalis)	• --/--	• Əksəriyyətində hidrops fetalis sindromu inkişaf edir və hamiləlik dövründə və ya doğuşdan qısa müddət sonra tələf olur • Sağ qalanlar transfuziyadan asılı olur

Bəzi nadir formalar α^{0}-talassemiya ilə $\alpha^{Cd\ 59Gly\text{-}Asp}$, $\alpha^{\Delta Cd\ 30}$, $\alpha^{Cd\ 66\ Leu\text{-}Pro}$, $\alpha^{Cd\ 35Ser\text{-}Pro}$, və hemoqlobin H Pak Num Po kimi nadir nondelesional mutasiyaların yanaşı ötürülməsi nəticəsində meydana gəlir. Genetik modifikasiya əsasən β-qlobin mutasiyalarının yanaşı ötürülməsi nəticəsində meydana gələ bilər və belə hallar hemoqlobin H/β-talassemiya adlandırılır. Nondelesional hemoqlobin H xəstəliyində α-hemoqlobin stabilləşdirici proteininin xəstəliyin fenotipini yüngülləşdirməsi ehtimal edilir.

Cədvəl 1-3. *Delesional və nondelesional hemoqlobin H xəstəliyinin klinik və hematoloji təzahürü.*

Klinik əlamətlər	Delesional (Hemoqlobin H xəstəliyi)	Non-delesional (Hemoqlobin H Constant Spring)
Hemoqlobin, q/dl	8.5 (6.9–10.7)	7.2 (3.8–8.7)
Orta korpuskulyar həcm (MCV), fl	54.0 (46.0–76.0)	65.2 (48.7–80.7)
Orta korpuskulyar hemoqlobin (MCH), pg	16.6 (14.3–24.7)	18.6 (14.8–24.8)
Anemiya	Mikrositar	Normositar
Retikulositoz	+	++
Hipoxromiya	++	+
Birinci transfuziya zamanı yaşı	11 ± 5.5	1.5 ± 2.1
Transfuziya tarixi, %	3-29	24-80
Splenomeqaliya	+	+++
Öd daşı	+	++
Fiziki inkişafın ləngiməsi	Bəzən	Tez-tez
Sümük sıxlığının azalması	Bəzən	Tez-tez

Buna görə də, α-talassemiyanın skrininqinə ən etibarlı yanaşma DNT analizi hesab olunur.

Hb variantlarının səbəb olduğu xəstəliklərdən ən geniş yayılanlar homoziqot HbE; HbE/β-talassemiya və HbE-nin digər variantlarla yanaşı ötürülməsi, məs. HbE/HbS, HbE/HbC, HbE/HbD; HbS (Oraq); HbS/β-talassemiya; homoziqot HbC və HbC/β-talassemia. Bu diaqnozlar müvafiq qlobin genin genotip müayinəsi vasitəsilə ilə təsdiqlənə bilər.



Bütün bunlar həm klinik proqnoz, həm də genetik konsultasiya üçün vacib faktorlar hesab olunur.

Struktur variantları (hemoqlobin E, S və C) müxtəlif hemoqlobin analiz metodları ilə asanlıqla aşkar edilə bilir. Elektroforez ilə hemoqlobin E-nin identifikasiyası çətin ola bilər, çünki o bir çox digər β-qlobin variantları ilə eyni zolaqda miqrasiya edir. Hemoqlobin E əsasən izoelektrik fokuslama və yüksək performans maye xromatoqrafiya (YPMX) üsulları ilə daha yaxşı ayrılsa da, ən optimal metod genetik analiz hesab olunur.

İSTİNADLAR

1. Weatherall DJ. Genetic variation and susceptibility to infection: the red cell and malaria. Br J Haematol 2008;141(3):276-286.
2. Christianson A, Howson CP, Modell B. March of dimes global report on birth defects. New York: March of Dimes Brith Defects Foundation, 2006.
3. Modell B, Darlison M. Global epidemiology of haemoglobin disorders and derived service indicators. Bull World Health Organ 2008;86(6):480-487.
4. Colah R, Gorakshakar A, Nadkarni A. Global burden, distribution and prevention of beta-thalassemias and hemoglobin E disorders. Expert Rev Hematol 2010;3(1):103-117.
5. Weatherall DJ. Keynote address: The challenge of thalassemia for the developing countries. Ann N Y Acad Sci 2005;1054:11-17.
6. Weatherall DJ, Clegg JB. Inherited haemoglobin disorders: an increasing global health problem. Bull World Health Organ 2001;79(8):704-712.
7. Olivieri NF, Pakbaz Z, Vichinsky E. HbE/beta-thalassemia: basis of marked clinical diversity. Hematol Oncol Clin North Am 2010;24(6):1055-1070.

8. Olivieri NF, Pakbaz Z, Vichinsky E. Hb E/beta-thalassaemia: a common & clinically diverse disorder. Indian J Med Res 2011;134:522-531.
9. Lorey F, Cunningham G, Vichinsky EP, Lubin BH, Witkowska HE, Matsunaga A, Azimi M, Sherwin J, Eastman J, Farina F, Waye JS, Chui DH. Universal newborn screening for Hb H disease in California. Genet Test 2001;5(2):93-100.
10. Lorey F. Asian immigration and public health in California: thalassemia in newborns in California. J Pediatr Hematol Oncol 2000;22(6):564-566.
11. Cohen AR, Galanello R, Pennell DJ, Cunningham MJ, Vichinsky E. Thalassemia. Hematology Am Soc Hematol Educ Program 2004:14-34.
12. Vichinsky E. Non-transfusion-dependent thalassemia and thalassemia intermedia: epidemiology, complications, and management. Curr Med Res Opin 2016;32(1):191-204.
13. Danjou F, Anni F, Galanello R. Beta-thalassemia: from genotype to phenotype. Haematologica 2011;96(11):1573-1575.
14. Weatherall D. 2003 William Allan Award address. The Thalassemias: the role of molecular genetics in an evolving global health problem. Am J Hum Genet 2004;74(3):385-392.

M53

PGD, ÇƏTİNLİKLƏRİ, TEXNİKİ PROBLEMLƏR, ONLARA YANAŞMA

Könül RƏHİMLİ
Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsi
konul.rehimli@gmail.com

2 növ PGT möcvuddur: PGT-A embrionlarda xromosom skrininqi və PGT-M hər hansı spesifik xəstəlik üçün sağlam allel axtarışı.

Həm PGT-A həm PGT-M də ilk mərhələ WGA mərhələsidir-əldə edilən az miqdardaki genomun çoxaldılması. Növbəti mərhələ PGT-A da NGS və ya Array mərhələsi, PGT-M yəni PGD də isə STR markerlər ilə xəstəliyə səbəb olan genin yerləşdiyi xromosom üzərində allel keçidinə baxılır. Nümunə olaraq əgər, talassemiya xəstəliyi üçün, talassemiya geni HBB geni 11-ci xromosom üzərində yerləşir. 11-ci xromosom üzərində müəyyən sayda markerlər istifadə etməklə daşıyıcı olan ana və atadan xəstə allellərin embriona keçib-keçmədiyini aşkar etmək mümkündür. Yoxlanılan embrionlar arasında "unaffected" olan, yəni xəstə alleli valideynlərdən almayan embrion implantasiya edilir və hamiləlik davam edir.

Embrion biopsiyasının gününə görə 3-cü gün və 5-ci gün biopsiyası ilə PGD həyata keçirilir.

3-cü gün biopsiyasını 40% uğursuz edən nədir?

- Hər şedən əvvəl yerdə qalan 7 hüceyrənin bölünüb çoxalması riskə atılmış olur.
- Bəzən 1 hüceyrə əvəzinə yanlışlıqla 2-3-4 hüceyrə punksiya edilə bilər, bu da yerdə qalan 4-5 hüceyrənin çoxalmasını riskə atmış olur.
- Tək hüceyrədən alınan DNT miqdarının yetərsiz olması. Bu zaman amplifikasiya zamanı bəzi allellər çoxalmadığı üçün onları analiz zamanı görə bilmirik. Bu da nəticənin dəyərləndirilməsi üçün "uninformative" hesab edilir. Buna ADO allel drop out deyilir.
- Allellərin olmaması heteroziqot embrionun yanlışlıqla sağlam və ya yanlışlıqla daşıyıcı kimi görünməsinə səbəb ola bilər. Autosom dominant xəstəliklərdə bu daha təhlükəlidir, çünki xəstə allelin amplifikasiya olmaması yanlışlıqla embrionun "unaffected" kimi düşünülərək transfer edilməsinə səbəb ola bilər. ADO 3-cü gün biopsiyasında 30% hallarda qeyd olunur. Bəzi İVF mərkəzləri əldə edilən DNA konsentrasiyasını artırmaq üçün ADO ehtimalını azaltmaq üçün tək hüceyrə yox, 2 hüceyrə alınmasını tövsiyyə edirlər. Bu da yuxarıda qeyd edildiyi kimi genetik baxımdan yararlı olsa da ginekoloqlar tərəfindən risklidir, çünki 2 hüceyrə biopsiya etdikdən sonra yerdə qalan 6 hüceyrə çoxalmazsa həmin embrion inkişafdan qalmış olacaq və bu zaman implantasiya baş tutmayacaq. Bu baxımdan 3-cü gün 2 blastomerin biopsiyası embrioloqlar və ginekoloqlar tərəfindən arzu olunan deyil. 5-ci gün biopsiyasında isə çox az hallarda ADO olur.
- ADO probleminin həlli
- 5-ci gün biopsiyasına getmək
- İnformativliyi artırmaq üçün marker sayını artırmaq
- Nated PCR

M54

JİNEKOLOJİK KANSERLERE GENETİK YAKLASIM

Aslıhan DAĞDEMİR
Referans CLC
adagdemir@referansclc.com

Kanser, hücre büyümesi ve ölüm arasındaki dengenin bozulduğu patolojik bir durumdur. Çeşitli moleküllerin onkojenik invazyon, metastaz ve tedaviye direnç sürecinde yer aldığı bildirilmiştir.

Son yıllarda bilim ve teknolojideki ilerlemelerin isiginda kanserin patogenezi üzerinde yapilan çalislmalarda kanser gelisiminin çok asamali bir süreçte gen mutasyonlari ve kanser öncülü hücrelerin seçilerek cogalmasi ile gerçeklestigi belirlenmistir. Çok asamali kanser gelisim süreci sonucunda hücreler sinirsiz bölünme ve çogalma yetenegi yaninda komsu dokulara invazyon ve uzak dokulara metastaz yetenegi de kazanmaktadir.

Kanser olusum sürecinde rol oynayan iki büyük grup genden söz edilmektedir: Onkogenler ve tümör supresör genler. Kanser olusum sürecinde bu iki grup gen birbirine zit etkilerle islev yaparlar. Onkogenler hücre düzeyinde malign transformasyonu kolaylastiracak yönde islev yaparken genin tek allelindeki genetik degisiklik kanser gelisimini indükler. Bu nedenle, onkogenler ile tümör gelisim süreci islev kazandiran sekilde yürür. Tam tersine, tümör baskilayici genler tümör gelisimini engellemek amaciyla hücre büyümesinde görevli genleri düzenleme islevini yaparken resesif davranir. Bu nedenle tümör baskilayici genin kanser hücresinde her iki allelinin de inaktif olmasi gereklidir. Bu sekildeki neoplazi gelisimi islev kaybi seklinde gerçeklesir.

Kanser patogenezinde rol oynayan mutasyonlarin çogu edinsel olmakla birlikte ailesel yatkinliga ve bazi ailelerde nesiller boyunca gözlenen kanser olgularina neden olan kalitsal mutasyonlar da söz konusudur.

Kadin genital sistem kanserlerinde tani, tedavi ve takipte hastaligin kaynaklandigi organ temelinde kanser patogenezinde rol oynayan mekanizmalarin aydinlatilmaya baslanmasi ile bireysellestirilmis takip ve tedavi yaklasimlari mümkün hale gelmektedir. Bu kapsamda her organa ait kanser patogenezinde rol oynayan genetik mekanizmalari gözden geçirmek uygun olacaktir.

İlerlemiş veya tekrarlayan kanserleri geleneksel tedavilerle tedavi etmek zor olduğundan, tedavi için yeni ve oldukça spesifik hedeflerin geliştirilmesi gerekmektedir. Son 20 yılda genomik ve proteomik verilerin toplanmasındaki üstel büyüme, insan kanserinin moleküler mekanizmalarının anlaşılmasında büyük ilerlemeler sağlamıştır. Bu ilerleme, bireysel bir moleküler profile göre uyarlanmış hedefli tedavilerin geliştirilmesiyle sonuçlanmıştır. Biyokimya mühendisliğindeki son gelişmeler, insan kanserinin tanı ve tedavisinde büyük gelişmelere katkıda bulunmalıdır.

M55

PERİNATOLOGİYADA SKRİNİNQ TESTLƏRİN ƏHƏMİYYƏTI, NİPT ANALİZİ

Turab CANBAXIŞOV
Azərbaycan Tibb Universitetinin, Tədris-Cərrahiyyə Klinikası
dr.turab@yahoo.com

Prenatal skrininq (tarama) testləri, uşaqda spesifik doğum qüsurlarının ola biləcəyini müəyyən etmək üçün hamiləlik dövründə aparılır. Bu testlər yalnız hər hansı bir risk və ya müəyyən bir şübhəli vəziyyətin olma ehtimalını müəyyən edə bilər.

Bunlardan ən çox istifadə olunan ikili və dördlü testlərdir. İkili test hamiləliyin 11-14 həftələrində, dördlü test isə 15-20 həftələrində həm ultrasəs müayinəsi həm də, qan analizi verməklə Daun sindromu riskinin 75% ehtimalla olub-olmadığını göstərir. Üçlü testdə bu nisbət yalnız 65%-dir. Ona görə bu testin verilməsi məqsədəuyğun deyildir. Hamiləlik sırasında bu testlərdən sadəcə birinin istifadəsi uyğundur. İkili testdə ənsə qalınlığı artdıqca Daun Sindromu riski də artır. Təxmini olaraq 11-14 həftədə maksimum limit 3,5 mm-dir. Ənsə qalınlığının ölçülməsinin ən mühüm cəhəti bunu icra edən şəxsin bu məsələdə təcrübəli olmasıdır. Ənsə qalınlığı ölçüldükdən sonra verilən qanla risk hesablaması aparılır. Qan analizi və ultrasəs müayinəsi ilə ənsə qalınlığının ölçülməsi ilə yanaşı, ananın yaşı və dəqiq hamiləlik həftəsi də nəzərə alınaraq Daun Sindromlu uşaq dünyaya gətirmə ehtimalı hesablanılır. Testin nəticəsi həmin ehtimalı göstərir. Ancaq test mütləq bir nəticəni göstərmir. Daun sindromlu bir uşaq dünyaya gətirmə riskinizin artdığı görülərsə, diaqnozu dəqiqləşdirmək üçün mütləq növbəti testlərdən keçməyiniz tələb edilməlidir.

NIPT(Non İnvasive Prenatal Test) testi heç bir invaziv müdaxilə olmadan yalnız anadan alınan qan nümunəsi vasitəsi ilə döldə genetik xəstəliklərin skrininqidir. Hamiləliyin ilk həftələrindən dölün genetik hüceyrələri ananın qanına daxil olur və hamiləlik zamanı ana qanında tapılır. Bu testlə hamiləlik zamanı ən çox rast gəlinən xromosom anomaliyaları (Daun sindromu, Patau sindromu, Edvards sindromu) ilə yanaşı bəzi mikrodelesiya sindromları da aşkar edilə bilər.Hamiləlik zamanı rast gəlinən ciddi xromosom anomaliyalarını aşkarlamağa imkan verən, hamiləliyin müntəzəm təqiblərində edilən ikili, üçlü və dördlü skrininq testlərindən qat-qat yüksək etibarlılığa malikdir. İnvaziv müdaxilə tələb olunmadığı üçün prosedur ağırlaşmaları və düşük ehtimalı yoxdur. Testin tətbiq oluna bilməsi üçün ana qanında müəyyən miqdarda fetal DNT mövcud olmalıdır. Bu səbəbdən hamiləliyin 10-cu həftəsindən etibarən edilməsi tövsiyə olunur. Tədqiq olunan xromosomlar və genetik xəstəliklər baxımından 99%-dən çox dəqiqliyə malik olmasına baxmayaraq, NIPT testi diaqnostik test deyil, skrininq testidir. Buna görə də, nəticə riskli olarsa, müdaxiləli prenatal testlə (amniosentez) dəstəklənməlidir.

M56

PGS VƏ PGD DİAQNOSTİKASI, FƏRQLƏRİ. NƏ ZAMAN İCRA EDİLMƏLİ?

Zakir BAYRAMOV
Aile Planlanmasi Meslehetxanasi
dr.zakirbayramov@gmail.com

PGT (Preimplantasiya Genetik Test) IVF proqramlarından keçən bütün pasientlərə icra oluna bilər. PGT blastosist mərhələsində embrionları sınaqdan keçirməyə və xromosom anomaliyalarını aşkar etməyə imkan verir. Bu tip testlər bizə embrionun genetik cəhətdən sağlam olub-olmadığı barədə məlumat verir, uğursuz hamiləlik riskini azaldır.

Preimplantasiya genetik skrininq (PGS) və ya anevloidiyaları təyin edən preimplantasiya genetik testi (PGT-A) embrionların kultivasiyasının 5-ci və ya 6-cı günündə onların biopsiyası aparılır.

Bu genetik testin əsas funksiyası bütün 46 xromosomun analizdir. Müvafiq olaraq, tədqiqatın nəticəsi embrionun aneuploid və ya euploid olub-olmaması barədə (uterusa implantasiya üçün tövsiyə olunur ya yox) məlumat veriləcəkdir. Aneuploidiya uğursuz implantasiyaya və ya Turner və ya Daun sindromu kimi xromosom anomaliyalarına səbəb ola bilər. Normal kariotipli bir embrion normal implantasiya və inkişaf üçün çox vacibdir. PGS müəyyən bir xəstəlik üçün embrionu test etmir.

Preimplantasiya Genetik Diaqnostikası (PGD) - Monogen Xəstəliklər üçün Preimplantasiya Genetik Testi (PGT-M) PGD, müəyyən xəstəliklər üçün genlərin varlığını təyin edən bir genetik skrininq növüdür. Adətən, bu test xəstələrin (gələcək valideynlər) xəstəliyin daşıyıcısı olduğu aşkar edildikdə və ya ailədə artıq patologiyası olan uşaq doğulduqda təyin edilir. Bu PGD genetik testi embrion müəyyən bir genin varlığını yoxlayır. Ümumilikdə, embrionun sınaqdan keçirilə bilən 4000-dən çox fərdi gen var. Ən çox görülən bir sıra xəstəlikləri qeyd edə bilərik: kistik fibroz, Huntington xəstəliyi, Tay-Saks hemofiliyası, Marfan sindromu, əzələ distrofiyası, onurğa əzələlərinin atrofiyası, beta talassemiya, oraq hüceyrəli anemiya.

Test həmçinin cinsiyyətin genetik problemlərini müəyyən edir.

O, həmçinin ailə balansı üçün embrionun cinsini bilməyə imkan verir.

IVF-də preimplantasiya testinin effektivliyi

Göstərici	2016	2017	2018	2019	2020
Təzə donor oositləri ilə yumurta donorluğunda klinik hamiləliyin tezliyi	61%	66%	63%	64%	65%
PGD və ya PGS testi ilə.	81%	86%	83%	84%	85%

M57

HEMOQLOBİNOPATİYALARIN İMPLANTASİYA ÖNCƏSİ DİAQNOZUNDA AZƏRBAYCAN TƏCRÜBƏSİ

Mahirə İSMAYILOVA
Mərkəzi Klinika
mahiremk@hotmail.com

Hemoqlobinopatiyalar dünyada çox rast gəlinən, irsi ötürülən ciddi monogen qan xəstəliklər qrupudur. Bu genetik xəstəliklər autoson resessiv üsulla keçir və hemoqlobin molekulasının strukturasının sintezinə təsir göstərirlər. Hemoqlobinopatiyalar 2 əsas qrupa bölünürlər.

1. Struktur anomaliyalar, bura aiddir HbS xəstəliyi (oraqvari hüceyrəli anemiya) və HbC xəstəliyi.
2. Hemoqlobinin say dəyişiklikləri, yəni sintez pozulması olan anomaliyalar – bura daxildir talassemiyalar (alfa, beta talassemiya mayor, beta talassemiya minor).

Dünyada hər il təqribən 300 000 – 400 000 hemoqlobinopatiyalı uşaq doğulur, bunlardan təxminən 40 000 uşaqda transfuziya asılı beta talassemiya və 280 000 uşaqda oraqvari hüceyrəli sindrom aşkar edilir. Azərbaycanda 1 milyona yaxin beta talassemiya heteriziqot daşıyıcısı var və hər il təxminən 300 talassemiyalı uşaq doğulur.Talassemiya üzrə ölkəmizdə əsasən Şəki, Ağdaş, Masallı, Sabirabad, Oğuz və Göyçay rayonları endemik zonalar hesab olunur.

Oraqvari hüceyrə anemiyası isə Azərbaycanda ən çox Qəbələ rayonunda yaşayan əhalinin 6 faizində rast gəlinir. Dağıstanda əsasən Dərbənd bölgəsində yaşayan Azərbaycanlıların 22 faizində müşahidə edilir. Hemoqlobinopatiyaların aradan qaldırılmasının əsas yolları daşıyıcıların skrininq proqramlarının geniş şəkildə tətbiq edilməsindən, hamiləlikdə prenatal diaqnostikadan və Köməkçi Reproduktiv Texnologiyalar (KRT) proqramında embrionların implantasiya önü monogen xəstəliklərin genetik müayinəsindən ibarətdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015 – ci il 28 aprel tarixli 122 nömrəli qərarı ilə nigaha daxil olmaq istəyən şəxslər hemoqlobinopatiyalar üzrə tibbi müayinədən keçirlər. Hemoqlobinopatiyanın prenatal diaqnostikası üçün hamiləliyin 11-12 həftəsində xorion villus biopsiyası (CVS), 15-16 həftələrində isə amniosentez icra olunur. Embrionların implantasiya önü diaqnostikası (PGD) ekstrakorporal mayalanma sırasında embrionlardan biopsiya edilən bir neçə hüceyrənin genetik laboratoriyada zəncirvari polimeraza reaksiya (ZPR) üsulu ilə aparılır. Son illərdə tətbiq edilən digər bir preimplantasion genetik diaqnostika üsulu (PGD HLA) hemoqlobinopatiyası olan embrionları müəyyən etməklə yanaşı daha sonra xəstə bacı və ya qardaşına hemopoetik kök hüceyrə transplantasiyası üçün donor kimi çıxış edə biləcək (HSCT – hemopoietic stem cell transplantation) embrionların seçilməsinə imkan verir. Azərbaycanda embrionların preimplantasiya önü diaqnostikası üzrə ilk təcrübə 2008-ci ildən, HSCT üsulu üzrə isə 2010 – cu ildən Mərkəzi Klinikada tətbiq edilməyə başlanılmışdır.

Nəhayət, gələcəkdə hemoqlobinopatiyaları müəyyən etməyə imkan verəcək qeyri- invaziv prenatal testlər (NİPT) üzərində də tədqiqatlar aparılır.

M58

İLTİHABI DERİ HASTALIKLARINDA BİOPSİLERE YAKLAŞIM

Mehmet Akif ÇİFTCİOĞLU
Bakı Patologiya Mərkəzi
maciftcioglu@gmail.com

İltihabi deri hastalıklarının büyük bir bölümü; likenoid (bazal hücre hasarı, interface dermatit), psoriasiform (regüler epidermal hiperplazi), spongiotik (intraepidermal intersellüler ödem), vezikülobüllöz (epidermis içinde veya altında vezikül/bül oluşumu), granülomatöz (kronik granülomatöz ilitihap) ve vaskülopatik (kutanöz vasküler yapılarda patolojik değişiklikler) temel doku reaksiyon paternleri şeklinde izlenir.

Likenoid reaksiyon paterni ; interface dermatit olarakta adlandırılır ve epidermal bazal hücre hasarı ile karakterizedir. Bazal hücre hasarı; bazal hücre ölümü/bazal vakuoler dejenerasyon ile karakterizedir, hücrelerdeki apopitotik ölümü temsil eder. Likenoid reaksiyon paterni içerisinde; bant tarzında iltihabi hücre infiltrasyonu, belirgin pigment inkontinansı, satellit hücre nekrozu (Civatte cisimciği) yer alır. Bu paterndeki en bilinen dermatitler; liken planus, likenoid ilaç reaksiyonu, graft versus host hastalığı ve lupus eritematozusdur.

Psoriasiform reaksiyon paterni; retelerde elongasyon ve genellikle düzenli uzama ile karakterize epidermal hiperplazidir. Eşlik eden hiperkeratoz (ortokeratoz/parakeratoz) izlenebilir. Bu paterndeki en bilinen dermatit ; psoriazisdir.

Spongiotik reaksiyon paterni; intraepidermal intersellüler ödem (spongiozis) ile karakterizedir. Ödem nedeniyle, keratinositler arasındaki intersellüler köprüler uzar, mikroskobik veya gözle görülebilen veziküller oluşur. Dermis içerisinde eşlik eden iltihabi hücreler bulunur, iltihabi hücrelerin dermis içerisindeki dağılımı ve tipi ayırıcı tanıda yol göstericidir. Bu paterndeki en bilinen dermatitler; ekzematoz (spongiotik) dermatit ailesidir.

Vezikülobüllöz reaksiyon paterni; epidermisin herhangi bir seviyesinde veya dermoepidermal bileşkede vezikül ya da bül oluşumu ile karakterizedir. Spesifik tanı; ayrışmanın (vezikül) anatomik seviyesi, ayrışmaya sebep olan mekanizmanın aydınlatılması (immunfloresan inceleme) ve subepidermal ayrışmalarda dermisdeki iltihabi infiltratın niteliği esasına dayanır. Bu paterndeki en bilinen dermatitler ; pemfigus ailesidir.

Granülomatöz reaksiyon paterni ; kronik granülomatöz iltihap ile karakterizedir. En belirgin mikroskobik özellikleri ; epiteloid histiositler, multinükleer dev hücreler, lenfositler, plazma hücreleri, fibroblastlar ve non-epiteloid histiositlerdir. 5 tip granulom (sarkoidal, tüberküloid, nekrobiotik, süpüratif, yabancı cisim tipi) tanımlanabilir. Bu paterndeki en bilinen dermatitler; sarkoidoz, tüberküloz ve granüloma annularedir.

Vaskülopatik reaksiyon paterni ; herhangi bir çaptaki damar duvarında oluşan iltihabi değişiklikler ile karakterizedir . Damar duvarı içerisinde fibrin birikimi ve perivasküler iltihabi infiltratlar vaskülit tanısı için yeterli değildir. Bu paterndeki en bilinen dermatitler; lökositoklastik vaskülit ve Henoch-Schönlein purpurasıdır.

M59

TİROİD İNCƏ İYNƏ ASPİRASİYALARINA YANAŞMA

Camal MUSAYEV
Bakı Patologiya Mərkəzi
patolog.jamalmusaev@gmail.com

Tiroid vəzi düyünlərinin diaqnostikasında ultrasəs müayinəsi və incə iynə aspirasiyası uzun illərdir aktuallığını qorumaqdadır. Həm ultrasəs cihazlarının təkmilləşməsi, həm də sitopatoloqların və incə iynə aspirasiyasını tətbiq edən həkimlərin (əsasən radioloq, endokrinoloq, baş-boyun cərrahları və patoloqların) təcrübələrini artırması nəticəsində bu iki müayinənin kombinasiyası diaqnostikada öz yerini daha da möhkəmləndirir. İncə iynə aspirasiyalarına verilən sitopatoloji rəyin standartlaşdırılması üçün ilk dəfə 2010-cu ildə Syed Z. Ali və Edmund S. Cibasın redaktoru olduğu "Tiroid sitopatologiyası rəyləri üçün Bethesda sistemi" kitabı dərc olunmuşdur. Tiroid sitopatologiyası üçün Bethesda sistemi qısa müddətdə böyük rəğbət qazanmış və dünyanın bir çox ölkəsində tətbiq olunmağa başlamışdır. 2017-ci ildə kitabın ikinci nəşri işıq üzü görmüşdür; 3-cü nəşrin isə 2023-cü il hazır olacağı gözlənilir. Tiroid sitopatologiyası üçün Betehsda rəy sistemi 6 kateqoriyadan ibarətdir; hər bir kateqoriya üçün müvafiq risk göstərcisi və klinik göstərişlər mövcuddur. Kateqoriyalar aşağıdakı kimi sıralanmış və adlandırılmışdır: Qeyri-diaqnostik (I), xoşxassəli (II), əhəmiyyəti bilinməyən atipiya (III), follikular neoplazm / follikular neoplazm şübhəsi (IV), bədxassəli şübhəli (V), bədxassəli (VI). Qeyri-diaqnostik (I) kateqoriya üçün risk göstərcisi 5-10%-dir və bu halda incə iynə aspirasiyasının təkrarı məsləhət görülür. Xoşxassəli (II) kateqoriyası ən çox görünən kateqoriya olub risk göstərcisi 0-3%-dir və bu düyünlərin ultrasəs müayinəsi ilə təqibi məsləhət görülür. Əhəmiyyəti bilinməyən atipiya (III) "boz" kateqoriya olub risk göstərcisi 6-18%-dir; düyünün ultrasəs göstəriciləri nəzərə alınmaqla incə iynə aspirasiyasının təkrarı, molekular testlərin təqibi və ya lobektomiya məsləhət görülür. Follikular neoplazm / follikular neoplazm şübhəsi (IV) kateqoriyasında risk göstərcisi 10-40%-dir və bu düyünlər üçün molekular testlərin təqibi və ya lobektomiya məsləhət görülür. Bədxassəli şübhəli (V) və bədxassəli (VI) kateqoriyalarında risk göstərcisi müvafiq olaraq 45-60% və 94-96%-dir; hər iki kateqoriyaya daxil olan düyünlər üçün lobektomiya və ya totala yaxın tiroidektomiya məsləhət görülür.

M60

SERVİKAL SİTOLOJİ VE BETHESDA SINIFLAMASI

Şenay ERDOĞAN DURMUŞ
senayerdgn@gmail.com

Serviks kanserleri dünyada kadınlarda 2. sıklıkla Türkiye'de 9 sırada görülen kanserlerdir Kadın kanser ölümlerinde 2. sırada yer alır (1,2).

Servikal sitoloji uygulaması, ilk olarak 1940 yılında Dr. George Papanicolaou'nun vajinal smear ile servikal kansere tanı konabileceğini ileri sürmesi ile başlamıştır. 1943 yılında ise Dr. Papanicolaou eksfoliatif sitolojiyi jinekoloji pratiğine sunmuştur; raporlamada ise 'Class' sistemi kullanılmıştır. 1988'de Ulusal Sağlık Enstitüleri servikal sitoloji için ortak bir konsensusa varmışlar ve Bethesda Sistemini geliştirmişlerdir. Bu sistem 1991, 2000, 2001,2014 tarihinde yeniden modifiye edilmiştir. Günümüzde smear tarama testinin raporlanmasında, gözlemciler arası değişkenliği azaltması, tekrarlanabilirliğini arttırması ve terminolojisinin son servikal neoplazilerdeki son sınıflamalar ile örtüşmesi nedeni ile 2014 Bethesda Sistemi kullanılmaktadır (3,4,5).

Bethesda Sistemi; esasen servikal sitoloji için geliştirilmiş olup anüs, vajen eksfolyatif sitolojileri için de kullanılabilir. Raporlamada örnek tipi, örnek yeterliliği, yorum ve sonuçlar (İntraepitelyal lezyon veya malignite açısından negatif veya Epitelyal hücre anomalisi / Diğer Malign Tümörler) yer almaktadır. Yapıldıysa ek tetkikler (HPV), otomatize değerlendirme sonuçları ve eğitici notlar ve öneriler yer alabilir. Endoservikal/transformasyon zon komponenti spesmen yeterliliği için zorunlu değil ancak belirtilmelidir. Anormal /displazik hücre varlığında ise sayısal yerlilik aranmaz.

Bethesda Sisteminde "İntraepitelyal lezyon veya malignite açısından negatif" tanısı alan olgularda görülen; Non-neoplastik hücresel varyasyonlar (Skuamöz metaplazi , Keratotik değişiklikler, Tubal metaplazi , Atrofi vb.), reaktik hücresel değişiklikler (İnflamasyon / onarım aktivitesi, Radyasyon veya rahim içi araca bağlı değişikler), posthisterektomi glandüler hücre durumu, mikroorganizmalar (Trikomonas, kandida, aktinomiçes, HSV, bakteriyel vajinozis vb.) tanımlanmıştır. 45 yaşın üstündeki kadınlarda endometriyal hücre varlığı belirtilmelidir.

Epitelyal hücre anormalliği tespit edildiğinde ise atipinin skuamöz hücre atipisi yada glandüler hücre atipisi olduğu raporlanmalıdır.

Skuamöz hücre anormallikleri aşağıdaki gibi sınıflanır:

- Atipik skuamöz hücreler
  – Atipikskuamözhücreler,önemibelirsiz(ASC-US)
  – Atipikskuamözhücreler,HSILekarteedilemez(ASC-H)
- Düşük dereceli skuamöz intraepitelyal lezyon (LSIL)
- Yüksek dereceli skuamöz intraepitelyal lezyon (HSIL)
- Skuamöz hücreli karsinom

Glandüler hücre anormallikleri aşapıdaki gibi sınıflanır:

- Atipik Glandüler Hücre, NOS
  – Endoservikal hücre / endometrial hücre/glandüler hücre
- Atipik Glandüler Hücre, Neoplastik lehine-Endoservikal hücre/endometrial hücre /glandüler hücre
- Endoservikal adenokarsinoma insitu
- Adenokarsinom (Endoservikal, endometriyal, uterus dışı, NOS) (5).

Servikal kanser insidans ve mortalitesi etkili tarama programları ve preinvaziv hastalıkların etkin tedavisi sonucu son 50 yılda belirgin azalmıştır (6). Servikal sitolojik taramada amaç kanser tesbiti değil öncül lezyonların belirlenmesi ve tedavisidir. Servikal kanser taramasını düzenleyen uluslararası kılavuzlar 30-65 yaş arası her kadına HPV testi ya da HPV testi ile birlikte servikal sitoloji (co-test) her 5 yılda bir önermektedirler. HPV testinin yapılamadığı durumlarda ise 3 yılda bir servikal sitoloji önerilmektedir (7).

HPV tiplerinin servikal karsinogenezise katkısı farklıdır ve onkojenik dereceye bağlı sınıflandırma 13 yüksek riskli HPV tipini (16, 18, 31, 33, 35, 39, 45, 51, 52, 56, 58, 59 ve 68), 14 muhtemelen yüksek riskli tip (HPV 5, 26, 53, 66, 67, 68, 70, 73, 82, 30, 34, 69, 85 ve 97) ve diğer düşük riskli türleri (HPV 6, 11, 42, 44 vb.) içermektedir. Yüksek riskli HPV tipleri arasında HPV 16, dünyadaki rahim ağzı kanserinin yarısından fazlasını oluştururken, HPV 18 %16,5 ile ikinci en kanserojen tiptir (8).

REFERANSLAR:

1. GLOBOCAN 2020, Global Cancer Observatory [cited 2021 May 25]. Available from: http//gco.iarc.fr/today/online-analysis
2. Türkiye Kanser İstatistikleri, 2016 [cited 2021 May 25]. Available from: https://hsgm.saglik.gov.tr/depo/birimler/ kanser-db/istatistik/Turkiye_Kanser_Istatistikleri_2016.pdf
3. Kurman RJ, Henson DE, Herbst AL, Noller KL, Schiffman MH. Interim guidelines for management of abnormal cervical cytology. The 1992 National Cancer Institute Workshop. JAMA. 1994 Jun 15;271(23):1866-9. PMID: 8196145.
4. Davey DD, Austin RM, Birdsong G, Buck HW, Cox JT, Darragh TM, Elgert PA, Hanson V, Henry MR, Waldman J. ASCCP Patient Management Guidelines: Pap Test Specimen Adequacy and Quality Indicators. J Low Genit Tract Dis. 2002 Jul;6(3):195-199
5. Solomon D. Foreword. In: R Nayar, DC Wilbur, eds. The Bethesda System for Reporting Cervical Cytology. Definitions, Criteria, and Explanatory Notes. 3rd ed. Springer; 2015.
6. Siegel RL, Miller KD, Jemal A. Cancer statistics, 2016. CA Cancer J Clin. 2016 Jan-Feb;66(1):7-30.
7. https://www.acog.org/clinical/clinical-guidance/practice-advisory/articles/2021/04/updated-cervical-cancer-screening-guidelines
8. Hu Z, Ma D. The precision prevention and therapy of HPV-related cervical cancer: new concepts and clinical implications. Cancer Med. 2018 Oct;7(10):5217-5236.

M61

MÜXTƏLİF LOKALİZASİYALI NEOPLAZMALAR ZAMANI ANGİOGENEZ

Habil MURADOV

Azərbaycan Tibb Universiteti, Onkoloji Klinika

habilmuradov@mail.ru

Mövzunun aktuallıqı:Solid şişlərin inkişafı və metastazların yaranmasının yeni yaranan qan damarlarından asılılığı haqqında hipoteza ilk dəfə İ. Folkman tərəfindən verilmişdir. Son illərin elmi tədqiqatları müxtəlif orqan və sistemlərin normal və patoloji vəziyyətləri zamanı angiogenez və inkişaf faktorları arasında sıx korrelyasion əlaqələrin olduğunu aşkar etmişdir. Angiogenez artıq mövcud olan damarlardan yeni damarların yaranma prosesidir. Angiogenez normal və zədələnməmiş toxumalar üçün xarakterik deyil, o yalnız şişlər, kəskin və xroniki iltihabi dəyişikliklər, həmçinin diabetik anqiopatiyalar zamanı aktivləşir.

Angiogenezin orqan və toxumalarda ən çox öyrənilən aktivatorları damar endotelisinin böyümə amili (VEGF) və fibroblasların inkişaf amilidir. Angiogenez mexanizmində damar endotelisinin böyümə amilinin (VEGF) CD 31 reseptoruna xüsusi əhəmiyyət verilir. CD 31 endotelial hüceyrələrin ən həssas reseptoru olub, angiogenez prosesinə cəlb edilmişdir.

Tədqiqatın məqsədi. Hazırki tədqiqat işinin məqsədi müxtəlif lokalizasiyalı neoplazmalarda şişlərin statistik təhlili, toxuma və qan plazmasinda immunhistokimyəvi tədqiqat aparmaqla müxtəlif histotip və histodifferensiasiya dərəcələrində DEBA-nın CD 31 reseptorunun proqnostik əhəmiyyətini təyin etməkdən ibarətdir.

Nəticələrin müzakirəsi: Tədqiqatlarımızla aşkar edilmişdir ki, damarların azlığı və ya heç olmaması şəraitində şiş hüjeyrə klonu cəmi bir neçə mm^0 diametrə malik olur. İlkin şiş klonu yalnız angiogenez mexanizmlərinin işə düşməsi ilə böyüməyə başlayır və gələcək tərəqqisi damarlanma ilə düz mütənasiblik kəsb edir. Beləliklə, şişin həcminin böyüməsi şiş hüceyrələrinin yüksək proliferativ dəyərləri ilə deyil, necə qidalanması ilə korelyasiya edir.

Tədqiqatlarımızla müəyyən edilmişdir ki, ilkin şiş toxumasında kapillyarların miqdarı ilə metastazların yaranması arasında əlaqə mövcuddur. Bu əlaqə çox rast gəlinən süd vəzinin xərçəngləri zamanı öyrənilmişdir. Müəyyən edilmişdir ki, süd vəzin vaskulyarizasiya dərəcəsi ilə şişin ölçüləri, mərhələsi, invaziyası və metastazvermə arasında əlaqə mövcuddur. Həmçinin aşkar edilmişdir ki, metastaz verən şişlərdə damarların sıxlığı normaya və metastazı olmayan şişlərə nisbətən yüksək olur. Tədqiqatlarımızla müəyyən edilmişdir ki, 1 mm2 sahədə şişdə olan damarların sıxlığı 100 dən çoxdursa metastazvermə ehtimalı dəfələrlə artır.

Yuxarıda qeyd edilən analoji nətijələr melanomalar ağ ciyər, prostat, uşaqlıq boynu, yoğun bağırsaq və uşaqlıq xərçənglərində də alınmışdır. Qeyd etmək lazımdır ki, heç də bütün bəd xassəli neoplazmalarda damar sıxlığı ilə şişin proqnozu arasında düz mütənasiblik aşkar edilməmişdir. Belə ki, şişin inkişafı, tərəqqisi, metastaz verməsi və xəstələrin yaşama göstərijiləri ilə damarların sıxlığı arasında tərs mütənasiblik müəyyən edilən şişlər də aşkarlanıb. Məsələn, mədəaltı vəzin adenokarsinomaları zamanı xəstələrin yaşama göstəriciləri ilə damarları yüksək və ya zəif sıxlığı arasında statistik dürüst fərq aşkar edilməmişdir

Yekun: Hazırkı tədqiqatda angiogenezin meyarları öyrənilməklə, angiogenezin xəstəliyin klinik gedişi və proqressiyasında rolu aydınlaşdırılmışdır. CD-31-in ekspressiyasından asılı olaraq xəstəliyin differensial diaqnostik amillərinin parametrləri dəqiqləşdirilmişdir. Yeni yaranan damarların miqdarının artması və endotelial qatında CD-31 təyin edilən damarlarda neoangiogenezin yüksək fəallığı prosesin anaplastik transformasiyası kimi önəmli fərqin yaranmasına səbəb olduğu müəyyənləşdirilmişdir.

M62

QASTROİNTESTİNAL SİSTEMİN ENDOSKOPİK BİOPSİYALARINA YANAŞMA

Bahadur ABBASOV
bahadur_ab@yahoo.com

Müasir təbabətdə endoskopik və invaziv alətlər mükəmməlləşdiril-diyindən, bioptatların patohisoloji diaqnostikasının rolu da artır. Ənənəvi biopsiyalar ilə yanaşı, artıq patohistoloji laboratoriyaya gələn mukozal disseksiya, polipektomiya, submukozal lezyonlardan biopsiyaların sayı artmaqdadır. Artıq kiçik materialda histoloji diaqnozdan başqa bir çox parametrlər yoxlanıla bilir. Belə ki, kiçik bioptatlarda diaqnostik və proqnostik amillərin immunhistokimyəvi və histokimyəvi üsullarla yoxlanılması rutin olaraq yoxlanılır. Tumor patologiyalarında tumorun növü, proliferasiya aktivliyi, sirayət dərinliyi, müxtəli mutasiyaların yoxlanılması nəticəsində uyğun müalicə strategiyasının tətbiqinə imkan yaranır. Bioptatların müayinəsinin standarlaşdırılması üçün hər bir orqan bioptatlarının müəyyən alqoritmə uyğun yoxlanılır. Məsələn, mədə bioptatları Sidney təsnifatına uyğun olaraq dəyərləndirilir, bu isə klinik həkimə xəstənin uyğun müalicə aparılması və xəstəliyin dinamikada izlənilməsində yardımçı olur.

M63

NEYROPATOLOGİYA-HEMOTOKSİLEN EOZİNDƏN MOLEKULAR PATOLOGİYA ERASINA DOĞRU

Zərifə YUSİFLİ
dr_yusifli@hotmail.com

Ümumdünya Səhiyyə Təşkilatının Mərkəzi Sinir Sistemi törəmələrinin klassifikasıyasına aid ən son nəşri 2021 ci ildə işıq üzü gördü. Yeni təsnifat hər zamankından fərqli olub, histopatoloji xüsusiyyətlər və immunhistokimyəvi boyamalarla yanaşı həm də molekular testlərə əsaslanmaqdadır. Xüsusilə glial törəmələrin təsnifatında və dərəcələndirilməsində dəyişikliklər görüldü.

Hal-hazırda glial törəmələr altı qrupda dəyərləndirilir. Bunlar yetişkin tipi diffuz gliomalar, pediatrik tip diffuz aşağı dərəcəli gliomalar, pediatrik tip diffuz yüksək dərəcəli gliomalar, yuvarlaq astrositik gliomalar, glionöronal törəmələr və ependimal törəmələrdir. Yetişkin tipi diffuz gliomalar qrupunda IDH-mutant astrositomalar (2,3,4-cü dərəcə), IDH-mutant və 1p19q ko-delesiyası olan oligodendroglioma və IDH-mutasiyası olmayan glioblastoma yer alır.

Glial törəmələrin histopatoloji dəyərləndirilməsində hüceyrəvilik səviyyəsinin artışı, mitotik aktivliyin artması, mikrovaskular proliferasiya və coğrafi nekroz kriteriyalarından istifadə edilməkdədir.

Astrositomalarda CDKN2A və/vəya CDKN2B delesiyasının olması isə daha pis proqnoz xəbərçisidir. Həmçinin yeni təsnifata əsasən pediatrik yaş qrupunda glioblastoma termini artıq istifadə edilməməkdədir.

Son nəşrdə yeni törəmə növləri də təsvir edilmişdir. Bunlara MYB vəya MYBL1 mutasiyalı diffuz astrositoma, gənclik dövrünün polimorfik aşağı dərəcəli nöroepitelyal tümörü, MAPK mutasiyalı diffuz aşağı dərəcəli glioma, H3 G34 mutasiyalı diffuz hemisferik glioma, H3 və IDH mutasiyası olmayan diffuz pediatrik yüksək dərəcəli glioma, infant tip hemisferik glioma aiddir.

Beləliklə yeni təsnifata əsasən patohistolojik diaqnoz sadəcə törəmənin növünü, dərəcəsini və mərhələsini təyin etmir, həm də hədəfə yönəlik müalicələrə istiqamət verməkdədir.

M64

TOXUMALARDA KALSİNAT OCAQLARININ DİAQNOSTİKADA ƏHƏMİYYƏTİ

Şahin OSMANOV
Baku City Hospital
patoloji_city_hospital2019@mail.ru

Kalsinat substratı patoloji dəyişilmiş toxumalarda rast gəlinir. Onlar həm iltihab prossesi zamanı, həm də şiş xəstəliklərində təzahür edir. Bİr çox hallarda radiodiaqnostik (rentgen, USM, KT) müayinləri zamanı toxumalarda izlənilən kalsinat görüntüləri maliqn prossesə şübhə yaradır. Ancaq toxumaların patoloji müayinəsi ya törəmənin xoş xarakter olduğunu təsbit edir, yada maliqn xarakterə malik toxumada kalsinatların mövcudluğunu inkar edir. Bu isə öz növbəsində patoloq ilə radioloq arasında fikir ayrılığına səbəb olur.

Müayinə materialları: Biz tətqiqatımıza süd vəzi, yumurtalıq, tiroid, prostat vəzi materiallarını daxil etmişik. Həmçinin kalsinatlaşmış bir-neçə limfa düyünü, damar fraqmentləri, dəri toxumasınıda işə əlavə etdik.

İşin gedişi: Tətqiqata öncə prostat vəzin hiperplaziyası və normal toxumaları ilə başladıq . Vəz daxilində izlənilən kalsifikatlar adətən girdə quruluşdadır. Ancaq ara-sıra müxtəlif formalı, səthləri hamar quruluşlarada rast gəlindi. Rəngləri çəhrayı tondan tünd bənövşəyi rəngə qədər dəyişirdi. Bəzi kalsifikatların içərisində təbəqələşmə müşahidə olundu. Say etibarı ilə vəz daxilində bir və daha çox kalsifikatları görmək mümkün oldu. Prostat vəzin bəd xassəli şişlərində bu cür səthi hamar kalsifikatları aşkar etmədik. Törəmədə izlənilən kalsinatların kənarları qeyri- hamar, iti uclu, mişar dişlərinə bənzər və qeyri-düzənli dalğavari olurlar. Rəngləri açıq çəhrayıdan tünd bənövşəyi tona qədər görünə bilir. Ancaq xoş xassəlidən fərqli olaraq kalsinatın daxilində təbəqələşmə aşkar edə bilmədik.

Kalsinatların daha çox rast gəlinən toxumalardan biridə süd vəzi karsinomalarıdır. Onlar həm axacaq karsinomalarında axacaq içərisində, həmdə stromada rast gəlinir. Kalsifikatlara çox halda müxtəlif formalarda, kənarları kəsici quruluşda rast gəlindi . Rəngləri açıq çəhrayıdan tünd bənövşəyi tona qədər dəyişdi. Yalnız bir hadisədə süd vəzin karsinoması toxumasında kalsinatda təbəqələşmə nəzərə çapdı. Kənarları hamar və təbəqələşmiş kalsinatlar süd vəzin xoş xassəli şişlərində daha çox təsadüf olundu.

Təbəqəsiz, kənarları iti kalsinatlar xoş xassəli şişlərdə də təsadüf olundu. Araşdırdığımız tiroidlərin həm xoş, həmdə bəd xassəli şişlərində kalsinatlar qeyri-düzgün formalı, kənarları iti uclu, geniş sahəli və qeyri–homogen görüntülü idi. Təbəqəli formalar izlənilmədi. Eyni sıxlıqla yumurtalıq toxumalarında və şişlərində kalsinatlar müşahidə olunurdu. Ancaq təbəqəli formalar müşahidə olunmadı.

İki limfa düyünündə qeyri-hamar, qeyri-homogen, kalsinat müşahidə etdik. Bir hadisədə dərinin epidermal kistası ətrafı sahədə tük follikulunun mərkəzində qeyri-düzənli kalsinat sahəsi müşahidə etdik.

Az-az hallarda arterial damarların əzələ qatlarında qeyri-düzənli kalsinat çöküntüləri aşkar olundu.

Müzakirə: Prostat vəzidə izlənilən kənarları hamar, homogen və təbəqələşmiş kalsinatlar patoloji prossesin xoş məramlı (xassəli) olması barədə daha tutarlı məlumat verir. Qeyri-düzənli formalar isə əksər hadisələrdə bəd xassəli şişin inkişafı zamanı əmələ gəlir.

Əsasən süd vəzidə, qalxanvari vəzidə, yumurtalıq törəmələrinin xoş xassəli və bəd xassəli şişlərdə tez-tez görünən kalsinatlar formalaşmamış (təbəqəsiz) halda rast gəlinir.

Əldə edilmiş bu nəticələr (kalsinatların həcmi, quruluşu, sıxlığı və sair) radioloji müayinə zamanı differensasial diaqnoz baxımından önəmli kriteriyalardan biri sayıla bilər .

AZLTK&LAB EXPO2023

"1ST INTERNATIONAL AZERBAIJAN LABORATORY MEDICINE CONGRESS & LAB EXPO"

3-5 MAY, BAKU-AZERBAIJAN

ORAL PRESENTATIONS

Ş1

BƏZİ HEMATOLOJİ XƏSTƏLİKLƏR ZAMANI CD34-ÜN MEQAKARİOSİTLƏRDƏ ANORMAL EKSPRESİYASI

Könül NƏZƏRLİ[1], Natalya ZAMANOVA[1], Əfsanə MƏMMƏDOVA[1], Valeh HÜSEYNOV[1], Azər KƏRİMOV[1]

[1]Milli Hematalogiya və Transfuziologiya Mərkəzi

konulnezerli@icloud.com

Giriş: CD34 qranulositar sıranın və qismən limfoid sıra sələf hüceyrələrinin təyin edilməsində patohistoloji laboratoriyada uzun zamandan bəri və geniş miqyasda tətbiq edilən monoklonal antitel olub, kəskin leykoz,mielodisplastik sindrom və mieloproliferativ xəstəliklərin diaqnostikası zamanı blast hüceyrələrin təyini üçün istifadə edilir. Bir sıra müəlliflər müxtəlif hallar zamanı CD34-ün meqakariositlərdə gözlənilməz aberrant ekspresiyasının mümkün ola biləcəyini və bunun pis proqnostik göstərici ola biləcəyini qeyd etmişdir.

Məqsəd: Müəyyən hematoloji xəstəliklər, xüsusən mielodisplastik sindrom zamanı aberrant CD34ekspresiyası halının baş verməsini, spesifikliyini və mümkün diaqnostik əhəmiyyətini müəyyən etmək.

Material və metodlar: Milli Hematologiya və Transfuziologiya mərkəzinə müraciət etmiş 52 xəstə müayinə edildi və onların trepanobioptatları götürülərək ümumi qaydalara uyğun olaraq işlənilib 3-4 mikronluq kəsiklər hazırlanaraq tədqiqat immunhistokimyəvi metodla biotin-strepotvidin-3,3-diaminobenzidin vizualizasiya sistemi , CD34 ("Dako", QBEnd10 klonu) və CD61 ("ZECA Corporation", ZM33) monoklonal anticismləri istifadə edilərək aparılmışdır. Meqakariositlərin, xüsusilə mikromeqakariositlərin daha dəqiq aşkarlanması üçün biopsiyanın paralel hissələri CD61 anticismi ilə boyandı ki, bu da meqakariositlərin hətta atipik formalarını aşkar etməyə imkan verdi.Nəticələr optik mikroskop altında x40 böyüdülməsində qiymətləndirildi. 100 meqakariosit sayılaraq onların ən az 20%-də CD34 ekspresiyası müşahidə edildiyi hallar müsbət nəticə olaraq qiymətləndirildi. Xəstələr 3 qrupa ayrılaraq onlardan 12-si mielodisplastik sindromun müxtəlif formaları, 20-si mieloproliferativ xəstəlik (ilkin mielofibroz, xronik mieloleykoz, polisitemiya vera) və 20 ədəd kontrol qrup olaraq (müxtəlif qeyri-klonal hematoloji xəstəliklər: immun trombositemiya,müxtəlif anemiyalar) ayrılmışdır.

Nəticə: CD34-ün meqakariositlərdə abberant ekspresiyası30% hallarda MDS ,yalnızca 5% halda mieloproliferativ xəstəlik (BCR/ABL pozitiv xronik mieloleykoz) zamanı müşahidə edilmişdir. Kontrol qrupda isə pozitiv nəticə aşkar edilməmişdir (0%).

Yekun: CD34-ünmeqakariositlərdə abberant ekspresiyası MDS-in yüksək göstəricisi olaraq diaqnoz üçün əlavə meyar kimiistifadə edilə bilər.

Açar sözlər MDS, CD34, Meqakariosit

Ş2

QAN PLAZMASINDA HOMOSİSTEİNİN DİNAMİKASI

Nailə HƏSƏNOVA[1], Gülnarə ƏZİZOVA[1]

[1]Azərbaycan Tibb Universiteti, Biokimya kafedrası, Bakı, Azərbaycan

hasanovanaila@yahoo.com

Giriş: Homosistein metioninin metabolizmi zamanı yaranan kükürdlü aminturşudur. Homosisteinin plazmadakonsentrasiyasının yüksəlməsi sümük sınıqlarının, ateroskleroz və tromboz, Parkinson xəstəliyinin patogenezində rol oynayır.

Məqsəd: Tədqiqat işi homosistein(Hcy) konsentrasiyasının yüksəlməsinin osteoporozlu xəstələrdə sınıq riskini artırdığını müəyyən etmək üçün aparılmışdır.

Material və metodlar: Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna müraciət etmiş 54 (osteoporozlu, osteoporotik sınıqları olan və osteoporozu olmayan lakin sınıqları olan) xəstə və kontrol qrup olaraq 14 sağlam şəxsin qan nümunəsində 3 mərhələdə (müalicədən əvvəl,müalicənin 10-cu günündə və 1 ay sonra) Hcy-nin konsentrasiyası "Cloud- Clone. Corp." (ABŞ) firmasına məxsus reaktiv dəsti vasitəsilə immunoferment (ELİSA) metodla analiz edilmişdir. Statistik hesablamalar SPSS 26.0 statistik paketində aparılmışdır.

Nəticə: Alınan nəticələr göstərirki, sağlam şəxslərin qanında Hcy-nin konsentrasiyası 10,6-2513,3 nq/ml arasında dəyişərək orta dəyəri 642,7±166,9 nq/ml (Me=530,0 nq/ml) təşkil etmişdir. Osteoporozu olmayan lakin sınıqları olan şəxslərdə Hcy-nin konsentrasiyası osteoporozlu xəstələrə nisbətən 2,0 dəfə (pU=0,005) əhəmiyyətli dərəcədə artmışdır.Hcy-nin konsentrasiyasında ən yüksək artım – 32,4% (pU=0,221) - 60 yaşdan yuxarı xəstələrdə qeydə alınmışdır. Belə ki, bu yaş qrupunda onun konsentrasiyası 1922,4-7643,5 nq/ml hədlərində dəyişərək orta hesabla 4265,3±984,3 nq/ml (Me=3732,2 nq/ml) təşkil etmişdir. Sümüklərin bərpa dövründə Hcy-nin konsentrasiyası əhəmiyyətli dərəcədə azalmışdır($p<0.05$). Müalicə dövründə Hcy-in konsentrasiyası 1 aydan sonra osteoporozu olmayan şəxslərdə sı¬nıqlar zamanı – 43,0%; ostoporotik sınıqlar zamanı isə – 96,0% azalması müalicənin müsbət dinamikasını əks etdirir.

Yekun: Son illərin tədqiqatları göstərir ki, hiperhomosistenuriya osteoporotik sınıqların yaranması riskinin və sümüklərin kövrəkliyinin artmasının səbəblərindən biridir. Yüksək Hcy dəyərləri və oksidativ stress osteoklastların aktivliyini artırır, osteoblastların funksiyasını pozur,sümük toxumasında kollagenin çarpaz bağlarının və fibrillərin formalaşmasına əks təsir göstərir. Minerallaşma və matriksin yaranmasını zəiflədir. Sağalma dövründə Vit D-nin qəbulu sistation-β-sintaza fermentinin sintezini stimulyasiya edir, sümüklərin homeostazını tənzimləyir, bu isə Hcy konsentrasiyasının azalmasına gətirib çıxarır. Beləliklə, homosisteinin konsentrasiyasının artması sümüklərdə sınıq riskinin artması ilə müşahidə olunur. Lakin, sınıqların bərpa dövründə homosisteinin konsentrasiyasının azalması, təkrari sınıqların baş vermə riskinin də azalmasından xəbər verir.

Açar sözlər homosistein, osteoporoz, sınıqlar.

Ş3

CA125 VƏ HE4; YUMURTALIQ XƏRÇƏNGİ ÜÇÜN ÖLÇMƏ BİOMARKERLƏRİ

Sevinc ŞAHMAROVA[1], Nigar YOLÇUYEVA[1], Taleh ƏLİYEV[1], Leyla ƏLİYEVA[1]

[1]Azərbaycan Tibb Universiteti Onkoloji klinika,Laboratoriya işi,Bakı,Azərbaycan

s_vinc@mail.ru

Giriş: Yumurtalıq xərçəngi qadınlarda xərçəngə bağlı ölümlər arasında ilk 5-də yer alır. Yumurtalıq xərçəngi kateqoriyasında yer alan şişlər müxtəlif növlərdə olur; sekskord şişlər, stromal şişlər, germ hüceyrəli şişlər və ən sıx görülən epitelial hüceyrəli şişlər. CA125 onkomarkeri yumurtalıq şişlərinin çoxunda yüksəlir və over xərçəngi olan və ya ailəsində over xərçəngi hekayəsi olan qadınlarda illik test olaraq önərilir.Yumurtalıq xərçəngi üçün yeni, daha spesifik bir marker var ki, bu HE4 sayılır. HE4 (Human epididimal protein4), over xərçəngi üçün FDA (food and drug adminstration) tərəfindən təsdiqlənmiş bir testdir. CA125-dən daha yaxşıdır, endometrioz kimi malign olmayan xəstələrdə nadir hallarda yüksəlir.

Məqsəd: Yumurtalıq xərçənginin yanlış diaqnozunun yüksək dərəcəsini nəzərə alaraq, tədqiqatımız İnsan epididimik protein (HE4) və xərçəng antigeni 125 (CA125) onkomarkerlərin həssaslıq və spesifiklik göstəricilərini müqayisə etmək və onların klinik əhəmiyyətini araşdırmaq məqsədi daşıyır.

Material və metodlar. Ümumilikdə, 2021-ci ilin yanvar ayından 2022-ci ilin yanvarına qədər ATU Onkoloji klinikasında yumurtalıq xərçəngi olan 50xəstə seçildi. Onları 32-si bəd, 18-i xoş olmaqla qruplara böldük. Bu xəstələrin yaş ortalaması 25-65 arası idi. Serumda CA125, HE4 və CA125+HE4 dəyərləri spesifiklik və həssaslıq göstəricilərinə əsasən təhlil edildi.

Nəticə: Yumurtalığın bədxassəli xərçəngi qrupunda CA125 və HE4 səviyyələri digər qrupdan yüksək idi. HE4 onkomarkerin həssaslıq və spesifikliyi CA125-dən yüksək idi (müvafiq olaraq həssaslıq 81,25%ə qarşı 76,2%;spesifiklik isə 85,7%ə qarşı 50%), həssaslıq və spesifiklik göstəricisi isə hər iki qrupdan yüksək oldu (müvafiq olaraq 83,3% və 88,2%).

Yekun: HE4 testi bədxassəli yumurtalıq xərçəngi diaqnostikasında daha spesifikdir. Lakin HE4+CA125in birgə istifadəsi bu spesifiklik və həssaslığıartıra bilər, həmçinin müalicənin planlaşdırılmasına rəhbərlik edə biləcək müəyyən klinik əhəmiyyətə malikdir.

Açar sözlər CA125, HE4, yumurtalıq xərçəngi

Ş4

SEPSİSİN PATOGENEZİNDƏ VAXTINDANQABAQ DOĞULAN VƏ VAXTINDA DOĞULANLANLARDA İMMUN SİSTEMİN GÖSTƏRİCİLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

Nazilə KƏRİMOVA[1], Arif ƏFƏNDİYEV[2]

[1]K.Fərəcova adına ETPİ

[2]Azərbaycan Tibb Universiteti

etplaboratoriya@mail.ru

Giriş: Hal-hazırda yenidoğulmuşların sepsis problemi reanimasiya şöbəsində ən kəskin problemlərdən biri olaraq qalır. Yenidoğulmuşların sepsisi yoluxma müddətinə görə erkən və gecikmiş olmaqla iki qrupa bölünür. Sepsisin inkişafı üçün risk faktorları arasında ilk növbədə xorioamnionit və ananın vajinal infeksiyaları durur .Sepsis infeksiyaya qarşı immun reaksiyanın tənzimləyici mexanizmlərinin pozulması nəticəsində baş verən kliniki sindromdur. Septiki şok və poliorqan çatışmazlığı da daxil olmaqla, müxtəlif ağırlıq dərəcəsinə malik kliniki sindromlar spektrini əhatə edir.

Məqsəd: Yeni doğulmuş körpələrin qan nümunəsindən istifadə edərək anesteziologiya və intensiv terapiya şöbəsində yenidoğulmuşların sepsisin patogenezində və diaqnostikasında alfa-defenzinlərin rolunu öyrənməkdir. Antimikrob peptidlər (AMP) immun sistemin anadangəlmə humoral, qeyri-spesifik amillərinə aid olub, orqanizmin bakteriyalardan, patogen mikroblardan, mühafizəsini təmin edir. Onlar əsasən neytrofillərin lizosomunda yerləşir və geniş bioloji aktivliyə malik olub, makrofaqların, neytrofillərin, dentrid hüceyrələrinin hemotaksisini, tosqun hüceyrələrin deqranulyasiyasını stimulə edir. Bu hüceyrələr patogenlər, iltihablaşmış hüceyrələr tərəfindən əmələ gələn konservativ molekullarını tanımaq qabiliyyətinə malikdirlər.

Material və metodlar: Tədqiqat K.Y. Fərəcova Elmi -Tədqiqat Pediatriya İnstitutunda aparılmışdır. Tədqiqata 130 yeni doğulmuş uşaq daxil edilib. Xəstələr 2 qrupa bölünüb: I qrup – Vaxtında doğulmuş 38-41 həftəlik hamiləlik dövrü olan 35 körpə; II qrup – Vaxtından qabaq doğulmuş 27-37 həftəlik hamiləlik dövrü olan 65 körpə; Nəzarət qrupuna 30 sağlam yenidoğulan aid edilmişdir.

Nəticə: I qrupda enterokolit 10,5%, ventrikulit 23,7%, osteomielit 5,3%, pnevmoniya 71,1%, DDL sindromu 13,2% idi. II qrup enterokolit 16,7%, ventrikulit 16,7%, osteomielit 25,0%, pnevmoniya 33,3 , DDL sindromu 6.1% təşkil etmişdir. I qrupda ölüm faizi 44,7%, II qrupda 83,3% olmuşdur. Orqan sistem xəstəliklərinin mövcudluğuna görə, əsas I və II müqayisə qruplarının uşaqları öz aralarında ciddi şəkildə fərqlənmir, lakin I və II qruplarda xəstəliklərin sayı nəzarət qrupuna nisbətən orta hesabla 2 dəfə çox olmuşdur.

Yekun: Beləliklə, alfa defensinlər böyük klinik əhəmiyyət kəsb edirək sepsisdə iltihabi prosesi, proqnozu xarakterizə edir və bununla AMP- alfa defensinlər yenidoğulmuşlarda əlavə meyar kimi istifadə etməyə imkan verir.

Açar sözlər Yenidoğulmuşların sepsisi, Antimikrob peptitlər (AMP), Alfa-defenzinlər

Cədvəl No 2

Göstəricilər	Nəzarət qrupu (n=7)	Neonat (n=	
		Erkən NS (n=15)	
		Birinci yoxlama	Təkrar yoxlama
α-defenzin (nq/ml)	41,9±4,2 (25,8-58,4)	716,7±53,3 (448,7-1033)	336,7±31,6 (155,5-521,5)

II qrup – Vaxtından qabaq doğulmuş 27-37 həftəlik hamiləlik dövrü olan 65 körpə; Nəzarət qrupu 30 sağlam yenidoğulandan təşkil etmişdir. I qrupda enterokolit 10,5%, ventrikulit 23,7%, osteomielit 5,3%, pnevmoniya 71,1%, DDL sindromu 13,2%idi. II qrup enterokolit 16,7%, ventrikulit 16,7%, osteomielit 25,0%, pnevmoniya 33,3 , DDL sindromu 6.1%yəşkil etmişdir. I qrupda ölüm faizi 44,7%, II qrupda 83,3%olmuşdur. Orqan sistem xəstəliklərinin mövcudluğuna görə, əsas I və II müqayisə qruplarının uşaqları öz aralarında ciddi şəkildə fərqlənmir, lakin I və II qruplarda xəstəliklərin sayı nəzarət qrupuna nisbətən orta hesabla 2 dəfə çoxdur olmuşdur.

Cədvəl No 1

Göstəricilər	Nəzarət qrupu (n=23)	Neonatal sepsis (n=35)	P1	P2
α-defenzin, (nq/ml)	48,4±1,3 (31,2-58,4)	Birinci yoxlama 771,8±37,6 (323,9-1098,0) Təkrar yoxlama380,0±21,1 (113,4-625,7)	0,000	0,000

I qrup –Vaxtında doğulmuş 38-41 həftəlik hamiləlik dövrü olan 35 körpə;

Ş5

BAKI ŞƏHƏR 6 SAYLI UŞAQ XƏSTƏXANASINA MÜRACİƏT ETMİŞ TİP 1 ŞƏKƏRLİ DİABET (T1DM) XƏSTƏLƏRİNDƏ FT3 SƏVİYYƏLƏRİNİN DƏYƏRLƏNDİRİLMƏSİ

Nicat SƏLİMZADƏ[1], Leyla MƏMMƏDOVA[1]

[1]İnci laboratoriyaları, Laboratoriya işi, Bakı

nicatselimzade1@gmail.com

Giriş: Son illərdə1-ci tip şəkərli diabetin (T1DM) tezliyi qlobal miqyasda artmaqdadır. T1DM daha çox yeniyetmələrdə rast gəlinməsi, T2DM- a nisbətən prevalansının daha az olması səbəbindən bu barədə kifayət qədər tədqiqatlar aparılmamışdır. T1DM olan xəstələrdə ölüm və ağırlaşmaların tezliyi yüksəkdir. Müxtəlif populyasiyalarda aparılan araşdırmalar T1DM xəstələrində tiroid funksiyası pozğunluqlarının fərqli olduğunu göstərmişdir.

Məqsəd: Bu tədqiqatın məqsədi T1DM olan xəstələrdə normal TSH və FT4 dəyərlərifonunda FT3 hormonun miqdarının azalmasını və bunun diabetik nefropatiya ilə əlaqəsini statistik cəhətdən dəyərləndirməkdir.

Material və metodlar: Tədqiqat 6 saylı Uşaq xəstəxanasında T1DM təsdiq edilərək qeydiyyata salınan, klinik nəzarəti olmayan 225 nəfər uşaq və yeniyetmələrin serum materialları üzərində aparılmışdır. Serum materialları "İnci Laboratoriyaları"-nın Mərkəz filialının biokimya laboratoriyasında aparılmış və nəticələr cinslərə görə müqayisəli şəkildə dəyərləndirilmişdir. Xəstələrin qan nümunələri alınaraq HbA1C, TSH, FT4, FT3 və kreatinin, sidik cövhəri, total protein dəyərləri Roche Cobas E411, Roche Cobas C311 və ARCHITECT c4000 analizatorlarında uyğun olaraq ECLIA və fotometrik metodlarla ölçülmüşdür.

Nəticə: Müayinəyə cəlb olunanxəstələrin HbA1C dəyərləri 7-17% arasında olmuşdur. Bunlardan 40 nəfərində (17.7%) TSH (2.24±0.34 mIU/mL) və FT4 (1.28± 0.5 ng/dL) səviyyələri normal olduğu halda FT3 səviyyələri aşağı (3.48± 1.1 pg/mL) olmuşdur ki, bu da aşağı FT3 sindromu olaraq adlandırılır. İzolə FT3 azlığı olan xəstələrdən 15-i qadın (37.5%), 25-i kişi (62.5 %) olmuşdur. Əlavə olaraq FT3 səviyyələri aşağı olan 40 xəstənin kreatinin, sidik cövhəri, total protein testləri işlənilmişdir. Xəstələrin heç birində bu testlərdə yüksək dəyərlər müşahidə olunmamışdır.

Yekun: Tiroid disfunksiyası yeni diaqnoz qoyulmuş T1DM ilə xəstəxanaya müraciət edən xəstələrdə bir çox hallarda müşahidə olunur və autoimmun xəstəlik fonunda yarandığı üçün başqa endokrin sistemlərdə də problemlər yarada bilər. Diabetik ağırlaşmalar və diabetlə əlaqəli metabolik və demoqrafik amillər tiroid hormon səviyyələri ilə əlaqədardır. Eyni zamanda T2DM xəstələrində izolə aşağı FT3 sindromunun diabetik nefropatiya ilə əlaqəli olduğunu araşdırmağa yönəlmiş bir sıra tədqiqatlar vardır. Lakin, T1DM-da bu sindromla qarşılaşdığımız xəstə qruplarında böyrək sınaqlarında yüksəklik görülmədiyi üçün daha geniş tədqiqatların aparılmasına ehtiyac vardır.

Açar sözlər FT3, FT4, TSH, Şəkərli diabet (T1DM)

Ş6

KLİNİK BİYOKİMYA LABORATUARLARINDA TÜRBİDİMETRİK OLARAK D-DİMER ÖLÇÜMÜ

Duygu TEKSÖZ[1], Nilgün IŞIKSAÇAN[1]

[1]Tıbbı Biyokimya, SBU Bakırköy Dr. Sadi Konuk Eğitim ve Araştırma Hastanesi, İstanbul, Türkiye

duyguteksoz22@gmail.com

Giriş: D-dimer, bir fibrin yıkım ürünüdür, fibrin birikimi ve kararlılığının duyarlı ve güvenilir bir belirtecidir.

Amaç: Bu çalışmanın amacı, pulmoner emboli, derin ven trombozu, venöz tromboembolizm ve dissemine intravasküler koagülasyon gibi klinik koşullarda, D- dimer testinin immünotürbidimetrik olarak ölçümünün farklı marka kitlerle karşılaştırılması ve yöntemin avantajlarının ortaya çıkarılmasıdır.

Materyal ve Metod: Hastanede yatan hastalardan alınan kan örnekleri 0,109 M trisodyum sitrat içeren tüplere ile ilk ml kan atıldıktan sonra alındı. Plazma, 2250 g'de oda sıcaklığında 15 dakika santrifüj edilerek elde edildi ve 4 saat içinde analiz edildi. Ddimer konsantrasyonu, üreticinin talimatlarına göre İmprogen (İmprogen Diagnostik,Turkiye) ve Kinetik (Kinetik Bilişim Diagnostik, Turkiye) marka kitlerle, tam otomatik klinik biokimya analizörü (AU480 Beckman Coulter, USA) kullanılarak ölçüldü. Türbidimetrik yöntem, lateks parçacıkları tarafından taşınan anti-D-dimer antikorları ile D-dimer arasındaki antijen-antikor reaksiyonunun fotometrik ölçümü ile D-dimer konsantrasyonunun zamana bağlı olarak belirlenmesine dayanan, tam otomatik Ddimerin kantitatif tayin yöntemidir. İmprogen ve kinetik marka kitlerin normal değerleri <0.5 ug/ml, düşük ölçüm sınırları 0.2 ug/ml, yüksek ölçüm sınırları sırasıyla 10 ve 16 ug/ml olarak üretici firma tarafından belirlenmiştir.

Sonuçlar: D-dimer ölçümlerininhasta ortalamaları İmprogen marka 3,27 ug/ml ve kinetik 3,39 ug/ml olarak ölçüldü. İmprogen ve kinetik markaların ölçüm sonuçları 5 ug/ml altı ve üstü olarak iki gruba ayrıldığında, sırasıyla 1,7,9,58 ug/ml ve 1,7,9,63 ug/ml olduğu görüldü. Çalışmaya katılan 20 hastanın D-dimer değerlerinin lineer regresyon analizinde güçlü bir korelasyon görülmüştür (R2=1).

Tartışma: Laboratuarlar, laboratuar içi performans değerlendiren, yöntem belirlemesi yapmalıdır. Klinik laboratuarlar alt yapı hasta potansiyeli ve kurum ihtiyaçlarına göre test yöntemini seçmelidir. Trombus oluşumunun güvenilir bir göstergesi olan Ddimer ölçümü kritik öneme sahiptir. Bu ölçümün, koagülometri analizörü yerine, klinik laboratuarlarda immünotürbidimetrik olarak rutinbiyokimya analizörlerinde yapılmasının, bu cihazların hızlı, rastgele erişimli olması test sonuçlanması sürelerinde avantaj sağlamaktadır. Sonuç olarak bu yöntem insan kaynağının verimli kullanılmasını sağlayacağı ve ayrıca test maliyetlerini azaltacağı için ek avantajlar sağlamaktadır.

Açar sözlər D-dimer, immünotürdimetre, metod

D- dimer İmprogen ve kinetik kit koorelasyon graf



htt

Ş7

DOLAYI İMMUNOFLUORESSENSİYA ANALİZİ VASİTƏSİLƏ ANTİNUKLEAR ANTİCİSİMLƏRİN DƏYƏRLƏNDİRİLMƏSİ

Şəfəq QULAMİ[1], Bayram TAĞIYEV[1], Sahib MUSAYEV[2], İskender KARALTI[1]

[1]Azərbaycan Tibb Universiteti Tədris Terapevtik Klinika, Mərkəzi laboratoriya, Bakı, Azərbaycan

[2]Azərbaycan Tibb Universiteti Tədris Terapevtik Klinika, Revmatologiya və Qastroenterologiya şöbəsi

gulamishafag@gmail.com

Giriş: Antinüvə anticisimləri (ANA) autoimmun birləşdirici toxuma xəstəliklərinin biomarkeridir. ANA-lar zülallar, DNT, RNT və nuklein turşusu-zülal kompleksləri daxil olmaqla, nüvədəki hüceyrə komponentlərinə bağlanan anticisimlərdir və tez-tez Sistem qırmızı qurd eşənəyi (SLE), Sklerodermiya və Polimiozit/Dermatomiozit kimi sistemli autoimmun xəstəliklərdə müşahidə olunur . ANA həm də qocalıq, qadın cinsi və doğuşlarının sayı, genetik faktorlar, kimyəvi maddələr, infeksiyalar, müxtəlif ətraf mühit təsirlərikimi demoqrafik faktorlarla əlaqəli olan ümumi əhalidə də aşkar edilir. Anti nüvə anticisimlərin təyini dolayı immunofluoressensiya analizi (IIFA) vasitəsilə aparılır və bu üsul antinüvə anticisimlərinin (ANA) qiymətləndirilməsi üçün ilkin standart kimi qəbul edilir.

Məqsəd: Bu araşdırmamızın məqsədi Klinikamıza müraciət edən xəstələr arasında ANA pozitivlik dərəcəsini, titrlərini və boyanma modellərini təhlil etməkdir.

Üsullar: Araşdırmamız 2018-2022- ciillər ərzində Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik klinikasının Mərkəzi Laboratoriyasında müayinədən keçən xəstələr arasında aparılmışdır. Ümumilikdə 1836 nümunə retrospektiv olaraq dəyərləndirilmişdir. Serum nümunələri 1:100 durulaşma ilə HEp-2 və meymun qaraciyər toxuması substratından (EUROİMMUN, Almaniya) istifadə edilərək dolayı immunofluoressensiya ilə dəyərləndirilmişdir.

Nəticə: Araşdırmamıza daxil edilən xəstələrdən 17,7%-i(326) kişi, 82,3%-i(1510) qadındır. 1836 nümunənin 63,8%-i(1172) müsbət nəticə vermişdir. Pozitiv xəstələri cinsə görə dəyərləndirdiyimiz zaman 88,6%-in(1038) qadınların payına düşür . Nümunələri titrə görə dəyərləndirdikdə: 19,7%(231)-i Zəif müsbət, 29,0%(340)-i 1/100 (+) , 27,5%(322)-i 1/320(++), 21,7%(254-i) 1/1000(+++), 2,1%(25)-i 1/10000(++++) olmuşdur. Boyanmasına (patternlərə) nəzər yetirdiyimiz zaman nümunələrin 52,1%(611)-də speckled, 20,3% (238)-də homogen, 14,6%(171)-də həm homogen ,həm speckled, 7,3%(85)-də sentromer, 1,1%(13)-də nukleolar, 4,6%(54)- də isə digər növ boyanmalar (nukleer membran, AMA, speckled-sentromer, homogen-sentromer, spindle fibers, multiple nuklear dots, Anti-U1-nRNP və s.) aşkar edilmişdir.

Yekun: Bu üsul revmatik xəstəliklərin diaqnostikasında qızıl standart hesab olunur. Sistem qırmızı qurd eşənəyi (SLE), Sklerodermiyavə s. bu kimi xəstəliklərin differensial diaqnostikasında, xəstənin klinikasının tənzimlənməsində önəmli roloynayır.

Açar sözlər Antinuklear anticisimlər, Autoimmun xəstəliklər, SLE, EUROİMMUN

Ş8

NEYRON SPESİFİK ENOLAZA BİOMARKER KİMİ: BİOKİMYƏVİ VƏ KLİNİK ASPEKTLƏRİ

Taliyyə HƏMZƏYEVA[1], Nigar ƏLİYEVA[2]

[1]Milli Onkologiya Mərkəzi, Klinik-Biokimyəvi laboratoriya, Bakı

[2]Milli Onkologiya Mərkəzi, Klinik-Biokimyəvi laboratoriya, Bakı

hamzayevataliya@gmail.com

Giriş: Neyron spesifik enolaza qlikolitik enzim enolazanın hüceyrə spesifik izoenzimidir. Onurğalılarda müxtəlif genlərlə kodlanmış üç izomeri var: • α- enolaza – bütün hüceyrələr • β- enolaza - əzələ hüceyrəsi • γ- enolaza – sinir hüceyrələrinə məxsusdur. Yetkin insanlarda əzələlərin 70%-dən çox hissəsinin aktivliyi enolaza fermenti vasitəsilə təmin olunur. Neyronlara xas olan enolaza neyron sitoplazmasından əlavə neyroendokrin hüceyrələrdə də (böyrəküstü vəzin xromaffin hüceyrələri, qalxanabənzər vəzin parafollikulyar hüceyrələri) rast gəlinir. NSE neyron və periferik neyroendokrin hüceyrələr üçün yüksək spesifik markerdir, normalda spesifik hüceyrələrdə rast gəlinir və bədən mayelərində səviyyəsinin artması bir çox patologiyalarla əlaqəli ola bilər. NSE APUD hüceyrəli neyroblastoma, retinoblastoma, tiroid medullar karsinoması, feoxromasitoma və karsinoid şişlərin diaqnostikası, aparılan müalicənin effektivliyinin qiymətləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Həmçinin NSE biomarkerinin qastroentero-pankreatik diaqnostika zamanı da faydalı ola bilər. Hətta kəllə-beyin travmaları, beyin hipoksiyası, işemik insult, intraserebral hemorragiya, kardipulmonar arrest sonrası komatoz hallar zamanı NSE-nin qan serumunda miqdarı yüksələ bilər.

Məqsəd: Neyron – spesifik enolazanın klinik və biokimyəvi aspektlərinin qiymətləndirilməsi.

Material və metodlar: Müayinə üçün Milli Onkologiya Mərkəzində 2022-ci il ərzində 608 nəfərin nümunələrində çalışma aparılıb. NSE biomarkeri tam avtomatlaşmış Roche firmasına məxsus Cobas6000 cihazında elektrohemilunissent metodla yoxlanılmışdır. Analiz üçün nümunələr alındıqdan sonra sentrifuqada fırladılmış və ayrılan serumda çalışılmışdır. Nümunə tüblərində hemolizin olmasına yol verilməmişdir.

Nəticə: Tədqiqat qrupuna daxil olan 608 pasientdən 503 nəfərdə patoloji nəticələr qeyd edilmişdir. Onlardan 306 nəfəri 18 yaşdan kiçik, 197 nəfəri isə 18 yaşdan böyük olmuşdur. Patoloji nəticələr arasında kəskin yüksək nəticə 72 nəfərdə qeyd edilmişdir. Onlardan 36 nəfərdə (50%) neyroblastoma, 28 nəfərdə (37.3%) neyroendokrin şişlər və 8 nəfərdə (12.7%) isə digər onkoloji diaqnozlar təsdiqlənmişdir.

Yekun: NSE biomarkerinin kəskin yüksək konsentrasiyasının diaqnostik əhəmiyyəti əlverişsiz proqnostik əlaməti, aparılan müalicəyə zəif cavabı və xəstəliyin artan sürətlə inkişafını göstərir. NSE biomarkerinin aşağı səviyyəsi heç bir diaqnostik əhəmiyyət kəsb etmir.

Açar sözlər Ağciyər xərçəngi zamanı NSE, Neyron – spesifik enolaza, NSE biomarker kimi, NSE biokimyəvi əhəmiyyəti, Neyroendokrin şişlərdə NSE.

Ş9

EVALUATION OF MITOCHONDRIAL DYSFUNCTION BY SERUM FGF-21 LEVELS IN PATIENTS WITH INSULIN RESISTANCE

Şebnem Tekin NEIJMANN[1], Serap Bos ÇETINER[2], Asuman GEDIKBAŞI[3]

[1]Istanbul University, Institute of Health Science, Department of Rare Diseases

[2]Istanbul Centermed Outpatient Clinic, Department of Internal Medicine

[3]Istanbul University, Institute of Child Health, Department of Pediatric Basic Sciences

asugedikbasi@yahoo.com

Introduction: The majority of people who are prediabetic have insulin resistance (IR), which is essential to the emergence of type 2 diabetes. Insulin resistance has both heritable and environmental determinants centered on energy storage and metabolism. Fat is a source of energy for mitochondria, and a decrease in the activity of mitochondria is associated with an increase in ectopic fat and IR. Resting adenosine triphosphate (ATP) synthesis in skeletal muscle in insulin-resistant cases is reduced when compared with insulinsensitive individuals, suggesting a contribution of mitochondrial dysfunction to IR. Reduced mitochondrial function isassociated with an increase in intramyocellular lipid concentration, a decrease in mitochondrial density and content, and a decrease in rates of oxidative phosphorylation in muscle mitochondria in healthy, young, lean,insulin-resistant offspring of T2D patients. Excessive mitochondrial ROS production and reduced mitochondrial function are enhanced by elevated FAs and/or hyperglycemia. FGF-21 is a myokine that is released in response to mitochondrial stress.

Aim: In our study, we aimed to evaluate serum FGF-21 levels, a myokine that has emerged as an indicator of mitochondrial stress in patients with IR.

Material and methods: We analyzed S-FGF21 levels in 58 IR patients (case group) and 30 healthy volunteers (control group) with ELISA methods. For statistical analysis, the Mann-Whitney U was used, the mean and standard deviation were calculated, and statistical significance was evaluated with the Pearson correlation coefficient.

Results: A statistically significant difference was found between the sFGF 21 levels of the case and control groups (case329,49±35,46 and control 30,83±12,48) p=0,0019.

Conclusion: The sFGF 21 levels may use as an indicator of mitochondrial damage in IR patients.

Açar sözlər Insulin resistance, FGF21, mitokine

Ş10

BİYOKİMYA PARAMETRLƏRİNİN NƏTİCƏLƏRİNİN İKİ FƏRQLİ AVTOMATİK ANALİZATORDA QARŞILAŞDIRILMASI

Nigar ƏFƏNDİYEVA[1], Səkinə AĞAYEVA[1], Leyla MƏMMƏDOVA[1], Nuranə TAQİYEVA[1,2]

[1]İnci Laboratoriyaları, Bakı, Azərbaycan

[2]Azərbaycan Tibb Universiteti, Tibbi mikrobiologiya və immunologiya kafedrası, Bakı

drsekine94@gmail.com

Giriş: Son illərdə laboratoriya sahəsində yeni firmaların avtomatik analizatorlarının xidmətə təqdimatı artmaqdadır. Həkim mütəxəssislər laboratoriyalarda yeni cihaz qurulduğunda CLSI (Clinical & Laboratory Standarts Institute) standartlarına əsasən mütləq bu cihazla işə başlamazdan əvvəl rutin olaraq çalışdığı cihaz ilə test qarşılaşdırması aparılmalıdır. Analizlərin həmin laboratoriya şərtlərində də düzgün çalışıb çalışmadığı yoxlanılmalıdır. Buna əsasən yeni cihaz ilə işlənilən test nəticələri artıq daha güvənli şəkildə təsdiq oluna bilər.

Məqsəd: Tədqiqatımızın məqsədi 3 biyokimya parametrinin (Total protein, ALT, sidik turşusu) analitik performansını iki fərqli avtomatik analizatorda qarşılaşdırmaqdır.

Material və Metodlar: İnci laboratoriyalarına gələn 35 xəstə nümunəsi tədqiq olundu. Qan nümunələri rutin sentrifuqa edildikdən sonra serumları ayrıldı və eyni gündə çalışıldı. Total Protein (end point Biuret), ALT (Piridoksalfosfat əlavəsiz IFCC), sidik turşusu (kinetik ureaza) testləri rutində istifadə olunan Cobas c 311 (Roche Diagnostics, Germany) və yeni qurulmuş CS-480 (DIRUI Industrial, China) cihazlarında işlənildi. Günlər arası performansı dəyərləndirmək üçün iki fərqli gündə tədqiqat aparıldı. Hər iki gündə də cihazların hər ikisində də daxili kontrol materialı oxuduldu və ± 1 SD aralığında qəbul edildi. Test statistikası Medcalc programı ilətəhlil edildi.

Nəticə: Test nəticələri arasında güclü və əhəmiyyətli korrelyasiya müşahidə edildi (ALT (r=0,947, p<0,0001) total protein (r=0,936 p<0,0001), sidik turşusu (r=0979, p<0,0001)). Passing Bablok regressiya hesablamaları ALT üçün İntercept CI 0,3036 (-0,5243-1,0583) və Slope CI 1,1455 (1,1154-1,1892), Total protein üçün İntercept CI 0,2399 (-0,8905-1,2255) və Slope CI 0,9338 (0,8082-1,0811), sidik turşusu üçün İntercept CI 0,8152 (-0,4358-2,0831) və Slope CI 1,073 (0,9795-1,0566) dəyərləri vermişdir.

Yekun: Tədqiqatımızın nəticəsində yeni qurulan cihaz ilə rutində istifadə etdiyimiz cihazda çalışılan test nəticələri arasında korrelyasiya müşahidə olunmuşdur. Buna əsasən yeni qurulan cihaza güvənərək digər testlər üçün də bu tədqiqatı davam etdirmək planlanmışdır. Bu tədqiqatda test nəticələrinin qarşılaşdırılmasının vacibliyini laboratoriya mütəxəsislərinə bir daha xatırlatdırılmışdır.

Açar sözlər Total protein, ALT, sidik turşusu, qarşılaşdırılma, analizator

Ş11

SPECIES DIVERSITY OF THE MOSTLY ISOLATED YEAST FROM HOSPITAL ENVIRONMENT USING TAQMAN PCR IN PLATEAU STATE, NIGERIA

İskender KARALTI[1], Nnaemeka Emmanuel NNADI[2], Miri Alexander NANPYAL[2], Nanpon KADUNA[2], Bege JONATHAN[3]

[1]Azerbaijan Medical University, Educational and Therapeutic Hospital, Central Laboratory, Baku, Azerb

[2]Department of Microbiology, Faculty of Natural and Applied Sciences, Plateau State University, Bokko

[3]Environmental & Occupational Toxicology Unit, Department of Biochemistry, Faculty of Natural and App

iskender.karalti@gmail.com

In the past few years the role the hospital environment in the transmission of infections has increased leading to the increase in the incidence of morbidity and mortality associated with Candida infections. The hospital environment can serve as an alternative niche for the presence of opportunistic pathogens of public health concern. This study sought to use molecular approach to study the prevalence of Candida from hospital environments in Jos, Plateau State, Nigeria. Samples were collected from different hospital environments and cultured on Chromagar Candida media. Taqman PCR was then used to characterize the isolates, the ability of Candida to form biofilm was evaluated. In this study, Candida parapsilosis with 31.25% was the most prevalent Candida followed by C. glabrata and Issatchenkia orientalis (formerly C. krusei) with prevalence of 28.13%. The ability to form biofilms was evaluated for these environmental isolates, and it was observed that C. parapsilosis biofilm formation correlated with high prevalence with C. parapsilosis having high biofilm formation (20/64) followed by C. glabrata and I. orientalis (18/64) each environmental sampling has the potential to improve our knowledge about yeast biodiversity and the evolution of pathogenic yeasts with clinical relevance. This study is the first in Nigeria to study to characterize Candida from hospital environments in Jos, Plateau state Nigeria.

Açar sözlər Hospital Environments, Candida, Taqman PCR, Biofilm, Issatchenkia

Ş12

DİABETİK AYAQ İNFEKSİYALARINA MİKROBİOLOJİ BAXIŞ

Sədinə TAĞIYEVA[1]

[1]İnci laboratoriyaları "HB Güvən " filialı, Bakı

sadinataghiyeva@gmail.com

Giriş: Diabetik ayaq yaraları diabetin ən ağır və ciddi ağırlaşmasıdır. Diabet xəstələrinin 25%-i həyatlarında ən azı bir dəfə diabetik ayaq yaraları ilə qarşılaşır . Zamanında və təsirli müalicə başlamadığı hallarda yumşaq toxuma nekrozu və osteomielit ətrafların amputasiyası üçün risk yarada bilər. Bu səbəbdən müalicə üçün bakterioloji analiz çox vacibdir. Diabetik ayaq yarası üzərində çox saylı elmi araşdırmalar aparılmış, ən sıx izolə edilən mikroorqanizm S.aureus olmuşdur. Lakin Azərbaycanda diabetik ayaq yara kültür nəticələrini bildirən bir statistika olmamışdır.

Məqsəd: Bu təqdiqatda Azərbaycanda diabetik ayaq yaralarında izolə edilən bakteriya prevalansını araşdırmaqdır.

Material və metodlar: 2021-2023 –cü illərdə HB Güvən klinikasının müxtəlif şöbələrindən və digər klinikalardan mikrobioloji laboratoriyaya daxil olmuş 120 diabetik yara nümunələri retrospektiv olaraq dəyərləndirildi. Alınmış nümunələr qanlı aqar (blood agar), EMB (Eozin Metilen Blue) və sabouraud aqara kultivasiya olundu. Materiallar 35° C temperaturda 24 saat inkubasiya olunduqdan sonra inkişaf görünən nümunələr işləmə alınmışdır. İzolə edilən bakteriyaların identifikasiyası EUCAST standartlarına əsasən disk diffuziya üsulu ilə aparılmış və nəticələr Vitek 2 Compact cihazı ilə təsdiqlənmişdir.

Nəticə: Tədqiqata daxil edilmiş 120 nümunədən 8-də (6.6%) inkişaf müşahidə olunmamış,10 -da (8.3%) normal dəri flora nümayəndələri inkişaf etmişdir. 53 nümunədə (44%) Qram müsbət bakteriyalar (S.aureus n=29, KNS n=5, Str.pyogenes n=1, Str. agalactiae n=4, Enterococcus spp n=5,Streptococcus spp n=2) və 24 nümunədə (20%) Qram mənfi bakteriyalar (Pseudomonas aeruginosa n=11, Proteus spp n=5, Klebsiella spp n=2, Enterobacter n=1), Candida spp (1.6%) n=2 nümunədə inkişaf etmişdir. 38 nümunədə (31.6%) isə polimikrobial (Pseudomonas aeruginosa+Staphylococcus aureus, Escherichia coli+Proteus mirabilis, Acinetobacter baumannii+Staphylococcus aureus, Staphylococcus aureus+Enterococcus spp və s.) inkişaf görüldü.

Yekun: Tədqiqat sonrası aldığımız nəticədən məlum oldu ki, Azərbaycanda da diabetik ayaq yaralarında rast gəlinən törədicilər ədəbiyyatda qeyd olunanla uyğun gəlir. Bu nəticələrin daha çox xəstə sayını əhatə edəcək qruplarla araşdırılmasına ehtiyac var. Zamanında infeksiyaya səbəb olan bakteriyanın izolə edilməsi və doğru müalicə xəstənin yaşam keyfiyyətini yüksəldəvə amputasiya olunan xəstə sayını kəskin azalda bilər.

Açar sözlər diabetik yara infeksiyası, diabetik ayaq yarası, diabet

Ş13

MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ÇALIŞANLAR ARASINDA APARILAN MÜAYİNƏLƏR ZAMANI HBSAG VƏ ANTI-HCV ANTİCİSİM AŞKARLANMA HALLARININ TƏHLİLİ

Nazilə HƏSƏNOVA[1], Nuranə TAQİYEVA[2], Təranə KƏRİMOVA[1]

[1]Respublika Gigiyena və Epidemiologiya Mərkəzi, Virusologiya laboratoriyası, Bakı

[2]Azərbaycan Tibb Universiteti, Tibbi mikrobiologiya və immunologiya kafedrası, Bakı

hnazile11@gmail.com

Giriş: Dünyada qaraciyər sirrozu səbəblərinin 2/3-si Hepatit B (HBV) və C viruslarının (HCV) payına düşür. 2016-cı ildə Ümumdünya Səhiyyə Təşkilatı geniş miqyaslı profilaktika, sınaq və müalicə yolu ilə 2030-cu ilə qədər hepatitlərin aradan qaldırılmasına yönəlik çağırışlar edib. Azərbaycanda da Hepatit B və C xəstəliyinin rastgəlmə tezliyi yüksək səviyyədədir. Ölkəmizdə virus hepatitlərinin erkən aşkar edilməsi üçün dövri tibbi müayinələr aparılır. Bu müayinələr Azərbaycan Respublikası Prezidentinin "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Nazirlər Kabinetinin "Məktəbəqədər təhsil sahəsində təhsil verənlərin tibbi müayinədən keçməsi qaydası" qərarına əsasən ildə bir dəfə icra edilir.

Məqsəd: Tədqiqatın məqsədi dövri müayinə olunan məktəbəqədər təhsil müəssələrində çalışan şəxslərin HBV və HCV nəticələrinin retrospektiv olaraq təhlilidir.

Material və metodlar: 2022-ci il ərzində "Respublika Gigiyena və Epidemiologiya Mərkəzi" PHŞ-nın Virusologiya laboratoriyasına məktəbəqədər təhsil müəssisələrindən 4588 nəfərin (20-65 yaş aralığı) qan nümunələri daxil olmuşdur. Bu nümunələrdə HBsAg və Anti-HCV testləri aparılmışdır. Testlər Monolisa HBsAg ULTRA Assay və Monolisa HCV Ag-Ab ULTRA V2 Assay kitləri (Bio-rad, ABŞ) vasitəsilə manual çalışılmışdır. **Nəticə.** Laboratoriyaya daxil edilmiş 4588 nəfərinqan nümunələri arasında 39 (0.85%) nəfərin HBsAg analiz nəticəsi, 38 (0.82%) nəfərin isə Anti-HCV analiz nəticələri pozitiv(+) olaraq dəyərləndirilmişdir. Müayinələrin nəticəsi barədə müəssisə rəhbərləri və müvafiq poliklinika üzrə obliqat qrup kabinetləri məlumatlandırılmışdır.

Yekun: Əldə edilmiş nəticələrə əsasən bizim tədqiqat qrupumuza daxil olan 4588 nəfər arasında HBV və HCV-ə yoluxanların olduğu müşahidə olundu. Nəzərə alsaq ki, məktəbəqədər təhsil müəssələrində çalışanlar 5 yaşa qədər uşaqlarla yaxından təmasdadırlar, uşaqlar bilavasitə, valideynləri isə dolayı olaraq HBV və HCV-yə yoluxma riski daşıyırlar. Busəbəbdən bu işçilər HBV-ə qarşı vaksinasiya olunmalıdır, o cümlədən Hepatit B və C müayinələrinin vaxtaşırı aparılması tövsiyə olunur.

Açar sözlər HBsAg, Anti-HCV, qaraciyər sirrozu

Ş14

QAN KÜLTÜRLƏRİNDƏN İZOLƏ EDİLMİŞ MİKROORQANİZMLƏRİN DƏYƏRLƏNDİRİLMƏSİ VƏ SERUM PCT DƏYƏRLƏRİ ARASINDAKI KORRELYASİYANIN ÖYRƏNİLMƏSİ

Məhbubə SƏFƏROVA[1], Bayram TAQİYEV[2], Ramin BAYRAMLI[3]

[1]Sumqayıt şəhər Mərkəzi Uşaq Xəstəxanası, Sumqayıt şəhəri, Azərbaycan

[2]Azərabycan Tibb Universiteti, Tədris Terapevtik Klinikası, Bakı şəhəri,Azərbaycan

[3]Azərabycan Tibb Universiteti, Mikrobiologiya Kafedrası, Bakı şəhəri,Azərbaycan

dr.mehbube93@gmail.com

Giriş: Qan dövranı infeksiyaları (bakteremiya, sepsis, SİRS) bütün dünyada geniş yayılmış xəstəliklərdən olub,yüksək ölüm səbəblərindən biridir. Qan kültürü (hemokultura) bakteremiya vəya fungemiya yaradan mikroorqanizmlərin aşkar edilməsində qızıl standartddır.Yenidoğulmuş xəstə qruplarında bakteremiya törədicilərinin vaxtında aşkar olunması,uyğun antibiotiklərlə müalicənin başlanması, infeksion prosesin vaxtında kontrol edilməsində,ölüm riskinin azaldılmasında önəmlidir. Hər nə qədər qızıl standart olsada,erkən diaqnozda yetərsizdir. Bakteremiyanın erkən mərhələsində istifadə olunan, müalicənin effektivliyini göstərən alternativ laboratoriya testi PCT-dir.

Məqsəd: Yenidoğulmuşlardan göndərilmiş hemakulturalarda aşkarlanmış patogen mikroorqanizmlərin dəyərləndirilməsi və erkən diaqnozda istifadə edilən PCT-nin diqanostik əhəmiyyətinin araşdırılmasıdır.

Material və metodlar: Sumqayıt şəhər Mərkəzi Uşaq xəstəxanasının Bakterioloji laboratoriyasına (01.02.2022-28.02.2023) daxil olmuş hemakultura nümunələrinə, PCT dəyərlərinə baxılmışdır. Hemokultura nümunələri BacT/Alert3D cihazında çalışılmışdır.Pozitiv siqnal verən qan kültürlərindən preparat hazırlanaraq,qram boyama baxılmış, qanlı aqar, EMB, SD aqarlarına inokulyasiya edilmişdir. İzolə edilən mikroorqanizmlər klassik bakterioloji üsullar və VİTEK2 cihazı ilə identifikasiya edilmişdir. Xəstələrin PCT dəyəri <0,5 ng/ml normal, ≥0,5 ng/ml yüksək qəbul olunmuşdur.

Nəticə: Araşdırma qrupuna 107 xəstə daxil edilmişdir. 40 (37,4%) nümunədən pozitiv siqnal ,67(62,6%) nümunədən neqativ siqnal alınmışdır. Pozitiv kültürlərin 55%-də Qram(+) (KNS,n=11; S.aureus,n=8;Enterococcus spp., n=2, Corynobacterium spp.n=1), 35%-də Qram(-) (Acinetobacter spp.,n=7;Klebsiella spp.,n=5;Serratia spp., n=2), 7,5%-də miks (S.aureus və E.coli,n=1;Acinetobacter spp.və Enterococcus spp.,n=2), 2,5%-də Candida albicans(n=1) inkişaf etmişdir. Hemokultura munələrinin götürülməsindən əvvəl,xəstələrdə antibiotik qəbul edilib-edilməməsi haqqında sistemdə məlumat yoxdur. PCT dəyərinin antibiotik müalicəsindən sonra azalması bilinməktədir. Pozitiv hemakultur nümunələrinin 38-də PCT dəyərinə baxılmış,bunlardan 74,2%də(n=26) PCT normadan yuxarı, 25,8%-də(n=9) PCT normada olmuşdur. Hemokulturada Qram(-) aşkarlanmış xəstələrin 84,6%-də, Qram(+) aşkarlanmış xəstələrin 73,9%-də,miks aşkarlanmış xəstələrin 100%-də PCT dəyəri normadan yuxarı göstərmişdir.

Yekun: Pozitiv olaraq qiymətləndirilmiş hemakultur nümunələrinin böyük əksəriyyətinin Qram (+) bakterialar təşkil etdiyi aşkarlandı. Hemakultur nümunələri pozitiv olan xəstələrin serum PCT dəyəri arasında uyğun korrelyasiya olduğu görüldü. Qram(-) bakteremiya qrupunda PCT dəyərinin Qram(+) bakteremiya qrupundan çoxda fərqli olmadığı aşkarlandı. Buna əsasən PCT dəyərinin tək başına diqnostik əhəmiyyəti yoxdur. Hemokulturada inkişaf edən bakteriyaların Qram(+) vəya Qram(-) olması haqqında ilkin fikir söylənməsində yetərli deyildir.

Açar sözlər: Hemokultura, Qram(+), Qram (-), PCT.

Ş15

HBV DNT POZİTİVLİYİ ZAMANI HBSAG NEQATİV OLAN HALLAR

Nuranə TAQİYEVA[1], Müslüm XANALIBƏYLİ[2], Bayram TAQİYEV[3], Samir CAVADLI[4], Ramin BAYRAMLI[1]

1Azərbaycan Tibb Universiteti, Tibbi mikrobiologiya və immunologiya kafedrası, Bakı

2İnci Laboratoriyaları, Bakı

3Azərbaycan Tibb Universiteti, Tədris Terapevtik Klinika, Laboratoriya şöbəsi, Bakı

4Azərbaycan Tibb Universiteti, Tibb və Sağlamlıq Elmlərinin Təhsili kafedrası, Bakı

muslum.xanalibeyli@gmail.com

Giriş: Hepatit B xəstəliyi dünyada qaraciyər çatışmazlığı, sirroz və hepatosellulyar karsinomanın aktual etioloji səbəbidir. HBV yoluxmuş hepatositlərdə RNT-nin transkripsiyasında qəlib olan kovalent rabitəli sirkulyar DNT (cccDNA)-nin daimi mövcudluğu səbəbilə xəstəlik təmamilə müalicə oluna bilmir. cccDNAninqaraciyərdə transkripsiya aktivliyi ilə HBsAg-in serum səviyyəsinin əlaqəsi olduğu sübut olunub. Serum HBsAg səviyyələrində olan fərqlərə əsasən xəstəliyin müvafiq dövrlərində cccDNT-nin aktivliyi ölçülə bilər. HBsAg-in serumda itirilməsi spontan və ya müalicə nəticəsində sağalmanın əlamətidir, çünki bu adətən viral replikasiyanın kəskin azalmasını əks etdirir. Lakin, aktiv transkripsiya olunan bəzi xəstələrdə HBsAg neqativ olduğu halda belə virus bütün qaraciyərə yayıla bilər ki, bu da HBsAg-nin viral replikasiyada surroqat marker kimi klinik faydasını şübhə altına alır.

Məqsəd: Tədqiqatımızın məqsədi HBsAg neqativ və HBV DNT pozitiv olan xəstələrin rastgəlmə tezliyini öyrənməkdir.

Material və metodlar: Tədqiqata Abşeron RMX-ə müraciət edən və molekulyar analiz üçün "İnci laboratoriyaları"-na göndərilən həm HBsAg həm də HBV DNT kəmiyyət analizləri olunan 93 nəfər (51 nəfər qadın, 42 nəfər kişi) daxil edilmişdir. HBsAg testi chemiluminescent microparticle immunoassay(CMIA)(Abbott i2000), HBV DNT səviyyəsi isə real zamanlı PolimerazalıZəncirvari Reaksiya (rzPZR) üsulları ilə aparılmışdır (Real time PCR, BIO-RAD CFX96-IVD).

Nəticə: Çalışılan 93 nümunədən 87-də (93%) HBsAg və HBV DNT analiz nəticələri arasında müsbət korrelyasiya müşahidə olundu. Lakin, 6 (7%) nümunədə HBsAg neqativ olduğu halda HBV DNT pozitiv olaraq dəyərləndirilmişdir. HBV DNT keyfiyyət miqdarı pozitiv olmasına baxmayaraq virus titri aşağı idi (10^2 -10^3 IU/ml).

Yekun: Bəzi xroniki HBV pozitiv durumlarda HBsAg neqativ olan xəstələrdə HBV DNT pozitiv olur. HBV DNT analizləri xroniki qaraciyər xəstəliyi olan pasientlərdə serum HBsAg neqativ və HBV DNT-nin mövcudluğu ilə xarakterizə edilən gizli HBV infeksiyasını aşkar etmək üçün sınaqdan keçirilməlidir.

Açar sözlər cccDNA, HBsAg, HBV DNT

Ş16

İNTERLEYKİN-6 MÜAYİNƏSİNİN KORONAVİRUS SARS-COV2 XƏSTƏLİYİNDƏ ƏHƏMİYYƏTİ

Reyhan TAĞIZADƏ[1], Sevinc Həmidağa QASIMOVA[2]

[1]Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu,Bakı,Azərbaycan

[2]MediClub MMM klinikası,Bakı,Azərbaycan

Sevinj_q@mediclub.az

Giriş: COVID-19 xəstəliyi SARS-CoV-2 virusunun törətdiyi yüksək yoluxucu pnevmoniyadır. Əksər xəstələrdə yüngül simptomlar olsa da, ağır xəstələrdə ölüm riski yüksəkdir. Odur ki, COVID-19 xəstələrinin ağırlıq dərəcəsini müəyyən etmək və ölüm nisbətini azaltmaq üçün müvafiq göstəriciləri tapmaq lazımdır. Bir-birinə zidd olan nəticələrə görə, iltihab faktorları haqqında, xüsusən də IL-6, PCT və CRZ ,COVID-19 xəstəliyi üçün hələ də az məlumat var .Bu araşdırmada biz əsas iltihab faktorları: IL-6, PCT və CRZ-ın, COVID-19 xəstələrində, artan ölüm riski ilə əlaqəli olub olmadığını öyrənməyə çalışdıq.

Material və metodlar:103 müsbət COVİD-19 olan pasiyentin zərdabında İnterleykin-6, PCT və CRZ göstəriciləri yoxlanilmışdır. Tədqiqat aparılan pasientlər qrupu, xəstəliyin ağırlığından asılı olaraq, iki yerə bölünmüşdür: xəstəliyi yüngül keçirən (YQ) (n =74) və xəstəliyi ağır keçirən qrup (AQ) (n = 29). Müayinələr Cobas e411 (Hoffmann-La Roche Ltd , İsveçrə) tam robotlaşdırılmış immunokimyəvi elektroxemilüminisstent avtomat analizatorda və Cobas c311 həmin şirkətinin istehsalı olan tam avtomatlaşdırılmış biokimyəvi analizatorda aparılmışdır .

Nəticələr: Nəticədə ağır gedişatlı pasiyentlərdə interleykin-6 normadan 30 dəfə artıq səviyyəyə qalxmışdır və bu pasiyentlər sağaldıqca İnterleykin-6 səviyyəsi enmişdir. Qeyd etmək lazımdır ki, yüksək IL-6, CRZ və PCT səviyyələri olan xəstələrin yaşı ≥ 60 idi. Ağır xəstələrdə həqiqilik dərəcəsi ($P < 0.001$, $p < 0.001$ və $p = 0.025$) IL-6, CRZ və PCT üçün müvafiq olaraq göstərilmişdir. Bundan əlavə, yuxarıda qeyd olunan, iltihab markerlərinin həssaslığı, spesifikliyi, müsbət və mənfi proqnozlaşdırıcı göstəriciləri, optimal keçid dəyərini əldə etmək üçün hesablanmışdır . Bu da 30,2 pg/mL, 39,8 mg/L və 0,07 ng/ml-ə uyğun olmuşdur, IL-6, CRZ və PCT üçün müvafiq olaraq. Tədqiqatımızda ümumi ölüm nisbəti 21,7% təşkil etmişdir və bu ölümlər ağır xəstələr qrupunda baş vermişdir.

Yekun: Beləliklə, IL-6, PCT və CRZ-lın yüksəksəviyyələri, xəstəliyin ağır gedişatını və proqnozunu müəyyən edə biləcək faktorlardandır, xüsusilə yaşlı və ağır gedişatlı xəstələrdə.

Açar sözlər İntetleykin-6, COVİD-19, PCT, CRZ

Ş17

PERİORBİTAL FİSTULLU MAKSİLLAR SİNUS AKTİNOMİKOZU: KLİNİKİ MÜŞAHİDƏ

Eldar MƏMMƏDOV[1], Könül MƏMMƏDOVA[2], Aytac İLYASZADƏ[3]

[1]V.Axundov adına Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutu Bakı

[2]Azərbaycan Tibb Universiteti Tibbi Mikrobiologiya və İmmunologiya kafedrası Bakı

[3]Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzi Bakı

dcr.eldar@hotmail.com

Giriş: Aktinomikoz kliniki praktikada nadir rast gəlinən xroniki qranulomatoz xəstəlikdir. Normalda insanın ağız boşluğu, həzm və genital sistemlərində kolonizasiya edən qram-pozitiv basil olan Actinomyces spp. tərəfindən törədilir. Aktinomikozun əsasən servikofasial, torakal və abdominal formalarına daha çox rast gəlinir.İrinli yaraların adi bakterioloji müayinəsində Actinomyces spp. araşdırılmadığı üçün aktinomikoz diaqnozunun təsdiqlənməsinə çox az hallarda təsadüf edilir.

Məqsəd: Bu klinik müşahidədə periobital nahiyyədə fistullu və çənəaltı nahiyyədə fistulsuz bərk lezyonları olan, servikofasial aktinomikoz diaqnozu qoyulmuş 11 aylıq qız uşağıhaqqında bilgi veririk.

Material və metodlar: Fistullu yaradan nümunə götürülərək qram boyama metodu ilə rənglənmişdir. Həmçinin biopsiya nümunəsi götürülərək histoloji incələmə aparılmışdır. Eyni zamanda kranial KT müayinəsi edilmişdir.

Nəticə: Qram üsulu ilə boyanmış preparatda sulfur qranulaları və filamentasiya etmiş çoxlusayda qram-pozitiv basillər, həmçinin histoloji incələmədə oval boyanmış sulfur qranulaları müşahidə edildi. Kranial KT müayinəsində sağ maxillar tutulum, periorbital hissədən ostium destruksiyası aşkarlandı. Dioqnoza əsasən penisilin qrupu antibiotiklə 6 ay aparılmış müalicə nəticəsində müsbət nəticə əldə edilmiş, periorbital nahiyyədə olan fistul çapıqlaşaraq qapanmışdır. Çənə altı nahiyyədə olan bərk lezyonlar isə tamamilə sağalmışdır. Təkrar KT müayinəsində sağ maksillar sinusun pnevmotizasiyası normaldır.

Yekun: Bu tip kliniki gedişli fistullu xroniki yaralarda aktinomikozdan şübhələnilməli, mikrobioloji və histoloji tədqiqatlar aparılaraq dəqiq diaqnoz qoyulmalı, osteomielit ağırlaşması ehtimalı yüksək olduğu üçün kranial KT edilməlidir. Göstəriş varsa cərrahi müdaxilə edilməli və penisilin qrupundan olan antibiotiklə uzun müddətli müalicə aparılmalıdır.

Açar sözlər aktinomikoz, diaqnostika, müalicə, maksillar sinuzit, servikofasial aktinomikoz, sulfur qranulası



a)Periorbital irinli fistullu və çənəaltı bərk(solid) fistulsuz lezyonlar b)Periorbital irinli fistul c)Sulfur qranulası d)Müalicədən 3 ay sonra çapıqlaşmış periorbital lezyon e)Qram boyamada qram pozitiv filamentasiya etmiş basillər(Actinomyces spp.) f)Kranial KT müayinəsində sağ maksillar sinuzit

Ş18

COVID -19 XƏSTƏLƏRİNDƏ İNKİŞAF ETMİŞ İKİNCİLİ BAKTERİAL İNFEKSİYA TÖRƏDİCİLƏRİ VƏ BU PATOGENLƏRİN XİNOLON QRUPU ANTİBİOTİKLƏRƏ QARŞI DAVAMLILIĞININ ARAŞDIRILMASI

Sevinc ƏLİYEVA[1], Bayram TAQİYEV[2], İskender KARALTI[2], Fəridə HACIYEVA[3], Aygül ƏLİYEVA[3]

[1]Elmi Tədqiqat Kardiologiya İnstitutu, laboratoriya şöbəsi, Bakı

[2]Azərbaycan Tibb Universiteti , Tədris Terapevtik Klinika, Laboratoriya şöbəsi, Bakı

[3]Azərbaycan Tibb Universiteti , Tədris Terapevtik Klinika, İnfeksion xəstəlikləri şöbəsi, Bakı

aliyev.sevinc274@gmail.com

Giriş: Bakteriyal ikincili infeksiyon agentlər viral tənəffüs yolu infeksiyalarında önəmli ölüm və xəstəlik törədiciləridir. Covid 19 pandemiyası dövründə əsasən reanimasiyada müalicə alan xəstələrdə qan və aşağı tənəffüs yolu nümunələrindən çoxsaylı bakterial agentlər izolə edilirdi.

Məqsəd: SARS-CoV-2 pozitiv xəstələrdə ikincili infeksiyanın səviyyəsi bilinmədiyindən biz də təkmərkəzli tədqiqat apardıq. Məqsədimiz Covid -19 pozitiv xəstələrdə inkişaf etmiş ikincili bakterial infeksiya törədicilərini aşkar etmək və bu patogenlərin xinolon qrupu antibiotiklərə qarşı davamlılığını araşdırmaq idi.

Material və metodlar: Bu tədqiqatda 01.04.2020-01.08.2020 tarixlərində ATU Tədris Terapevtik Klinikasında müalicə alan xəstələrdən götürülmüş qan və bəlğəm kultivasiya nəticələrini retrospektif olaraq dəyərləndirdik. Tədqiqata 125 kultivasiya nəticəsi daxil edilib. Qan şüşələri BACT/Alert (Biomeriux, Fransa) cihazında inkubasiya olunub. İnkişaf etmiş mikroorqanizmlər VİTEK 2.0 (Biomeriux, Fransa) tam avtomat sistemilə, antibioqram nəticələri isə həm klassik metodlarla (Disk diffuziya üsulu), həm də avtomat sistem (Vitek 2.0) ilə işlənib. Antibioqram nəticələri EUCAST (European Committee on Antimicrobial Susceptibility Testing) standartlarına görə dəyərləndirilib.

Nəticə: Nəticə etibarilə qan kultivasiya nümunələrinin 40.6%-də (52/111), bəlğəm nümunələrinin isə 87.5%-də (21/24) inkişaf olub. Pozitiv siqnal aldığımız qan şüşələrində 45.2% *S.epidermidis* (19/42), 11.9% *Acinetobacter spp*. (5/42), 9.5% *S.aureus* (4/42), 9.5 *Enterococcus spp.* % (4/42) inkişaf edib. Bəlğəm nümunələrində isə 43.75% *Candida spp*. (14/32), 12.5% *Acinetobacter* spp. (4/32), 12.5% *Pseudomonas spp*. (4/32), 9.4% *Enterococcus spp* (3/32) inkişaf edib. EUCAST qaydalarına görə dəyərləndirilmiş AHT-nin nəticələrinə görə inkişaf etmiş mikroorqanizmlərin 70.4'%-i xinolon qrupu antibiotiklərə davamlı müəyyən edilib. Aşağı tənəffüs yolu nümunələrindən izolə olunan bakteriyalarda davamlılıq 45.6%, qan nümunələrindən izolə edilmiş bakteriyalarda davamlılıq 47.4 % müəyyən edilib (cədvəl 1).

Yekun: COVID-19 pandemiyası zamanı geniş spektrli antibiotiklərin həddindən artıq istifadə ilə bağlı bir çox araşdırma var. Xəstələrin 90% -də antibiotiklər mikrobioloji əsaslandırma olmadan empirik olaraq başlanıb.Sars-CoV2 virusu ilə yoluxmuş xəstələrin müalicə protokolları yenidən gözdən keçirilməli, stasionar şəraitdə müalicə alan xəstələrin empirik müalicəsində seçilmiş antibiotiklər hər bir xəstəxananın öz tələbinə uyğun seçilməlidir.

Açar sözlər: SARS-CoV-2, xinolon, qanın kultivasiyası, antibiotik davamlılıq

Qan kultivasiya və ATY nümunələrindən izolə edil

Xinolon qrupu antibiyotik	Qan kultivasiya %	Aşağı tənəffüs yolu %
Həssas	50.2	52.9
Davamlı	47.4	45.6
Orta Həssas	2.4	1.5

Aşağı tənəffüs yolu nümunələrindən izolə olunan bakteriyalarda davamlılıq 45.6%, qan nümunələrindən izolə edilmiş bakteriyalarda davamlılıq 47.4 % müəyyən edilib

Ş19

KƏSKİN QASTROENTERİTLİ UŞAQLARDA ADENOVİRUS VƏ ROTAVİRUSLARIN YAŞA VƏ CİNSİYYƏTƏ GÖRƏ YAYILMA TEZLİYİNİN ÖYRƏNİLMƏSİ

Firuzə RƏHİMLİ[1], Emma AĞAYEVA[1]

[1]Azərbaycan Tibb Universiteti, Tibbi mikrobiologiya və immunologiya kafedrası, Bakı, Azərbaycan

firuzerehimli2001@gmail.com

Giriş: Kəskin qastroenterit ürəkbulanma, qusma, hərarət və abdominal ağrılar ilə xarakterizə olunan, sürətli başlayan diareya xəstəliyi kimi müşahidə olunur. Virus mənşəli qastroenteritlər bütün qastroenteritlərin təxminən 70-80%-ni təşkil edir və inkişaf etməkdə olan ölkələrdə, xüsusən də 5 yaşa qədər uşaqlarda xəstələnmə və ölüm hallarının mühüm səbəblərindən biridir. Xəstəliyə səbəb olan infeksion agentlər arasında Rotaviruslar və enterik Adenoviruslar dominantlıq təşkil edir.

Məqsəd: Kəskin qastroenterit ön diaqnozu qoyulmuş xəstələrdə Adenovirus və Rotavirusların yayılma tezliyini müəyyən etmək və onların yaşa,cinsiyyətə görə paylanılmasını qiymətləndirmək.

Material və metodlar: Tədqiqat üçün 29.12.2022 – 29.03.2023 tarixləri arasında K. Fərəcova adına Elmi –Tədqiqat Pediatriya İnstitutunun laboratoriyasına göndərilmiş kəskin qastroenterit şübhəsi olan 126 xəstənin nəticələri retrospektiv olaraq təhlil edilmişdir. Xəstələrin nəcis nümunələrində Adenovirus və Rotavirus antigenlərini aşkar etmək üçün keyfiyyətli immunoxromatoqrafik testdən istifadə edilmişdir.

Nəticə: Tədqiqata daxil olan 126 xəstədən 80-i (63,4%) oğlan, 46-ı (36,5%) qız olmuşdur. Aparılan retrospektiv müşahidələrin nəticəsində xəstələrdən 51-də (40,4%)virus antigeni aşkar edilib. 45 (35,7%) xəstədə Rotavirus, 6 (4,7%) xəstədə isə Adenovirus aşkarlanmışdır. Adenovirus və Rotavirus antigenlərinə ən çox 1-2 və 3-5 yaş qruplarında rast gəlinir. Rotavirus pozitivliyi oğlan xəstələrdə 37,5%, qızlarda isə 32,6% olub. Adenovirus pozitivliyi isə oğlanlarda 3,1%, qız uşaqlarında 1,5% olmuşdur. Bu fərq statistik cəhətdən çox əhəmiyyət daşıyır. Adenovirus və Rotavirus antigenlərinin hərikisinin müsbət olduğu heç bir xəstə tapılmadı. Virus törədicilərinin mövsümi paylanmasına görə tədqiqat apardığımız qış və yaz mövsümlərində Rotaviruslar daha çox aşkar edilib.

Yekun: Tədqiqatımızda Adenovirusvə Rotavirusların uşaqlıq dövründə kəskin qastroenteritə səbəb olan mühüm faktor olduğu müəyyən edilmişdir. Xəstələrdə kəskin qastroenterit törədən viral agentlərin qısa müddətdə aşkarlanması erkən diaqnoz və simptomatik müalicəni təmin edəcək. Bundan əlavə, Rotavirusun yaratdığı qastroenteriti azaltmaqüçün bu virus agentinin peyvəndinin adi peyvənd cədvəlinə daxil edilməsi variantı nəzərdən keçirilməlidir.

Açar sözlər Adenovirus, kəskin qastroenterit, Rotavirus

Ş20

"COVİD-19 PANDEMİYASI ZAMANI SƏHİYYƏ İŞÇİLƏRİNİN QARŞILAŞDIĞI ÇƏTİNLİKLƏR"

Nərminə İSMAYILOVA[1]

[1]"Sağlam Ailə Tibb Mərkəzi", laboratoriya şöbəsi

dr.narminaismayilova@gmail.com

Giriş: Səhiyyə işçilərinin gördüyü işlər bir insanın həyatının qorunması, xilas edilməsilə bağlı olduğu üçün iş şəraitləri də son dərəcə streslidir. Psixoloji, sosial, zehni və fiziki cəhətdən onların çiyinlərinə ağır məsuliyyət düşür. Bütün bu məsuliyyətlərin üzərinə 2019-cu il dekabr ayında ortaya çıxan, sürətlə yayılan yeni tip koronavirus (COVİD-19) da əlavə olundu. 11 mart 2020-ci ildə ÜST tərəfindən pandemiya elan olundu.

Məqsəd: Səhiyyə işçilərinin COVİD-19-a yoluxma səbəbləri, virusdan qorunma tədbirləri, pandemiya dövründə yaşanan mental çətinlikləri araşdırmaq məqsədilə elmi-tədqiqat işi aparıldı.

Material və metodlar: Araşdırma 01.05.2021–01.06.2021 tarixləri arasında 50 səhiyyə işçisinə təqdim edilən anket sorğusunun cavabları əsasında analiz edildi. Birinci əldən məlumatların toplanmasına üstünlük verildi. Araşdırma zamanı səhiyyə işçilərindən sosial şəbəkələrdə, video görüntü, danışıq ilə məlumatlar əldə edildi. Eyni zamanda sorğu blankları cavablandırılma üçün təqdim olundu.

Nəticə: İştirak edən 50 tibb işçisindən 18-i həkim, 12-si anestezioloq-reanimatoloq, 13-ü tibb bacısı, 7-si feldşer idi. Onlardan 36 nəfər qadın, 14 nəfər kişi idi. "İş şəraitinizdə bir dəyişiklik oldumu?" sualına 43 nəfər "bəli", 7 nəfər "xeyr" cavabı vermişdir. "Ailədəki vəziyyət və sosial yaşayış necə dəyişdi?", "Zehni və psixoloji cəhətdən sakitləşmək üçün nələr edirsiniz?", "İş tempiniz, sürətiniz necə dəyişdi?" kimi suallara müxtəlif qeydləri yazmışlar. "Çoxişlədiyinizi düşünərək özünüzdə tükənmə hiss etdiniz?" sualına 46 nəfər "bəli", 4 nəfər "xeyr" cavabını vermişdir. "Çox işləməyiniz digər işçilər, idarəçilər tərəfindən diqqətə alınır?" sualına 36 nəfər "xeyr", 14 nəfər "bəli" cavabını yazmışdır.

Yekun: Pandemiya davam edən zaman və bitdikdən sonra səhiyyə işçiləri üçün bir sıra qabaqlayıcı tədbirlər görülməlidir. Səhiyyə işçilərinin bu virusa daha tez yoluxa biləcəyini nəzərə alaraq onların daha təhlükəsiz şəraitdə işləyə bilmələrini təmin etmək üçün fiziki və psixoloji vəziyyətlərinin qorunması çox önəmlidir. Səhiyyə işçilərində iş yükünün artması, gördükləri işin dəyərləndirilməməsi, iş yoldaşları arasında münasibətlərin korlanması onlarda tükənməyə səbəb olur. Səhiyyə işçiləri nə qədər məsuliyyətli olsalar da, onların işi müdiriyyət və ya dövlət tərəfindən dəstəklənməlidir.

Açar sözlər COVID-19, Pandemiya, Səhiyyə işçiləri.

Sorğuda iştirak edən səhiyyə işçilərinə verilən suallar:

- İş şəraitinizdə bir dəyişiklik oldumu? Oldusa, nə dəyişikliklər?
- Bu müddət ərzində ailədəki vəziyyət və sosial yaşayış necə dəyişdi?
- Psixoloji və zehni cəhətdən sakitləşmək üçün nələr edirdiniz?
- İşinizə ayırdığınız zaman, verdiyiniz önəm ailəniz tərəfindən necə qarşılandı?
- İşləmə tempiniz, sürətiniz necə dəyişdi?
- Çox işlədiyinizi düşünərək özünüzdə tükənmə hiss etdiniz?
- Çox işləməyiniz digər işçilər, idarəçilər tərəfindən diqqət çəkir?
- Özünüzdə, iş yoldaşlarınızla münasibətdə hansı mənfi və müsbət cəhətləri gördünüz?
- İlk COVİD-19 xəstəsi gəldiyində nələr hiss etdiniz?

"İş şəraitinizdə bir dəyişiklik oldumu?" sualına b

"Bəli"cavabını verən iştirakçılar	Sayı	%
Həkim	17	94,4
Anesteziologq-reanimatologq	10	83,3
Tibb bacısı	13	100
Feldşer	6	86

Ş21

"YARIQ ƏL/AYAQ MALFORMASİYASI": KLİNİK HAL VƏ ƏDƏBİYYAT İCMALI

Nərminə İSMAYILOVA[1]

[1]*"Sağlam Ailə Tibb Mərkəzi", laboratoriya şöbəsi*

dr.narminaismayilova@gmail.com

Giriş. "Yarıq əl/ayaq malformasiyası" (ing. "Split hand/foot malformation" - SHFM) nadir rast gəlinən əksər hallarda autosom dominant genetik xəstəlikdir, yuxarı və aşağı ətrafların sümüklərində qüsurlarla müşaiyət olunur. Rastgəlmə tezliyi hər 1000 doğuşa 0,06 hal təşkil edir. Təqdim olunan "klinik hal"-da ultrasəs müayinəsi (USM) zamanı aşkar olunan SHFM, etiologiyası, patogenezi, diaqnozu və müalicə prinsipləri haqqında məlumat verilir.

Klinik hal. 26 yaşında hamilə qadın II trimestr malformasiyalarının skrininqi üçün klinikaya müraciət etmiş, USM zamanı yuxarı və aşağı ətraflarda anomaliya aşkar edilmişdir. Dölün sağ əlində III barmaq vizualizasiya edilmədi, IV və V barmaqlar yaxın yerləşmiş, hərəkətsiz izlənilirdi. Sağ ayaqda II və IV barmaqlar arasında məsafə böyümüşdür. Qeyd olunan dəyişikliklər malformasiya kimi dəyərləndirildi. Qeyri-invaziv prenatal testlər (non-invasive prenatal tests - NİPT) vasitəsilə müayinə aparıldı. Xromosom mikrodelesiyası, aneuploidiya və duplikasiyası aşkar olunmadı. Müayinələrin nəticələri nəzərə alınaraq döldə izolə variantda "split hand/foot malformation" diaqnozu qoyuldu. Hamilə qadın doğuşaqədərki periodda həkim nəzarətində saxlanıldı. 40 həftə 2 gündə normal doğuşla 4100 q çəkidə, 56 sm boyda oğlan uşağı dünyaya gəldi.

Müzakirə. SHFM ektrodaktiliya olaraq da adlanır. EEC sindromu (ektrodaktiliya, ektodermal displaziya, dodaq və damağın yarığı) TP63, DLX5, DLX6, FGF8, FGFR1, WNT10B, BHLHA9 genlərinin mutasiyaları ilə bağlı ola bilər. Bu mutasiyaların səbəb olduğu SHFM tipləri klinik olaraq fərqlənmir. SHFM müalicəsində postnatal dövrdə əl cərrahiyyəsinin ümumi prinsipləri tətbiq olunur. Məqsəd əlin tutma funksiyalarını bərpa etməkdir. Bundan başqa, ətraf estetik baxımdan da dəyərləndirilməlidir. Cərrahi müdaxilədə deformasiyaya uyğun yarığın bağlanması, sindaktiliyanın açılması, baş barmaq adduksiya kontrakturasının düzəldilməsi, delta falanqasının düzəldilməsi, transvers sümüklərin çıxarılması həyata keçirilir.

Yekun. Döldə aşkarlanan hər patologiya terminasiyaya göstəriş deyil. Mütləq şəkildə tibbi-genetik, neanotoloq, patologiyaya uyğun mütəxəssislərdən ibarət həkim konsiliumu ilə birlikdə multidisiplinar dəyərləndirmə aparılmalı, ananın və dünyaya gələcək körpənin sosiallaşmağını təmin etmək üçün psixoloji dəstək almalarını təşkil etmək lazımdır.

Açar sözlər. ektrodaktiliya, EEC sinndromu, split hand/foot malformation

Sağ əlin rentgenoloji müayinəsi

Ş22

PKD1 GEN VARYANTLARININ PC1 PROTEİNİN YAPISI VE FONKSİYONU ÜZERİNDEKİ ETKİLERİNİN DEĞERLENDİRİLMESİ

Afig BERDELI[1], Berkay KIRNAZ[1]

[1]Ege University, Izmir

berkaykirnaz@gmail.com

Giriş: Bir Renal Silyopati olan Otozomal Dominant Polikistik Böbrek hastalığı (ODPBH) dünyadaki en yaygın kalıtsal böbrek hastalığıdır. Dünyadaki Prelevansı 1:400/1000 şeklindedir. Sıklıkla yaşamın 60. Yılında son dönem böbrek hastalıklarına (ESRD) yol açmaktadır. Yapılan çalışmalarda Polikistin1 geninde (PKD1)meydana gelen DNA varyantlarının ODPBH hastalıkla ilişkili olduğu bilinmektedir.

Amaç: ODPBH hastalığı ve şüphesi ile gelmiş 232 kişiden alınan periferik kan örnekleri ile, yeni nesil dizileme tekniği ile popülasyonumuzda PKD1 DNA varyantları ortaya konulmuştur.

Gerek ve yöntem: Ayrıca missense DNA varyantlarının PC1 proteini üzerindeki yapısal ve fonksiyonel etkileri farklı in silico yaklaşımlar ile ortaya koyduk. **Bulgular:** Çalışma sonucunda 232 kişinin 105'inde PKD1'e ait DNA varyantları saptadık. Bu 105 kişide 17 tanesi daha önce saptanmamış 49 farklı DNA varyantına rastlanmıştır.

Sonuç: Missense mutasyonların PC1 proteini üzerindeki meydana getirdiğiyapısal ve fonksiyonel değişikleri araştırma sonucuna göre Bening olarak kabul edilen mutasyonların aslında bu yaklaşım ile önemli olabileceği ve dikkate alınması gerektiğini belirttik. PC1 proteinin mekanosensör özelliği ile çevresel uyarıları hücre içersine iletmektedir. Özellikle yapısal düzenleme ve sinyal iletiminden sorumlu olan REJ, GCPR, PKD bölgelerinde meydana gelen ve konformasyonel değişiklikler oluşturan varyantların önemli olabileceğini ortaya çıkartık.

Açar sözlər ODPBH, Yeni Nesil Dizileme, PKD1, in silico

Method flow work



Ş23

CDK17 REGULATES PLATINUM RESPONSE IN EPITHELIAL OVARIAN CANCER MODULATING EGFR ACTIVITY

Cavad KARIMBAYLI[1], Ilenia PELLARIN[2], Sara D' ANDREA[3], Monica SCHIAPPACASSI[4], Barbara BELLETTI[5], Gustavo BALDASSARRE[6]

[1]Division of Molecular Oncology, Centro di Riferimento Oncologico di Aviano (CRO) IRCCS, National Ca
[2]Division of Molecular Oncology, Centro di Riferimento Oncologico di Aviano (CRO) IRCCS, National Ca
[3]Division of Molecular Oncology, Centro di Riferimento Oncologico di Aviano (CRO) IRCCS, National Ca
[4]Division of Molecular Oncology, Centro di Riferimento Oncologico di Aviano (CRO) IRCCS, National Ca
[5]Division of Molecular Oncology, Centro di Riferimento Oncologico di Aviano (CRO) IRCCS, National Ca
[6]Division of Molecular Oncology, Centro di Riferimento Oncologico di Aviano (CRO) IRCCS, National Ca
javad.karimbayli01@universitadipavia.it

Introduction: Epithelial Ovarian Cancers (EOCs) is the most lethal gynaecological malignancy mostly for the onset of drug-resistant recurrences. Cyclin-Dependent Kinases (CDKs), play a key role in a plethora of cellular mechanisms, making them promising therapeutic targets in cancer. By an unbiased sh-RNA screening (targeting all 21 human CDKs) we recently showed that the silencing of CDK17 increased Platinum (PT)- induced cell death. CDK17 is a neglected kinase practically not been studied in cancer.

Aim: We thus aimed to clarify the role of CDK17 in EOC progression and response to therapies.

Material and methods: We confirmed CDK17 silencing sensitized EOC cells to PT in different PTSensitive and -Resistant models. We used unbiased proteomic approach to identify CDK17 interacting proteins and pathways possibly regulated by this kinase.

Results: Functional enrichment analyses identified endocytosis as the most enriched pathway and AP2A2 and EPS15, both belonging to endocytosis pathway, among the top scored proteins. Co-IP of endogenous proteins validated CDK17 interaction with AP2A2, EPS15 and EGFR, which was further enhanced by PT. Abrogation of CDK17 expression interferes with EGFR stability and internalization and is associated with reduced ligand- activation of EGFR signalling. In vitro kinase assay showed that a CDK17 active complex phosphorylated at different extents EGFR, EPS15 and a subunit of the AP2 complex. Overexpression of CDK17 maintained a persistent EGFR activation and promoted prosurvival signals. Finally, CDK17 silencing re-sensitizes PT- resistant cells to PT, EGFR inhibition (by Gefitinib treatment) and their combination.

Conclusion: Overall, we identified a new and unexpected role for CDK17 in the regulation of EGFR pathway that could influence PT-response and cell survival capabilities, suggesting that CDK17 could represent a novel actionable target in PT-resistant EOC settings.

Açar sözlər Epitehlial Ovarian Cancer (EOC), Cyclin Dependent Kinase 17 (CDK17), Platinum treatment (PT), Epidermial Growth Factor Receptor (EGFR), Adaptor Related Protein Complex 2 Subunit Alpha 2 (AP2A2), EPS15

Ş24

YOĞUN BAĞIRSAQ XƏRÇƏNGİNDƏ DAPK VƏ RAR-B2 GENLƏRİNİN PROMOTOR METİLLƏŞMƏSİNİN MÜQAYİSƏLİ TƏDQİQİ

Bayram BAYRAMOV[1], Nuru BAYRAMOV[2]

[1]Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Genetik Ehtiyatlar İnstitutu

[2]Azərbaycan Tibb Universitetinin I Cərrahi xəstəliklər kafedrası

nurubay2006@yahoo.com

Giriş: Genlərin promotor bölgələrinin metilləşməsi transkripsiya prosesini tənzimləyən mühüm epigenetikmexanizmlərdən biridir. Promotor metilləşməsi tumor supressor genlərin inaktişləşməsi, onkogenlərin aktivləşməsi və eləcə də xərçəngin yaranması, inkişafı, proqressivləşməsi, metastaz kimi proseslərdə iştirakedir.

Məqsəd: Tədqiqat işində xəstələrin toxuma biopsiyasından əldə edilən DNT-də və qan plazmasında ekstraksiyaedilmiş cfDNT-də və nəzarət qrupunda DAPK və RAR-β2 genlərinin promotor metilləşməsi müqayisəli tədqiq edilmişdir.

Material və Metodlar: Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Mərkəzinə müraciət edən və yoğun bağırsaq xərçəngi diaqnozu təstiqlənmiş 36 xəstə və 38 praktik sağlam insan tədqiqata daxil edilmişdir. Qan plazmasından və xərçəng toxumasından DNT ekstraksiyası olunduqdan sonra promotor metilləşməsi MS-PZR üsulu ilə 2%-li aqaroz gelində təyin edilmişdir.

Nəticə: DAPK geni üzrə metilləşmə nəzarət qrupunda 7,9%, xərçəng toxumasında 91,7% metilləşmə müşahidə olunduğu halda 3 nümunədə (8,3%) metilləşmə rast gəlinmədi. cfDNT nümunələrində 80,6% metilləşmə olduğu halda metillənməmiş nahiyələr isə 19,4% təşkil etmişdir. Xəstə və nəzarət qruplarının metilləşmə statusu müqayisəetdikdə DAPK geni üzrə statistik əhəmiyyətli fərq üzə çıxmışdır (P<0,05). RAR-????2 geni üzrə isə nəzarət qrupunda metilləşmə 13,1%, xərçəng toxumasında 31 (86,1%), cfDNT-də isə bu rəqəm 75% aşkar edilmişdir. Hər iki gen üzrə metilləşmə faizi şişin G2 dərəcəsində daha yüksək rast gəlinməsinə baxmayaraq statistik əhəmiyyətli fərq aşkar edilmədi (P>0,05). DAPK geni üzrə metilləşməs şişin T2 mərhələsində ən yüksək (85,8%) olduğu halda RAR-????2 geni üzrə şişin T4 mərhələsində 75% müşahidə edilmişdir. Buna baxmayaraq statistik əhəmiyyətli fərq müşahidə edilməmişdir (P>0,05).

Yekun: Beləliklə, genlərinin promotor metilləşməsinin qan plazmasında qeyri-invaziv üsulla təyini yüksək spesifiklik və həssaslıqla xərçəngin genetik profili haqqında məlumatların əldə olunmasına imkan yaradır.

Açar sözlər Gen, Metilləşmə, Xərçəng, MS-PZR, cfDNT

Ş25

XRCC1 AND ERCC1 GENES DNA SEQUENCE IN GASTRIC CANCER

Elmir ASGEROV[1], Mehman GULIYEV[1], Ilaha SHAHVERDIYEVA[1]

[1]Department of Biochemistry, Azerbaijan Medical University, Baku, Azerbaijan

ilahashahverdiyeva@gmail.com

Introduction: Gastric cancer remains a significant health concern globally due to its high mortality rate and poor prognosis.The development of gastric cancer involves genetic and epigenetic alterations, as well as dietary and non- dietary factors. Early detection and diagnosis are crucial for improving patient outcomes.

Aim: The present studyaimed to determine nucleotide changes, polymorphisms, and mutations, and establish genotype-phenotype associations by performing whole DNA sequence analysis of the XRCC1 and ERCC1 DNA repair genes.

Material and methods: The study enrolled 35 patients with gastric cancer and 20 healthy individuals with similar demographic traitsas the control group. DNA sequence analysis was conducted for the ERCC1 and XRCC1 genes in both groups. The nucleotide sequence of the 10 exons encoding the protein structure of the 323 amino acids of theERCC1 gene was analyzed by DNA sequencing for each individual in the patient and control group.

Result: As a result of these analyses, no nucleotide substitutions were found in the ERCC1 gene construct.

Conclusion: The results showed no nucleotide replacement in any exon of the ERCC1 genes in either patients or healthy individuals. The DNA sequence of the XRCC1 gene, which contains 17 exons encoding a protein structure of 633 amino acids, was examined through DNA sequencing. There was no significant difference between patients and healthy groups in terms of the genotype contribution of mutations Arg194Trp, Arg208His, Arg399Gln detected in the XRCC1 gene and allele frequency. Therefore, the study concluded that in the Azerbaijani population, the ERCC1 gene does not undergo mutation in patients with gastric cancer or healthy individuals. The XRCC1 gene exhibited three mutations, but these mutations were not correlated with gastriccancer.

Açar sözlər gastric cancer, DNA sequence, ERCC1, XRCC1

Ş26

MƏDƏ KİÇİLTMƏ ƏMƏLİYYATI NÜMUNƏLƏRİNİN HİSTOPATOLOJİ PROFİLİ

Xəyalə BAXŞALİYEVA[1], Elmira CUMAZADƏ[2], Leyla ƏLİYEVA[2], Nərgiz TAHİRLİ[2], Kamil ABBASOV[3], Firuzə BAXŞİYEVA[4], Ələsgər ŞAHMƏMMƏDOV[1], Elnur TALIBOV[1], Mövsüm ƏDİLOV[4], Elşad RZAYEV[5]

[1]Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi,Patoloji anatomiya birliyi, Bakı

[2]Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu,Pataloji Anatomiya kafedrası, Bakı

[3]Maria Hilfs Hospital, Bad Neuenahr

[4]Azərbaycan Tibb Univerisiteti, Patoloji anatomiya kafedrası,Bakı

[5]Olimp hospital, Bakı

xeyalebaxshaliyeva88@gmail.com

Giriş: Mədə kiçiltmə əməliyyatı, mədənin bir hissəsinin böyük əyrilik boyunca cərrahi üsül ilə anatomik ölçüsünün təxminən 15%-nə qədər kiçildilməsidir. Bu prosedur obezite xəstələrinin arıqlaması üçün həyata keçirilir. Artıq çəki bədən kütləsinin boya qeyri-mütənasib olması ilə müəyyən edilir və bədən kütlə indeksi 30və yuxarı olanlar obez hesab olunur. Ümumiyyətlə, artıq çəkidən əziyyət çəkən xəstələrin əməliyyatdan sonraki nümunələrində histopatoloji dəyişikliklər haqqında dərc edilmiş məlumatlar bir qədər azdır.

Məqsəd: Buaraşdırmanın məqsədi ədəbiyyata rezeksiya edilmiş mədə nümunələrinin mikroskopik xüsusiyyətləri haqqında bəzi məlumatları əlavə etməkdir.

Material və Metodlar: Məlumatlarımızı toplamaq üçün vahid bir mərkəzdən laparoskopik Sleeve gastrektomiya əməliyyatı keçirən bütün xəstələrin retrospektiv məlumat bazasından istifadə etdik. Xəstələrin yaşı, cinsi və ilkin bədən kütləsi indeksi kimi xüsusiyyətlərini topladıq.Və bu xəstələrin rezeksiya materiallarının mikroskopik müayinəsi zamanı nümunədə olan histopatoloji dəyişiklikləri araşdırdıq.

Nəticə: Araşdırma haqqında rəy bildirmək üçün biz 4 illik period ərzində 341 laparoskopik Sleeve gastrektomiya əməliyyatı keçirən xəstələrin nəticəsini analiz etdik. Nəticəyə əsasən əməliyyat olunmuş şəxslərin 91.5%-i qadın, 8.5%-i kişi olduğu müəyyən olundu. Və bu şəxslərin orta yaşı 31 olaraq hesablandı. Rezeksiya olunmuş əməliyyat materiallarının mikroskopik müayinəsi göstərdiki 59% xəstənin nəticəsi normal mədə mukozasına uyğundur. Geriyə qalan 41% xəstədə əsas histopatoloji nəticə olaraq 121 xronik və kəskin olmaqla qastrit, 11 intestinal metaplaziya ,2 qastrointestinal stromal tumor və 3 gastrik polip müəyyən olundu.

Yekun: Bu araşdırmanın nəticəsi olaraq rezeksiya olunmuş əməliyyat nümunələrinin az bir qismində histopatoloji dəyişikliklər aşkar olundu. Və bu nəticələr gastrektomiya sonrasıhansı histopatoloji nəticələrlə qarşılaşa biləcəyimizi müəyyən etməyə kömək edə bilər.

Açar sözlər piylənmə, laparoskopik sleeve mədə əməliyyatı, histopatoloji profil

Ş27

SAĞ HEMİKOLEKTOMİYA NÜMUNƏLƏRİNDƏ APPENDİKSİN HISTOPATOLOJİ VƏZİYYƏTİ

Nərgiz TAHİRLİ[1], Elmira CUMAZADƏ[1], Xəyalə BAXŞALİYEVA[2], Elnur TALIBOV[2], Kamil ABBASOV[3], Leyla ƏLİYEVA[1],Firuzə BAXŞİYEVA[4], Mövsüm ƏDİLOV[4], Ələsgər ŞAHMƏMMƏDOV[2]

[1]Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, PatalojiAnatomiya kafedrası, Bakı

[2]Məhkəmə TibbiEkspertiza və Patoloji Anatomiya Birliyi, Patoloji Anatomiya Bürosu

[3]Maria Hilfs Hospital, Bad Neuenahr

[4]Azərbaycan Tibb Univerisiteti, Patolojianatomiya kafedrası, Bakı

ntahirli492@gmail.com

Giriş. Sağ hemikolektomiya qalxan bağırsağın, eninə bağırsağın ilk üçdə birinin, kor bağırsağın və terminalileumun bir hissəsinin piy və limfa düyünləriilə birgə çıxarılmasını əhatə edən prosedurdur. Bu üsul bağırsağın bədxassəli törəmələrinin standart cərrahi müalicəsidir. Beləki, bizim bu araşdırmanı aparmaqdaməqsədimiz ədəbiyyata rezeksiya edilmiş bağırsaq nümunələrində appendiksin histopatoloji xüsusiyyətləri haqqında bəziməlumatları əlavə etməkdir. Material və metodlar Məlumatlarımızı toplamaq üçün birmərkəzdə olan, sağ hemikolektomiya əməliyyatı keçirən bütün xəstələrin retrospektiv məlumat bazasındanistifadə etdik. Xəstələrin yaşı, cinsivə əməliyyat nümunələrindəkiappendiksin vəziyyəti haqqında məlumatları topladıq. Sağ hemikolektomiya rezeksiya materiallarının mikroskopik müayinəsizamanıappendiksdə submukozal lipomatozis, fibroz obliterasiya, appendiksdə iltihab ilə əlaqədar dəyişikliklərivəappendiksə metastaz olub olmamasını araşdırdıq. Nəticə Araşdırma haqqında rəy bildirmək üçün biz 2019-cuildən 2023-cü ilə qədər sağ hemikolektomiya əməliyyatı keçirən 67 xəstənin nəticəsinianaliz etdik. Nəticəyəəsasən əməliyyat olunmuş şəxslərin 56.7%-iqadın, 43.3%-ikişiolduğu müəyyən olundu. Və bu şəxslərinorta yaşı 56 olaraq hesablandı. Beləki, rezeksiya olunmuş əməliyyat materiallarında appendiksinmikroskopik müayinəsizamanı 12% xəstədə submukozal lipomatozis, 3% xəstədə eozinofilik iltihab, 22%xəstədə xronik iltihab, 6% xəstədə appendiksin fibroz obliterasiyası, 1.5% xəstədə appediksin proksimalhissəsində selikaltı biricilitümör infiltrasiyası göründüyü müəyyən olundu. Yekun Bu araşdırmanın nəticəsiolaraq rezeksiya olunmuş əməliyyat nümunələrində appendiksə metastaz olmadığını və appendiksdə bəzihistopatolojidəyişikliklərioldüğunu aşkarladıq. Və bu nəticələr hemikolektomiya sonrası appendiksdə hansıhistopatolojinəticələrlə qarşılaşa biləcəyimizimüəyyən etməyə kömək edə bilər.

Açar sözlər sağ hemikolektomiya, appendiks, yoğun bağırsaq xərçəngi

AZLTK&LAB EXPO2023

"1ST INTERNATIONAL AZERBAIJAN LABORATORY MEDICINE CONGRESS & LAB EXPO"

3-5 MAY, BAKU-AZERBAIJAN

POSTER PRESENTATIONS

P1

HESTASİON DİABET VƏ HAMİLƏLƏRDƏ YAŞ FAKTORU ARASINDA ƏLAQƏ

Xəyalə MUSAYEVA[1], Əfsanə MƏMMƏDOVA[2]

[1]Baku Medical Plaza , Bakı , Azərbaycan

[2]Milli Hematologiya və Transfuziologiya Mərkəzi , Bakı, Azərbaycan

xeyale.msy97@gmail.com

Giriş: Hestasion diabeti (HD) və ya hamiləlik diabeti, hamiləlikdən öncə bilinən diabeti olmayan hamilələrdə ikinci və ya üçüncü trimestrdə meydana çıxan, dəyişkən hiperqlisemiya ilə izlənən karbohidrat intoleransıdır. HD olan hamilə qadınlarda doğuş travması, artmış keysəriyyə dərəcəsi, preeklampsiya, makrosomiya, gələcəkdə tip 2 diabet inkişafı, ölü doğuş və ana ölümü risklərinin artması məlumdur. HD üçün risk faktorları arasına irəli ana yaşı, ailə anamnezi , oturaq həyat tərzi və yüksək bədən kütlə indeksi (BKİ) var. Bu çalışmamıza süni mayalanma aparılmış yaşı çox olan hamilə qadınlar daxil edilmiş və hestasion diabetlə yaş faktoru arasındakı əlaqə ölçülmüşdür.

Material və Metodlar: Bu retrospektiv araşdırma olub, 01.09.2022-15.03.2023 tarixləri arasında Baku Medical Plaza klinikasının ginekologiyaşöbəsinə müraciət etmiş 193 hamilə qadının OGTT testini əhatə etmişdir. Qlükoza səviyyələri AU 480 (Beckman Coulter, ABŞ) biokimya cihazı vasitəsi il aparılmışdır.

Nəticə: Çalışmamıza daxil edilən 193 qadının hamiləliyin 24-28-ci həftəsində OGTT testinə baxılmış, 29 hamilədə (15%) 75 g şəkər yükləmədən sonra HD təsdiq edilmiş, 164 nəfərdə (85%) isə normal dəyərlər əldə edilərək, hamiləlik diabeti inkar edilmişdir. 193 hamilə qadının 38-nin < 25, 115-nin 25-35, 40-nın >35 yaş aralığına aid olduğu müəyyən edilmişdir. OGTT testinin yüksək olduğu 29 hamilədən 3-ü (7.9%) < 25, 14-ü (12.2%) 25-35, 12-i (30%) >35 yaş qrupuna aid olduğu aşkar edilmişdir.

Yekun: HD klinik olaraq aşkarlanması çox vacibdir. Hamilə qadınlar üçün mühüm əhəmiyyət kəsb edən təhlükədir. Uyğun pəhriz tətbiqi, həyat tərzinin dəyişdirilməsi, lazım olduqda insulin terapiyası ilə prenatal xəstəlik və ölüm halları azaldıla bilər. Araşdırmamız nəticəsində HD aşkarlanması artan hamiləlik yaşı ilə əlaqəli olduğu müəyyən edilmişdir. Hamilələrin məlumatlandırılması HD idarə edilməsinin əsas prinsipi olduğu bildirilir.

Açar sözlər Hestasion diabet, hamiləlik, OGTT, yaş

P2

D VİTAMİNİ DEFİSİTİ VƏ ONUN SÜD VƏZİ XƏRÇƏNGİNDƏ ROLU

Günay QULUZADƏ[1], Aygün RÜSTƏMOVA[1], Gülnarə CƏFƏROVA[1], Ülkər MƏMMƏDOVA[1]

[1]Azərbaycan Tibb Universitetinin Onkoloji klinikası, Laboratoriya işi, Bakı

g.quluzade98@mail.ru

Giriş: D vitamininin süd vəzi xərçənginin inkişafında rol oynayıb oynamamasına dair araş-dırmalar aparılmaqdadır. Vitamin D Kalsium və fosfor homeostazında rol oynamaqla yanaşı ekstraskeletal fəaliyyət də göstərir. Çatışmazlığı I və II tip şəkərli diabet, ürək-damar xəstəlikləri, nevroloji xəstəliklər, depressiya, kolon, prostat, yumurtalıq xərçəngi və qadınlarda ikinci aparıcı ölüm səbəbi olan süd vəzi xərçənginin inkişaf riskini artırdığı bildirilir. Vitamin D-in, həmçinin süd vəzi xərçənginin inkişafına təsir göstərən hüceyrə proliferasiyası və differensasiyasında iştirak edən genləri tənzimlədiyi, iltihabəleyhi xüsusiyyətlərə malik olması, in vitro və in vivo süd vəzi xərçəngi hüceyrələrinin böyüməsinə maneə törətdiyi qeyd edilir.

Məqsəd: Tədqiqatın məqsədi D vitamininin səviyyəsi ilə süd vəzi xərçəngi riski arasında əlaqəni araşdırmaqdır.

Material və metodlar: Tədqiqat işi son altı ay ərzində Azərbaycan Tibb Universitetinin Onkoloji klinikasında aparılmışdır. Süd vəzi xərçəngi diaqnozu qoyulmuş 30 xəstənin qan serumunda D vitamini ELİSA metodu ilə təyin edilmişdir. Kontrol qrupa 15 nəfər praktiki sağlam şəxs daxil edilmişdir. **Nəticə:** Süd vəzi xərçəngi diaqnozu qoyulmuş 24 (80%) xəstədə D vitamininin səviyyəsi aşağı, 6 (20%) xəstədə isə normal olmuşdur. Belə ki, xəstələrdə D vitamininin konsentrasiyası (19.9 ng/ml) kontrol qrupa (39,5 ng/ml) nisbətən 98,5% azalmışdır. 9 xəstədə D vitamininin səviyyəsi müalicədən sonra dinamikada izlənilmişdir. Müalicədən 1 ay sonra D vitamininin konsentrasiyası 15,4% , 2 ay sonra isə müalicədən əvvəlki nəticəyə nisbətən 95% artmışdır.

Yekun: Vitamin D çatışmazlığısüd vəzi xərçənginin yaranmasında risk amillərindən biri olduğu düşünülməkdədir və bizim çalışma da bu istiqamətdədir. Vitaminin çatışmazlığının korreksiyası bu xəstəliyin qarşısının alınmasında böyük rol oynaya bilər.Bunun üçün daha geniş miqyaslı çalışmalar aparıla bilər.

Açar sözlər D vitamini, defisit, onkologiya, süd vəzi xərçəngi

P3

ŞƏKƏRLİ DİABETİN LİPİD SPEKTRİNƏ TƏSİRİ

Səkinə AĞAYEVA[1], Leyla MƏMMƏDOVA[1], Elnarə ƏFƏNDİYEVA[1]

[1]İnci Laboratoriyaları, Klinik Biokimya laboratoriyası

drsekine94@gmail.com

Giriş: Şəkərli diabet insulin ifrazının, təsirinin və ya hər ikisinin pozulması nəticəsində meydana çıxan hiperqlisemiya (qan şəkərinin yüksəlməsi) ilə xroniki gedişli metabolik xəstəlikdir. Dislipidemiya dünyada ölüm hallarının bir nömrəli səbəbi olan tac damarların aterosklerozunun inkişafında mühüm rol oynayır.

Məqsəd: Bu tədqiqatın məqsədi şəkərli diabetin xolesterin mübadiləsinə təsirinin statistik olaraq öyrənilməsidir.

Material və metodlar: Tədqiqat "İnci Laboratoriyaları"-nın Mərkəzi filialında 150 nəfər şəkərli diabetli xəstələr üzərində aparılmışdır. Bunlardan 66 (44%) nəfəri qadın, 84 (56%) nəfəri isə kişi olmuşdur. Xəstələrin serum materiallarında eyni zamanda HbA1C, Qlükoza, HDL, LDL,Triqliserid dəyərləri Roche Cobas C 311 və Roche Cobas C 411 cihazlarında fotometrik üsullarla ölçülmüşdür.

Nəticə: Müayinəyə cəlb olunan xəstələrin HbA1C dəyərləri 6-15% arasında olmuşdur.

Bunlardan 118 nəfərində (79.3 %) LDL səviyyələri yüksək 32 nəfərində (20.7%) normal dəyərlərdə olmuşdur. 129 nəfərində (86.3%) HDL səviyyələri aşağı, 21 nəfərində (13.7%) isə normal miqdarda olmuşdur. Əlavə olaraq, Triqliserid səviyyələri də 107 nəfərində (71.7%) yüksək, 43 nəfərində (28.3 %) normal səviyyələrdə olmuşdur.

Yekun: Nəticədən də göründüyü kimi, 150 nəfər xəstə arasında HbA1C və lipid dəyərlərində əhəmiyyətli dərəcədə yüksəlmə baş vermişdir. Şəkərli diabetin lipid spektrinə təsiri bir çox tədqiqatlarda da araşdırılmış və müsbət korrelyativ əlaqədə olduğu sübut olunmuşdur. Həmçinin, bizim araşdırmamızda da şəkərli diabetin lipid spektrinə təsiri bir daha müşahidə olunmuş və müalicə həkimlərinin diabetli xəstələrin müalicəsi zamanı lipid spektrini kontrol altında saxlamalı olduğu bir daha vurğulanmışdır.

Açar sözlər Şəkərli diabet, LDL, HDL, Triqliserid

P4

ISO 15189 STANDARDI GEREKLİLİĞİ NEDENİ İLE BİR ÜNİVERSİTE HASTANESİ BİYOKİMYA LABORATUVARINDA ALTI SİGMA METODOJİSİ KULLANILARAK KLİNİK BİYOKİMYA TESTLERİNİN GEÇERLİLİĞİNİN KONTROLÜ

İskender KARALTI[1]

[1]Azərbaycan Tibb Universiteti Tədris Terapevtik Klinika, Merkezi Laboratoriya

iskender.karalti@gmail.com

Giriş: Bir süreçteki değişkenlerin izlenerek kontrol edilebilmesi ile hata ve yanlışların önüne geçilebileceği için, süreç değişkenlerinin kontrolünü sağlayan Altı Sigma metodolojisi klinik laboratuvarda da kalite gösterge analizlerinde sıklıkla kullanılmaya başlanmıştır. Klinik laboratuvarın dışınca birçok sanayi alanlarında da bumetot kaliteyi arttırmada bir araç olarak sıklıkla kullanılmaktadır. Klinik laboratuvarlarda, yöntem geçerlilik çalışmalarında yapılan istatistiksel analizlere göre yöntem geçerliliğine karar verilip, kalite planlama araçlarıyla analitik sürecin performansı hakkında bilgi sağlanabilmesine karşılık, Altı Sigma metodolojisindetek bir rakamla gösterilen "süreç sigma düzeyi" ile süreç performansı değerlendirilebilmektedir.

Amaç: Bu sayede her test için varsa hatanın tespit edilmesi amaçlanmıştır. Bu çalışmada 19 klinik biyokimya testine ait 2022 yılının son 6 ayındaki veriler baz alınmıştır.

Gerek ve yöntem: Her bir analit için toplamda 150 farklı günde (her ir seviye için 150 adet) elde edilen iç kalite kontrol düzeyleri baz alınarak % Bias, % CV (varyasyon katsayısı) ve TAH (Toplam analitik hata) değerleri hesaplanmış ve hem CLIA tarafında yayınlanan TEa (Toplam izin verilebilirhata) oranları hem de Türkiye için izin verilen TEa ve % CV değerleri baz alınarak değerlendirme yapılmıştır. 6 sigma metodolojisine göre > 4 olan değerler için ilgili test süreçleri başarılı olarak kabul edilmiştir. Bias pratik olarak herhangi bir testin dış kalite değerlendirme programında, kendi sonucunun hedef değerden farkının hedef değere bölünmesiyle elde edilir ve % olarak kullanılır.

Bulgular: Elde edilen veriler incelendiğinde 19 analiz değerleri olan % Bias, % CV ve TAH değerleri Kabul edilebilir (CLIA) değerleri ile karşılaştırılarak 6 sigma değerleri hesaplanmıştır. Tüm testler için sigem değeri > 6 olarak hesaplanmıştır. 4 ve üzerinde olan değerler başarılı sayıldığı için tüm testler için yapılan kalite süreçlerinin başarılı olduğu görülmüştür.

Sonuç: Çalışmamızda testi etkileyen en büyük faktörler olan İKK ve DKK sonuçları baz alınarak kalite süreç değerlendirme analizleri yapılmış ve 19 test için başarılı olduğu görülmüştür. Bu analizlerin ISO 15189standardı gereği yılda en az bir kez olacak şekilde yapılması gereklidir.

Açar sözlər Kalite kontrol, ISO15189, Klinik biyokimya, 6 sigma

P5

KALİTE STANDARTLARI GEREĞİ KLİNİK BİYOKİMYA LABORATUVARINDA YAPILAN PREANALİTİK EVRE KALİTE GÖSTERGELERİ ANALİZİ ÖRNEĞİ: NUMUNE RED ANALİZİ

İskender KARALTI[1]

[1]Azərbaycan Tibb Universiteti Tədris Terapevtik Klinika, Merkezi Laboratoriya

iskender.karalti@gmail.com

Giriş: ISO 15189 standardına göre preanalitik evrede bazı parametrelerin rutin analizi ile kalite süreçleri numune red analizi ile kontrol edilmektedir. Bir testin sonucunu en fazla etkileyen hatalar en çok preanalitik evrede (% 65) karşımıza çıkmaktadır. Bu nedenle numunenin cihaza girinceye kadar geçen sürede meydana gelebilecek hataların izlenebileceği en iyi analiz numune red analizi olmaktadır.

Amaç: Bu nedenle çalışmamızda 2022 yılı boyunca yapılan numune red analizleri incelenerek yapılmıştır.

Gerek ve yöntem: Çalışmamızda 2022 yılı boyunca yapılan numune red analizleri pareto analizi ve 6 sigma analizi ile incelenmiştir. Pareto analizinde en çok yapılan hata parametreleri (Yetersiz hacim, yanlış kayıt, numune gelmedi, pıhtılı, hemolizli, yanlış tüp, soğukzincir koşuluna uygun olmayan numune, lipemik numune) aylık olarak 12 periyodda analiz edilmiştir.

Bulgular: 6 sigma analiz sonuçları incelendiğinde 12 dönemin 10 unda elde değerlerin > 4 olduğu görülmüş ve başarılı olarak saptanmıştır. 2 dönemde ise gelmeyen numuneler için gereksiz kayıt yapıldığı görülmüş ve faaliyet planı olarak konunun araştırılması faaliyeti planlanmıştır. Yapılan faaliyet sonucunda kurumlardan gelen numuneler için numune gelmeden kayıtların açıldığı farkedilmiş ve bu durum engellenmiştir. Pareteo analizi çalışmalarına bakıldığında ise en çok gelmeyen numunelerin (5 periyod) sorun oluşturduğu gözlenmiştir. Bunu yanlış kayıt (3 periyod), pıhtılı numuneler (3 periyod) ve yeteriz hacim (1 periyod) izlemiştir.

Sonuç: Bu çalışmada en çok dikkat çeken nokta gelmeyen numunelerin 2022 yılı başında başladığı ve 6 sigma metodolojisine göre toplam örnek sayısı baz alınarak yapıldığından ancak sene sonunda fark edildiği oysapareto analizinde ise toplam hata baz alınarak analiz yapıldığından yılın ilk aylarında ortaya çıkmaya başladığı gözlenmiştir. Bu nedenle numune red analizi için en uygun yöntemin pareto analizi olduğu görülmüştür. Ancak 6 sigma ve pareto analizinin birlikte yapılması da önerilebilir.

Açar sözlər Kalite kontrol, Numune Red, 6 sigma, Pareto

P6

VİTAMİN D SƏVİYƏSİ İLƏ KALSİUM VƏ FOSFOR SƏVİYƏLƏRİ ƏLAQƏSİ

Gunay BAYRAMOVA[1]

[1]HB GÜVƏN KLİNİKASI

drgunayb84@mail.ru

Giriş: D vitamini (kalsiferol) sterol quruluşda yağda həll olan bir vitamindir. Kalsium və fosfor mübadiləsinə təsiriylə böyümə, inkişaf və sümük mineralizasiyasında mühüm rol oynayır. Əzələ zəifliyinə qarşı bədəni qoruyur, immun sistemi qüvvətləndirir, həzm sistemində kalsium sorulmasını artırır və sümüklərdə kalsium toplanmasına kömək edir. Bununla yanaşı son illər D vitamini çatışmazlığı xərçəng, ürək-damar xəstəliyi,metabolik sindrom və bəzi xroniki xəstəliklərlədə əlaqələndirilir. Bədəndə qida vasitəsiylə Provitamin-D şəklində alınır. Günəş şüalarının təsiriylə dəridə D vitamininə çevrilir. D2(erqosterol) və D3 (xolekalsiferol)olaraq təsnif edilir. D2 və D3 vitaminləri əvvəlcə qaraciyərdə 25(OH)D3-ə çevrilir, ardından da böyrəklərə nəql olunur və vitaminin aktiv forması olan 1.25- (OH) D3-ə çevrilir. Bədənimizdə D vitaminin düzgün miqdarını göstərən ən yaxşı parametr serum 25(OH) Dvitamini analizidir.

Məqsəd: Tədqiqatın məqsədi Vitamin D səviyəsi ilə kalsium və fosfor səviyələri əlaqəni öyrənməkdir.

Material və Metodlar: Çalışmamızda HB Güvən Klinikasına müraciət edən vitamin D, kalsium və fosfor səviyyəsi ölçülən 100 xəstə nəticələri retrospektiv olaraq dəyərləndirildi. Xəstələrdə vitamin-D Cobas411 analizatoru (Roche Diagnostics, Almanya) ECLIA (Electrochemiluminescen) metodu ilə, Kalsium və fosfor isə Cobas İnteqra 400 analizatoru (Roche Diagnostics, Almanya) ilə çalışılıb.

Nəticə: Çalışmaya daxil olan 100 xəstədən 49-u (49%) <20ng/ml (D vitamini əksikliyi), 22-si (22%) 20-30ng/ml (D vitamini çatışmazlığı), 29-u (29%)> 30ng/ml normal) olaraq 3 qrupa ayrıldı. Xəstələrin hər üç qrupunda da kalsium və fosfor səviyyələri normal aralıqda olduğu görüldü.

Yekun: Çalışmaya daxil edilən xəstələrə görə vitamin D əksikliyi və çatışmazlığı olanlarda vitamin D səviyyəsi ilə kalsium və fosfor səviyyələri arasında əlaqə tapılmamışdı. Bu əlaqənin açıqlana bilməsi üçündaha geniş xəstə qrupları və başqa parametrlərlə birlikdə aparılan çalışmalara ehtiyac vardır.

Açar sözlər: Vitamin-D əksikliyi, kalsium, fosfor

P7

0-10 YAŞ UŞAQLARDA FERRİTİN DƏMİR ƏLAQƏSİ

Elman AYTAYEV[1]

[1]HB Güvən Klinikası

aytayevelman@mail.com

Giriş: Ferritin orqanizmdə mühüm funksiyaları olan dəmir mineralının saxlanmasına və sərbəst buraxılmasına nəzarət edən bir protein kompleksidir. Dəmir saxlanılabilən olduğundan, onun çatışmazlığı və ya artıq olması orqanizmdə dəmirin miqdarını göstərir. Tam qan sayımı olaraq da bilinən qan testinə əlavə olaraq yoxlanılan ilk dəyərlərdən biridir. Çünki, qandakı dəmir miqdarı oksigenin hüceyrələrə daşınmasında və hüceyrələrdəki karbon qazının ağciyərlərə daşınmasında mühüm yer tutur. Dəmir hüceyrələrin canlılığını qorumaq və hüceyrə funksiyalarını yerinə yetirmək üçün lazımdır. Ferritin çatışmazlığı zəiflikdən başlayaraq anemiyaya səbəb olan əhəmiyyətli sağlamlıq problemlərinə səbəb ola bilər. Dəmir bütün canlılarda olan minerallardan biridir. Qandakı hemoqlobin üçün çox vacibdir. Hemoqlobin oksigeni ağciyərlərdən bədənə daşıyan qırmızı qan hüceyrələrinin bir hissəsidir. Dəmir hemoqlobinə bağlanır və oksigenin daşınmasına kömək edir. Orqanizimdə kifayət qədər dəmirin olmaması hemoqlobin sintezinin azalmasına və qırmızı qan hüceyrələrinin daha az meydana gəlməsinə səbəb olur. Orqanizimdəki dəmirin təxminən 25% -i ferritin zülalına bağlanır və dəmir-zülal kompleksi olaraq hemosiderin kimi saxlanılır. Ferritin qaraciyərdə, dalaqda və sümük iliyində olur. Qandakı ferritin səviyyəsinin tədqiqi dəmir ehtiyatları haqqında məlumat verir.

Məqsəd: Tədqiqatın məqsədi 0-10 yaş arasındakı uşaqların ferritin dəmir arasındakı əlaqəni təyin etməkdir.

Material və Metodlar: Dəmirin miqdarı Turbidimetrik üsulla(iyon selektiv modul) (Roche, Cobas İnteqra 400+ Almaniya) serum materialında ölçülmüşdür.

Nəticə: İşlənilməyə alınmış 100 xəstədən 1 gün -3 ay arası 30-u (30%) < 72 ug/dl dəmir defisiti , 3 ay -365 gün 22-si (22%) < 60 ug/dl , 365 gün-3 yaş arası 18-i (18%) 55 ug/dl normal, 3-10 yaşa qədər 30 ug/dl 15-128 ug/dl normal miqdarda dəmir miqdarı testi edilmişdir.

Yekun: "HB Güven" klinikasına daxil olan 0-10 yaş arasında ki, 100 xəstənin ferritin və dəmir analizi işlənilmiş və ferritin və hemoqlobin normal olduğu halda dəmir analizi bəzi xəstələrdə aşağı nəticə göstərdiyi müəyyən edilmişdir.

Açar sözlər: Ferritin, hemoqlobin,

P8

HAMİLƏLƏRDƏ SİDİKDƏ ZÜLALIN TƏYİNİNİN DİAQNOSTİK ƏHƏMİYƏTİ

Nurlanə DADAŞOVA[1]

[1]Azerimed Laboratoriyaları, 2saylı Bakıxanov Doğum Evi.

dr.dadashova@gmail.com

Giriş: Hamiləlik dövründə, həmçinin digər sağlam insanlarda sidikdə zülalın müəyyən miqdarda təyin olunması fizioloji hal hesab olunur. Bunun səbəbi hamiləliyin 1-ci trimestrində hiperprogesteronemiya, 2-ci trimestrində isə böyüyən uşaqlığın böyrəklərə mexaniki təsiridir. Lakin bəzi hamilələrdə patoloji proteinuriya müşahidə olunur. Vaxtında aşkar olunmadıqda hamiləlik üçun ən böyük təhlükə sayılan preeklamsiyaya-anada qaraciyər-böyrək çatışmazlığına, döldə böyrək-qaraciyər zədələnməsi,az çəkili doğulma, ağır hallarda beyin qansızmalarına səbəb olur.

Məqsəd: Laboratoriyamıza müraciət edən hamilələrin hansı nisbətdə patoloji proteinuriya və preeklamsiyaya olması riskini araşdırmaq.

Material və metodlar: 2022- 2023-cu illərdə klinikaya müraciət edən hamilələrdən 100 hamilə üzərində retrospektiv araşdırma apardıq. Sidikdə zülal striplə yanaşı,biokimyəvi İntegra 400 plus cihazında TPU3 reaktivi ilə kəmiyətcə ölçüldü.

Nəticə: Müayinə aparılan 100 hamilədən 32%(n-32)-də sidikdə zülal dəyəri 30mg/dL-dən aşağı, 47%(n-47) hamilədə 33-60 mg/dL arası, 7% (n-7) hamilədə 100-200 mg/dL, 6%(n-6) hamilədə 200-300 mg/dL, 8 %(n-8) hamilədə 500 mg/dL üzərində olmuşdur.

Yekun: Nəticələrə uyğun olaraq vaxtında görülənyardım nəticəsində heç bir anada və döldə problem yaranmamış, vaxtında lazımı müalicə və ehtiyac olduğu hallarda təcili keysəriyyə əməliyatı ilə ana və dölün həyatı qurtarılmışdır. Ona görə də hamiləliyin 3-cü ayından etibarən hamilələrin hər ay sidik müayinəsi və sidikdə zülalın kəmiyətcə təyini mütləqdir.

Açar sözlər hamiləlikdə sidikdə zülal, preeklamsiya, proteinuriya

P9

HİPOTİROİDİ OLAN XƏSTƏLƏRDƏ D VİTAMİNİNİN ROLU

Kəmalə ƏLİYEVA[1], Ülkər ABDIYEVA[1], Bayram TAĞIYEV[1], Fəridə HACIYEVA[2]

[1]Azərbaycan Tibb Universiteti, Tədris Terapevtik Klinika, Mərkəzi Laboratoriya, Bakı, Azərbaycan

[2]Azərbaycan Tibb Universiteti, Tədris Terapevtik Klinika, Bakı, Azərbaycan

aliyeva.kemale0804@gmail.com

Giriş: Autoimmunitet immun sistemin hüceyrələrinin bədənin öz hüceyrələrini tanımasına əsaslanır. Son illərimmun sistem hüceyrələrinə genetik və ətraf mühit faktorları ilə bağlı tolerantlığın azalması səbəbindən xroniki autoimmun xəstəliklərin yayılmasının artması müşahidə olunur. Digər tərəfdən D vitamini sterol tərkibli bir vitamindir. Əsas rolu sümük metabolizmasını və kalsium fosfor homeostazını tənzimləməkdir. D vitamininin autoimmun xəstəliklər, metabolik sindromlar, ürək –damar xəstəlikləri, xərçənglər və digər xəstəliklərdə rolu öyrənilmişdir. D vitamini bədəndəki vitamin D reseptorlarına bağlanaraq öz funksiyalarını göstərir. D vitamini reseptorlarının (VDR) dayaq-hərəkət sistemindən başqa, böyrək, qaraciyər, qalxanabənzər vəzi hüceyrələrində, sinir sistemi və immun sisteminin hüceyrələrində də olduğu müəyyən edilmişdir. Buna görə də onun çatışmazlığı orqanizmdə müxtəlif toxuma və orqanların fəaliyyətinə təsir göstərir. Xüsusilə immun sistem hüceyrələrində və endokrin orqan hüceyrələrində D vitamin reseptorlarının olması autoimmun endokrin xəstəliklərində D vitamini çatışmazlığının rolunu gücləndirir.

Məqsəd: Bu araşdırmanın məqsədi müəyyən endokrin pozğunluqların, tiroid pozğunluqlarının patofiziologiyasında D vitamininin rolunu təyin etməkdən ibarətdir.

Üsullar: Azərbaycan Tədris Terapevtik klinikasında laboratoriyaməlumatlarının təhlilinə əsaslanaraq 01.01.2020-ci il tarixindən 01.01.2022-ci il tarixinədək vitamin D və TSH analizləri vermiş xəstə məlumatları üzərində araşdırma aparılmışdır. Bu nümunələr cobas e411 analyzercihazında (Roche diagnostics, Almaniya) ECLIA (elektro-hemilüminessensiya) üsulu ilə işlənilmişdir Nəticə:Aparılan araşdırmalara əsasən 781 pasientdən 48-də (6.14%) TSH yüksək nəticə vermişdir. 48 pasientin 37-i (77.08%) qadın, 11-i (22.92%) kişidir. Analizlərin nəticələrinə əsasən 48 pasientin 28-də (58.3%) çatışmazlıq (<20 ng/ml ciddi çatışmazlıq, 20-30 ng/ml çatışmazlıq) aşkar edilmişdir, 20-də (41.7%) isə D vitamini optimal (30-100 ng/ml)səviyyədədir. Çatışmazlıq aşkar edilmiş pasientərdən 15-də (53.57%) ciddi çatışmazlıq, 13-də (46.43) isə çatışmazlıq səviyyəsində olmuşdur.

Yekun: Nəticələrimiz göstərdi ki, hipotiroidi olan xəstələr D hipovitaminozu arasında əhəmiyyyətli əlaqə mövcuddur. Məhz buna görə dəhipotiroidi olan xəstələrdə D vitamini çatışmazlığı üçün skrininq tövsiyə edilir.

Açar sözlər Açar sözlər: Hipotiroidizm, D vitamini, TSH

P10

GÖYÇAY RAYON MƏRKƏZİ XƏSTƏXANASINA MÜRACİƏT EDƏN XƏSTƏLƏRİN VİTAMİN D NƏTİCƏLƏRİNİN RETROSPEKTİV OLARAQ DƏYƏRLƏNDİRİLMƏSİ

Anar NURMƏMMƏDOV[1], İlqar MƏMMƏDOV[1], Nigar EYVAZOVA[1], Yaşar ƏHMƏDOV[1], Yaqut QARAYEVA[2], İskender KARALTI[3]

[1]Göyçay Rayon Mərkəzi Xəstəxanası

[2]Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB), Strateji inkişaf departamenti

[3]Azərbaycan Tibb Universiteti, Tədris Terapevtik Klinika

iskender.karalti@gmail.com

Giriş: D vitamini çatışmazlığı xərçəng xəstəliyi başda olmaqla bir çox xəstəliklərlə əlaqəli olduğu bilinməkdədir və qlobal miqyasda problem olduğu üçün də son illərdə vitamin D çatışmazlığı üzərində işlər artmağa başlamışdır. Ancaq Azərbaycan üçün böyük məlumat bazası olmadığı görülmüşdür. Bu səbəblə araşdırmaya ehtiyac duyulmuşdur.

Məqsəd: Araşdırmanın əsas məqsədi yaş və cinsiyyətlə bağlı vitamin D çatışmazlığında vəziyyətin analiz edilməsidir.

Material və metodlar: Araşdırmamıza Göyçay rayon mərkəzi xəstəxanasının mərkəzi laboratoriyasına 01.02.2023 ilə 31.03.2023 tarixləri arasında müraciət edən xəstələrin analiz nəticələri retrospektiv olaraq qiymətləndirilmişdir. Qiymətləndirmə qlobal referans aralıqları (10 nq/ml-dən az ciddi D vitamini defisiti, 10-20 nq/ml arası D vitamini defisiti, 20 nq/ml-dan çox normal/yetərli, >100 nq/ml-dan çox toksik) əsas götürülərək qruplara ayrılmışdır. Kişi xəstələrin nəticələri yoxlanıldıqda <10, 10-20, 20-30, 30-100 olacaq şəkildə xarakterizə edildi.

Nəticə: Müvafiq olaraq kişilərdə 1,9 %, 11,5 %,8,1 %,3,4 %, qadın xəstələrdə isə 11,9 %,36,6 %,15,3 % və 11,2 % olduğu görülmüşdür.

Yekun: Nəticələrdən də aydın olduğu kimixüsusilə ciddi çatışmazlıq kateqoriyasında olan xəstələrin 86.4 % qadın xəstələr olduğu görülmüşdür. Bununla birlikdə bütün xəstə nəticələri araşdırıldıqda hər yaşda olan şəxslərin vitamin D səviyyəsinin aşağı olduğu müəyyənləşdirildi və tədqiqata cəlb olunanların 85.3 % kimi ciddi bir faizinin vitamin D dəyərinin 30 nq/ml-dan az olduğu görülmüşdür. Bu vəziyyət vitamin D əksikliyi üzərində araşdırmaların artması vacibliyini göstərir.

Açar sözlər: Xərçəng, Vitamin D, Vitamin defisiti

Vitamin D Nəticələrinin paylanması

Nəticə (nq/ml)	Kişi (%)	Qadın (%)
<10	1,9	11,9
10,0-20,0	11,5	36,6
20,0-30,0	8,1	15,3
>30	3,4	11,2

Vitamin d değerlerinin cinsiyet göre dağılımı

P11

VİTAMİN D ÇATIŞMAZLIĞI METABOLİK SİNDROM GÖSTƏRİCİSİ OLA BILƏRMİ?

Ülviyyə MUSTAFAYEVA[1]

[1]İnci Laboratoriyaları, Klinik Biokimya Laboratoriyası, Bakı

ulviyye.huseynova@incilab.az

Giriş: Metabolik sindrom hipertoniya, piylənmə, insulin rezistentliyi və dislipidemiya ilə əlaqələndirilən metabolik pozğunluqdur. Metabolik sindromun diabet, aterosklerotik və qeyri-aterosklerotik ürək-damar xəstəliklərinin inkişafı riskini artırması vurğulanır. İnsulin rezistentliyi zamanı insulin mədəaltı vəzidən normadan çox ifraz olunur, bu zaman qanda insulinin çox olması insulin rezistentliyinə gətirib çıxarır. İnsulin rezistentliyi şəkərli diabetə gedən yolun başlanğıcı hesabolunur. Əvvəllər yalnız 40-50 yaşlı şəxslərdə rast gəlinən metabolik sindrom, artıq gənc və uşaq yaşlarda da tez-tez müşahidə olunur. Metabolik sindromu olan insanlarda vitamin D çatışmazlığını göstərən tədqiqatlar mövcuddur. HOMA-IR indeksi metabolik sindromun vacib göstəricilərindən biri olub insulin rezistentliyini qiymətləndirmək üçün hesablanır.

Məqsəd: Araşdırmamızda vitamin D səviyyələri ilə HOMA-IR indeksi arasındakı əlaqəni qiymətləndirdik.

Material və metodlar: Araşdırma 6 saylı Uşaq Xəstəxanasına müraciətedən pasientlər üzərində aparılmışdır. Araşdırmaya 6 saylı Uşaq Xəstəxanasının laboratoriyasına müraciətedən 177 uşaq daxil edilmişdir, bunlardan 59-u kişi, 118-i qadın olmuşdur. Müraciət edən pasientlərdə 25-Hidroksi D vitamini səviyyəsi və HOMA-IR indeksi eyni vaxtda tədqiq edilmişdir. Vitamin D 25 ng/ml-dənaşağıdırsa vitamin D çatışmazlığı, HOMA-IR ≥2.5 isə insulin rezistentliyi olaraq qəbul edilmişdir.

Nəticə: 102 (57,6%) xəstədə vitamin D çatışmazlığı olduğu halda, 75 (42,4%) xəstədə vitamin D səviyyəsi normal olmuşdur. Normal və aşağı vitamin D səviyyələri olanlar arasında HOMA-IR indeksində əhəmiyyətli dərəcədə fərq yox idi. Vitamin D səviyyəsi normal olanlarda insulin rezistentliyi 42,6% (32 nəfər) , vitaminD çatışmazlığı olanlarda isə insulin rezistentliyi 48% (49 nəfər)olmuşdur.

Yekun: Vitamin D səviyyəsi ilə insulin rezistentliyi arasında heç bir əlaqə tapılmadı. Müayinə olunan xəstələrin sayının artırılması və xəstə qrupu kimi xüsusilə, metabolik sindrom diaqnozu qoyulan xəstələrin araşdırmaya daxil edilməsi vitamin D çatışmazlığı ilə insulin rezistentliyi arasındakı əlaqəni tapmaqda daha faydalı olacaqdır.

Açar sözlər: Vitamin D, HOMA-IR İndeksi, Metabolik Sindrom, İnsulin Rezistentliyi

P12

ŞƏKƏRLİ DİABETİN LABORATOR DİAQNOSTİKASINDA MÜXTƏLİF GÖSTƏRİCİLƏRİN ƏHƏMİYYƏTİ

Solmaz QURBANLI[1], Bayram TAQİYEV[2], Cəlal AĞAYEV[3]

[1]Sumqayıt Uşaq Xəstəxanası, Klinik Biokimya Laboratoriyası

[2]Azərbaycan Tibb Universiteti, Tədris Terapevtik Klinika

[3]İnci Laboratoriyaları

drtagisoy@gmail.com

Giriş: Şəkərli diabet insulinin nisbi və ya mütləq əksikliyi və ya periferik toxumalarda insulinin təsirinin müxtəlif səbəblərdən zəifləməsi ilə meydana çıxan hiperqlisemiya ilə xarakterizə edilən metabolik pozğunluqdur. Şəkərli diabetin diaqnostikası məqsədilə ilkin olaraq qanda qlükozanın səviyyəsinin təyini və oral qlükoza tolerantlıq testi (OQTT) istifadə olunur. Diaqnostik məqsədləqlükozanın ölçülməsi serum və ya plazmada aparılmalıdır. Diaqnostika zamanı pasient 8-12 saat ərzində ac olmalıdır.

Məqsəd: Qan zərdablarında qlükozanın səviyyəsinin dəyərləndirilməsi və erkən diaqnozda HbA1C və insulinin əhəmiyyətinin qiymətləndirilməsi.

Material və metodlar: Sumqayıt Şəhər Uşaq Xəstəxanasının Biokimyəvi laboratoriyasına 01.03.2023-01.04.2023 tarixləri arasında daxil olmuş 1073 xəstənin qanzərdabı nümunələrində qlükoza səviyyələri analiz edilmişdir. Qan zərdabı nümunələri Abbot c4000, Abbot i1000 SR cihazında işlənilmişdur. Qlükoza, HbA1C Abbot c4000 cihazında, İnsulin isə Abbot i1000 SR cihazında işlənilmişdir. Aclıq qan qlükozasının norma intervalı 70-105 mg/dL, HbA1C <6% normal, >6.5%yüksək, insulin norma intervalı isə 2.5-24.5 uIU/mL olaraq qiymətləndirilmişdir. Səhər acqarına qlükozanın qandakı səviyyəsinin 126 mg/dl çoxalması qlükozaya qarşı tolerantlığın pozulmasından və ya şəkərli diabet riskindən xəbər verir.

Nəticə: Qan zərdabı nümunələrində 1008 (93.9%) şəxsdə göstəricilər norma daxilində, 65 nümunədə (6.1%) normadan yüksək olmuşdur. 146 qan nümunəsində insulin təyin edilmişdir, 9 nümunədə (6.2%) nəticə normadan yüksək olmuşdur. 146 qan nümunəsində HOMO-İR təyin edilmişdir, 84 nümunədə (57.5%) yüksək olmuşdur. 129 qan nümunəsində HbA1c təyin edilmişdir, 67 nümunədə (52%) yüksək nəticə alınmışdır.

Yekun: Hiperqlikemiya olaraq dəyərləndirilmiş qan zərdabı nümunələrinin böyük əksəriyyətində HbA1C və insulin arasında uyğun korrelyasiya olduğu aşkar olundu. Buna əsasən hiperqlikemik zərdablarda qlükoza dəyərinin tək başına diaqnostik əhəmiyyəti yoxdur.

Açar sözlər Aclıq qlükozası, HbA1C, İnsulin, HOMO-IR

P13

SİSTEM QIRMIZI QURDEŞƏNƏYİNİN DİAQNOSTİKASINDA ANTİ-CÜT ZƏNCİRLİ DNT ANTİCİSİMLƏRİ İLƏ ANTİNÜVƏ ANTİCİSİM TİTRLƏRİ VƏ İMMUNFLÜORESSENS ANALİZ NƏTİCƏLƏRİNİN MÜQAYİSƏSİ

Elçin ŞIXALİYEV[1], Bayram TAĞIYEV[1], Sahib MUSAYEV[2], İskender KARALTI[1]

[1]Azərbaycan Tibb Universiteti Tədris Terapevtik Klinikası,Mərkəzi Laboratoriya,Bakı,Azərbaycan

[2]Azərbaycan Tibb Universiteti Tədris Terapevtik Klinikası,Revmatologiya və Qastroenterologiya şöbəsi

elcin.drshikhaliyev@gmail.com

Giriş: Sistem qırmızı qurdeşənəyi (SLE) multifaktorial sistem autoimmun xəstəlik olub həm genetik həm də təbii və qazanılmış immun müdafiə mexanizmlərində görülən pozulmalar səbəbilə inkişaf etdiyi bilinir. Bir çox laboratoriyalar immunflüoressensiya üsulu ilə antinüvə anticismlərini (ANA) anti-cüt zəncirli DNT ilə (Anti-dsDNA) paralel işləmirlər. Aparılan araşdırmalarda başda SLE olmaqla digər immun xəstəliklərin də diaqnostikasında bu analizlərin işlənməsinin vacibliyi bildirilir.

Məqsəd:Tədqiqatın məqsədi Anti-cüt zəncirli DNT anticisimləri ilə Antinüvə anticisim titrləri və immunflüoressens analiz nəticələrinin qarışılıqlı müqaisəsidir.

Material və metodlar: Azərbaycan Tibb UniversitetininTədris Terapevtik Klinikasında laboratoriya məlumatlarının retrospektiv təhlilinə əsaslanaraq 01.01.2020-ci il tarixindən 31.12.2022-ci il tarixinədək klinikaya SLE diaqnozu qoyulmuş və ya SLE şübhəsi olan xəstə məlumatları üzərində araşdırma aparılmışdır. Statistikası çıxarılıb tədqiqat aparılmış 3 il müddətində immunoflüoressensiya üsulu ilə ANA yoxlanılmış 1065 pasientin 58.4%-i (584 xəstə) müsbət nəticə vermişdir. Araşdırmalar əsasən immunflüoressens üsulu ilə HEp-2 hüceyrələrində ANA aşkarlanmış 584 pasient üzərində ELİSA üsulu ilə Anti-dsDNA anticismlərinin dəyərləndirilməsinə uyğun aparılmışdır.

Nəticə: Kontrol qrupa daxilolan 584 pasientdən 148 nəfərə Anti-dsDNA pozitiv cavab verərək SLE diaqnozu, 41 nəfərə isə sərhəd zonası cavabı verilərək sərhəd zonası SLE diaqnozu qoyulmuşdur.Toplam 189 pasientin 175-i(92.6%) qadın,14-ü(7.4%) kişidir. Bu pasientlərin immunflüoressensiya üsulu ilə HEp-2 hüceyrələrində 49.5%-də(94xəstə) eynicinsli(homogeneous); 10.9%-də(20 xəstə) xallı(speckled); 36.2%-də(68 xəstə) həm eynicisnsli,həm də xallı nüvə boyanmaları; 3.4%-də (7 xəstə) isə digər növ boyanmalar aşkar olunmuşdur. Eyni zamanda bu nümunələrin 33.3%-də (63 nəfər) 1:100, 41.1%-də (78 nəfər) 1:320, 23.6%-də (44 nəfər) 1:1000, 2%-də (4 nəfər) isə 1:10000 ANA titrinə uyğun olaraq Anti-dsDNA anticimləri aşkar olunmuşdur. **Yekun:** Nəticə olaraq, ANA titrlənmə dərəcəsi və yaxud da boyanma növləri SLE diaqnozunun qoyulması üçün tam informativ deyil. ANA pozitiv çıxan bütün xəstələrdə SLE-dən şübhələnə bilərik. SLE-dən şübhələndiyimiz bütün xəstələrdə isə immunflüoressensiya üsulu ilə ANA yoxlanılması ilə paralel olaraq Anti-dsDNA anticismlərinin də yoxlanılması mütləqdir.

Açar sözlər Sistem qırmızı qurdeşənəyi(SLE), Anti-dsDNA anticismləri, Antinüvə anticismləri(ANA), Titr, İmmunoflüoressensiya.

P14

BƏLĞƏMİN KULTİVASİYA NƏTİCƏSİ İLƏ MİKROSKOPİK MÜAYİNƏSİNDƏ İSTİFADƏ EDİLƏN BARTLETT SKORU ARASINDA KORRELYASIYANIN ÖYRƏNİLMƏSİ

Nərminə İSMAYILOVA[1]

1"Sağlam Ailə Tibb Mərkəzi", laboratoriya şöbəsi

dr.narminaismayilova@gmail.com

Giriş. Aşağı tənəffüs yolları xəstəlikləri geniş yayılmışdır. Xroniki bronxit, pnevmoniya, ağciyər ödemi, ağciyər abseslərində bəlğəm ifrazı olur.

Məqsəd. Aşağı tənəffüs yolları xəstəliklərinin tədqiq edilməsi üçün bəlğəmin mikroskopik və bakterioloji müayinələri aparılır, Bartlett ədədi təyin edilir.

Material və metodlar. Tədqiqat "Sağlam Ailə Tibb Mərkəzi" laboratoriyasına müraciət etmiş 100 xəstənin bəlğəm nümunələrinin mikroskopik, bakterioloji müayinələri əsasında aparıldı. Qram boyamada polimorf nüvəli leykositlər, yastı epitel hüceyrələrin sayı qeyd edilməklə Bartlett ədədi təyin olundu. Bəlğəm nümunələri qanlı, mannitol-salt, Chromatic ™ Detection və Sabouraud-dextrose aqarlarına əkildi. İnkişaf edən mikroorqanizmlər identifikasiya edildi.

Nəticə. 100 xəstənin nəticələrini Bartlett ədədi (+2), (+1) və (-1) olmaqla 3 qrupda ümumiləşdirdim. (+2) olanlar (56 nəfər) ümumi xəstələrin 56%-ni, (+1) olanlar (14 nəfər) 14%-ni, (-1) olanlar (30 nəfər) 30%-ni təşkil etdi. Kultivasiyadan sonra (+2) olan 56 nəfərdən 40-da, (+1) olan 14 nəfərdən 4-də inkişaf oldu. (-1) olan 30 nəfər xəstənin heç birində patogen mikroorqanizm aşkar edilmədi. (+2) olan 56 nəfərdən 16-da, (+1) olan 14 nəfərdən 10-da, (-1) olan bütün xəstələrdə inkişaf olmadı və ya normal mikroflora inkişaf etdi. (+2) olan xəstələrdən 26-da qarışıq mikroflora, 2-də *Pseudomonas aeruginosa,* 3-də *Escherichia coli*, 2-də *Klebsiella pneumoniae,* 4-də *Moraxella catarrhalis,* 3-də *Streptococcus pneumoniae* inkişaf etdi. (+1) olan xəstələrdən 7-də *Staphylococcus aureus,* 7-də *Candida spp*. inkişaf etdi. (+2) və (+1) olan xəstələrdə patogen mikroflora inkişaf etdi. (-1) olan xəstələrdə patogen mikroorqanizm aşkar edilmədi və ya normal mikroflora inkişaf etdi.

Yekun. Bəlğəm nümunələrinin müayinəsi zamanı Bartlett ədədi də təyin edilməlidir. Leykosit sayının az, epitel sayının çox olması ilə qısa zamanda xəstədə heç bir patologiya olmadığını demək mümkündür. Əgər bəlğəm nümunəsi ağız suyu ilə qarışmış olarsa, Bartlett ədədi də bunu göstərəcəkdir. Bəlğəmin mikroskopik müayinəsi həqiqi tənəffüs yolları xəstəlikləri törədicilərini antibiotik müalicəsinə ehtiyac olmayan kolonizasiya florasından ayırmaq üçün faydalı vasitədir. Eyni zamanda, preanalitik mərhələdə olan xətaların qarşısının alınması, geniş spektr antibiotiklərin təyini üçün önəmini də qeyd etmək lazımdır.

Açar sözlər. Bartlett ədədi, kultivasiya, mikroskopiya

Bəlğəm kultivasiyası



Bartlett ədədinin təyin edilməsi

			Yastı epitel hüceyrələri		
Polimorf nüvəli		0 (yox)	1-9 (az)	10-24 (orta)	≥25 (çox)
leykositlər					
	0	0	-1	-2	-3
	1-9	+1	0	-1	-2
	10-24	+2	+1	0	-1
	≥25	+3	+2	+1	0
Detallar					
Status:	Mütəxəssis rəyi				
Təqdimat növü: Şifahi məruzə					
Məqalə dili:	Azərbaycan dili				
Submit:	10-03-2023 16:45				

P15

MÜXTƏLİF MƏNBƏLƏRDƏN AYRILMIŞ TÖRƏDİCİLƏRİN ETİOLOJİ STRUKTURU VƏ ANTİBİOTİKLƏRƏ QARŞI REZİSTENTLİYİNİN MÜQAYİSƏLİ ANALİZİ

Mahirə QULİYEVA[1], Nigar MÜTƏLLİBOVA[2]

[1]Liv Bona Dea İnternational Hospital

[2]Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Mikrobiologiya və epidemiologiya kafedrası

quliyevamahire@gmail.com

Giriş: Antibiotiklərin qeyri-səmərəli istifadəsi və nəticədə antibiotiklərə davamlı olan bakterial ştamların əmələ gəlməsi səhiyyənin çox ciddi problemlərindən biridir. ÜST-nın verdiyi məlumata əsasən antibiotiklərin istifadəsi təxminən 75 % hallarda lazımsız və yersizdir.

Məqsəd: Hazırki tədqiqatın məqsədi Bonadea hospitalının xəstələrindən aşkarlanmış törədicilərinin etioloji strukturunun və onların antibiotiklərə qarşı rezistentliyinin öyrənilməsidir.

Material və metodlar: 2020-ci iliniyul-avqust aylarında 51 xəstə Lıv Bonadea International hospitalında bakterioloji müayinə olunmuşdur. Törədicilərin identifikasiyası avtomatlaşdırılmış mikrobioloji analizator Vitek2 və kütlə spektrometriya mikrobioloji identifikasiya sistemi Vitek Ms ilə aparılmışdır.

Nəticə: Müayinə zamanı 12 xəstədə (23,5 %) *Klebsiella pneumonia,* 13 xəstədə 25,5%) *Escherichia coli,*

8 xəstədə (15,7%), *Pseudomonas aeruginosa,* 4 xəstədə (7,8%) *Acinetobacter baumannii*, 1 xəstədə (1,9%) *Klebsiella oxitoca,* 4 xəstədə (7,8%) *Enterococcus faecalis,* 3 xəstədə (5,9%) Staphylococcus aureus, 3 xəstədə (5.9%) Citrobacter freundii, 1 xəstə (1,9%) *Burkholderia vietnamiensis*, 2 xəstədə (3,9%) *Enterobacter cloacae* törədicilərіaşkarlanmışdır. Klinik hadisələrin 25%-də *Ps.aeruginosa* və *St.aureus,* 33% hallarda *Ps.aeruginosa* və *Kl.pneumonia* mikroorqanizmlərinin assosiasiyası qeyd edilmişdir. Bir xəstədə *Enterococcus faecalis* və *Enterobacter cloacae* bakteriyaları birgə aşkarlanmışdır. *Kl.pneumonia* ştamları 25% hallarda yara möhtəviyyatından, 50% hallarda tənəffüs yollarından götürülmüş nümunələrdə (traxeal aspirat, bronxoalveolyar lavaj), 25% hallarda sidikdə aşkarlanmışdı. *E.coli* ştamları 30,8% hallarda yarada, 46,2 % hallarda sidikdə, 15,4% hallarda qanda aşkarlanmışdı.

Yekun: Əldə edilmiş nəticələrdən məlum olunmuşdur ki, bəzi enterobakteriyalar - *Kl.pneumonia* və *E.coli* aminoqlikozidlərin II və III nəslinə aid olan amikasin və qentamisin preparatlarına qarşı həssas olduğu halda ftorxinolon preparatlarına (ciprofloksasin və norfloksasin) gözlənilmədən davamlılıq göstərmişdir (cədvəl 1). Karbapenemlər sinfinə aid olan meropenem preparatı tədqiq edilən enterobakteriyalara *(Kl.pneumonia, E.coli, C. freundii)* və fermentləşdirməyən bakteriyalara *(A.baumannii, Ps.aeruginosa)* yüksək

bakterisid təsir etmişdir. Kolistin preparatının hazırki tədqiqatda rezistentlik xassələri öyrənilən bütün qrammənfi bakteriyalara bakterisid təsiri müəyyən edilmişdir. Enterobakteriyaların və qızılı stafilokok ştamlarının amoksisillin/klavulan turşusu preparatına qarşı davamlılığın aşkarlanması təhlükəli fakt kimi narahat doğurur.Bu tədqiqatda araşdırılan həm qramneqativ, həm də qram pozitiv bakteriyalar trimetoprim- Sulfametoksazol preparatına qarşı kifayət qədər yüksək həssaslıq göstərmişdir.

Açar sözlər Antibiotikorezistentlik, rezistant infeksiyalar, xestexanadaxili infeksiyalar

Cədvəl 1 *Bəzi bakterial ştamların müxtəlif antibiotiklərəqarşı həssaslıq*

Antibiotiklər	*Kl.pneumonia*		*E.coli*		*Ent.faecalis*	
	Həssas	Davamlı	Həssas	Davamlı	Həssas	Davamlı
Amikasin	75%	25%	69,3	30,7	25	75
Amoxicillin/ Clavulanic acid	16,6%	83,4%	15,4	84,6	25	75
Ampisillin	0	100%	0	100	0	100
Cefazolin	8,3	91,7			-	-
Cefoxitin	0	100%	7,7	92,3	-	-
Ceftazidime	8,3	91,7	15,4	84,6	25	75
Ciprofloxacin	8,3	91,7	23,1	76,9	0	100
Colistin	70%	30%	61,5	38,5	25	75
Gentamicin	75%	25%	53,9	46,1	25	75
Meropenem	70%	30%	76,9	23,1	25	75
Nitrofurantoin	16,7%	83,3%	69,3	30,7	-	-
Norfloxacin	16,7	83,3	23,1	76,9	50	50
Piperacillin	8,3	91,7	69,3	30,7		
Trimethoprim-Sulfamethoxazole	66,6	33,3	53,9	46,1	75	25

P16

HEPATİT C XƏSTƏLƏRİNDƏ QARACİYƏRİN FİBROZLAŞMA DƏRƏCƏSİNİN MÜƏYYƏN OLUNMASI ÜÇÜN QEYRİ-İNVAZİV APRİ TESTİ: RETROSPEKTİV TƏHLİL

Nuranə TAQİYEVA[1], Müslüm XANALIBƏYLİ[2], Bayram TAQİYEV[3], Samir CAVADLI[4], Ramin BAYRAMLI[1],

1Azərbaycan Tibb Universiteti, Tibbi mikrobiologiya və immunologiya kafedrası, Bakı 2İnci Laboratoriyaları, Bakı

3Azərbaycan Tibb Universiteti, Tədris Terapevtik Klinika, Laboratoriya şöbəsi, Bakı

4Azərbaycan Tibb Universiteti, Tibb və Sağlamlıq Elmlərinin Təhsili kafedrası, Bakı

ntaqiyeva@amu.edu.az

Giriş: Hepatit C virusu (HCV) xroniki qaraciyər xəstəliyi hallarının kifayət qədər çox hissəsini təşkil edir və qaraciyər transplantasiyası üçün ən çox rast gəlinən göstərici hesab olunur. Hepatit C xəstələrində qaraciyərin fibrozlaşma dərəcəsinin dəqiq diaqnostikası müalicənin düzgün aparılması və izlənilməsində əsas rol oynayır. Qaraciyər fibrozlaşması adətən qaraciyər biopsiyası, FibroSURE və APRI (AST to platelet ratio index) testləri vasitəsilə təyin edilə bilər. Qaraciyər biopsiyasının mümkün fəsadlarını nəzərə alaraq, qaraciyər fibrozunun qiymətləndirilməsi üçün qeyri-invaziv metod lazımdır. Bu metodlardan FibroSURE test maliyyətli test hesab olunur. APRİ testi isə sadəcə 2 markerin (AST və trombosit miqdarı) təyini ilə hesablanan test olub, qaraciyərin fibrozlaşma dərəcəsini öyrənməyə kömək edir. Bu test zamanı cavabın 0.5-dən az olması sirrozu inkar edir, 1.5-dən yüksək olması isə fibrozlaşmanı bildirir.

Məqsəd: Bu tədqiqatın məqsədi HCV PZR pozitiv olan xəstələrdə APRİ testinin hesablanması yolu ilə qaraciyərin fibrozlaşma dərəcəsinin müəyyən olunmasıdır.

Material və metodlar: Tədqiqat qrupuna Abşeron RMX-ə müraciət edən və HCV RNT keyfiyyət və/və ya kəmiyyət analizi üçün "İnci laboratoriyaları"-na göndərilən, eyni zamanda, AST və ümumi qan analizləri də çalışılan 67 nəfər (36 nəfər qadın, 31 nəfər kişi) daxil edilmişdir. AST testi Enzymatic (NAOH without p5-p7), ümumi qan analizi Mindray BC-6000, HCV RNT titri isə real-zamanlı Polimerazalı Zəncirvari Reaksiya üsulları ilə aparılmışdır (Real time PCR, BIO-RAD CFX96-IVD).

Nəticə: Çalışılan 67 nümunədən 53-də (79%) APRI testi 1.5-dən az, 14-də (21%) isə 1.5-dən çox miqdar verdi. APRI testi 1.5-dən yüksək olan pasientlərdə AST ilə ALT miqdarı arasında müsbət korrelyasiya müşahidə olundu.

Yekun: APRI testi hepatit C xəstələrində qaraciyərin fibrozlaşma dərəcəsini hesablamaq üçün sadə və etibarlı qeyri-invaziv üsuldur. APRI testi hesablamamıza əsasən 53 nəfərdə fibrozlaşma miqdarı çox aşağıdır. Yəni bu test həmin xəstələrin biopsiya ilə onsuz da zədələnmiş qaraciyərini təkrar zədələməyə ehtiyac olmadığını bildirir. Lakin, daha ağır hallardaAPRI testinin tək diaqnostik metod olaraq həssaslığı daha aşağıdır və digər diaqnostik metodlarla kombinasiya şəkildə aparılması məsləhət görülür (məsələn APRI+ FibroSURE test).

Açar sözlər Qaraciyər sirrozu, APRI, FibroSure, AST, ALT **APRI ≥1.5 pasient sayı**

No	AST miqdarı (IU/l)	Trombosit miqdarı (10^9 IU/l)	APRI
1	106	150	2,078431373
2	78	129	1,778385773
3	84	84	2,941176471
4	92	118	2,293120638
5	46	54	2,505446623
6	174	198	2,584670232
7	120	91	3,878474467
8	71	51	4,094579008
9	86	136	1,859861592
10	227	232	2,877789047
11	193	193	2,941176471
12	54	96	1,654411765
13	93	85	3,21799308
14	241	92	7,704603581

P17

KLİNİK NÜMUNƏLƏRDƏN İZOLƏ EDİLƏN ENTEROCOCCUS SPP. ŞTAMLARINDA ANTİBİOTİK DAVAMLILIĞIN ARAŞDIRILMASI

Zülfiyyə XƏLİLOVA[1], Leyla HƏŞİMOVA[1], Leyla MAHMUDOVA[1], Fatimə NƏSİRLİ[1], Ağaşah EMİNLİ[1]

[1]Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikası, Bakı, Azərbaycan.

xelilovazulfiyye@yahoo.com

Giriş: Enterekoklar insanın normal florası nümayəndəsidir. Kommensial mikroorqanizm olmaqla yanaşı xəstəxanadaxili və toplum mənşəli müxtəlif infeksion xəstəliklər törədirlər. Son dövürlərdə aparılan elmi araşdırmalarda enterekoklarda antibiotik davamlılığının artdığı və bu davamlılıq genlərinin bakteriyalararası ötürüldüyü sübut olunmuşdur.

Məqsəd: Bu araşdırmadakı məqsədimiz müxtəlif kliniki nümunələrdən izolə edilən Enterecoccus spp. ştamlarının antibiotik davamlılığının qiymətləndirilməsinə əsaslanmışdır.

Material və Metodlar: Son iki ildə ATU- TCK-ın Klinik Diaqnostik Laboratoriyasına müraciət edən 1726 xəstənin müxtəlif klinik nümunləri dəyərləndirilməyə alındı. Kultivasiya üçün sidik, yara, qan, abses, drenaj mayedənnümunələr götürüldü. 68 nümunədə enterokok ştamı izolə edilidi. Enterokok ştamları ən çox sidik nümunələrindən izolə edilmişdir. Nümunələr qoyun qanlı və EMB aqara əkilib, 37^0C- də 18-24 saat müddətində termostatda inkübasiya edildi. Qram boyalı preparatın mikroskopiyasında qram müsbət kok görüntüsü, katalaza testi mənfi, PYR testi müsbət olan koloniyalar VİTEK 2 (bioMerieux, Fransa) cihazında işlənərək identifikasiya edildi. İzolə edilən ştamların antibiotik həssaslıqları EUCAST(European Committee on Antimicrobial Susceptibility Testing) standartlarına uyğun olaraq dəyərləndirildi. Eyni xəstədən izolə edilən ardıcıl ştamlar tədqiqatımızda nəzərə alınmadı.

Nəticə: Enterokoklarda vankomisin, linezolid, teykoplanin və tigesiklində davamlılıq 0 %, ampisilində -38%, levofloksasində 38% , gentamisində isə 32% rast gəlindi.

Yekun: *Enterecoccus spp.* ştamlarında vankomisin, teykoplanin və linezolidə davamlılıq müşahidə edilmədi. Empirik müalicədə bu antibiotiklərin seçilməsi tövsiyə olunur. Lakin tədqiqatın geniş sahədə aparılmasına ehtiyac var. Xəstəxanalarda infeksiyaya nəzarətin kontrol altına saxlamaq üçün rutin

antibiotik həssaslıq testləri mühüm əhəmiyyət kəsb etdiyi bu araşdırmadada bir daha subut olundu.

Açar sözlər Enterococcus, antibiotik davamlılıq, vankomisin.

Enterokoklarda antibiotik həssaslığın faizlə göstə



P18

SEPSİS ZAMANI PROKALSİTONİN GÖSTƏRİCİLƏRİNİN DƏYƏRLƏNDİRİLMƏSİ

Balaxanım HƏSƏNLİ[1,2]

[1]Azerbaycan Tibb Universiteti, Klinik biokimya,

[2]Tədris Cərrahiyyə klinikası, Laboratoriya şöbəsi,

xnmmmmdv@gmail.com

Giriş: Sepsis orqanizmin müxtəlif mikroorqanizimlərə qarşı verdiyi şiddətli və ölümcül reaksiyadır.Əsasənbakteri-yalar törədir lakin,virus və göbələklər də sepsisə səbəb olur.Sepsislə daha çox uşaqlar (yenidoğulmuşlar),yaşlı şəxslər,hamilələr və xroniki xəstəliyi olan şəxlər xəstələnirlər.Sepsisə səbəb steril olmalı olan qana, mikorqanizmlərin çekməsidir (bakteriemi-ya). Sepsis çox hallarda septik şokla ağırlaşır.Sepsis zamanı qanda bəzi dəyişikliklər olur ki, diaqnostikada istifadə edilir, lakin əsas diaqnoz üsulu klinik mikrobioloji analizdir. İltihab zamanı qanda patoloji zülallar artır ki , bu faza < kəskin faza> ,zülallar isə kəskin faza zülalları adlanır.Bu zülallar xəstəliyin gediş və ağırlıq dərəcəsini göstərir və klinisist həkimə vaxt itirmədən geniş spektrli antibiotik terapiyaya başlamağa kömək edir.Sepsisin diaqnostikasında ən çox təyin edilənlər CRP, Prokalsitonin, ferritin, d-dimer və.s dir. Prokalsitonin 116 aminturşudan ibarət, molekul ağırlığı 13 kDa olub və kalsitoninin prohormonudur. Prokalsitonin qaraciyər, ağciyər, bağırsaqlar, pankreas vəyağ toxumalarındakı neyroendokrin hüceyrələrdə sintez edilir. Bir çox iltihab mediatorundan fərqli olaraq prokalsitonin yüksəkliyi sepsis və şiddətli sistemik iltihablarda xəstəliyin şiddəti və öldürücülüyü ilə əlaqəlidir və sepsis üçün daha xarekterikdir. Prokalsitonin viral və mikoloji sepsislərdən fərqli olaraq bakterial sepsislərdə daha çox yüksəlir ki,bu da klinik mikrobioloji analizə qədər, anibiotikə müalicəyə başlamağa yardım edir və septik şokla ağırlaşmanın qarşısını alır.

Tədqiqatın məqsədi: Sepsisdə erkən diaqnosikada prokalsitonin nə qədər informativdir.

Material və metodlar: Klinik biokiməvi, klinik mikrobiolojimüayinələr. Klinikamızda 01.12.2022 - 01.03.2023 –cü il tarixləri ərzində 40 xəstədə 44 müayinə aparlmışdır. Müayinələr "Cobas 411 və İmulite" cihazlarında aparılmışdır. Cihazlar Kbudek standartlarına uyğundur və iş mexanizmi elektroxemilümünüsasiya (EXL) hadisəsinə əsaslanır.

Nəticə: Bu şəxslərdən 9 nəfər yenidoğulmuş, 11 nəfər 65 yaşdan yuxarı və müxtəlif xroniki xəstəlikləri (əsasən ürək-damar patologiyalı)olan şəxslər,12 nəfər hamilə qadın və 8 nəfər isə müxtəlif yaşlı şəxslərdir. Xəstələrdən 11 nəfərdə eyni zamanda mikrbioloji müayinə aparılmış, 2 şəxsdə pozitiv nəticə olmuşdur ki, 1 nəfərdə prokalsitonin normadaxilindədir. Mikrobioloji analiz zamanı bitmə olmayan şəxslərin 6-da prokalsitonin yüksək olub. Müxtəlif xroniki xəstəliyi olan və hamilələrdə prokalsitoninlə yanaşı D-dimer göstəricisi yüksək olmuşdur.

Yekun: Xəstələrdə antibiotik terapiyadan sonra prokalsitonin 48 saat ərzində azalmalıdır. Sepsisdə xəstəliyin gedişinin izlənməsi və antibiotik müalicənin müddətinin təyinində daha in-formativdir.

Açar sözlər Bakteriya, CRP, hamilə, İltihab, Mikrobioloji müayinə, Sepsis, Septik şok, Pro-kalsitonin, Virus, Yenidoğulmuş

P19

COVID-19 DİAQNOZLU XƏSTƏLƏRİN HEMOKULTURALARINDAN İZOLƏ OLUNMUŞ BAKTERİYALARIN ANTİBİOTİK HƏSSASLIQLARI

Bahar MƏMMƏDOVA[1], Leyla HƏŞIMOVA[2], Zülfiyyə XƏLILOVA[2]

[1]Bakı Sağlamlıq Mərkəzi

[2]Azərbaycan Tibb Universiteti Tədris Cərrahiyyə Klinikası

bahar_mammadova@icloud.com

Giriş: 2019-cu ilin dekabrında Çinin Vuhan şəhərində yeni tip koronavirus (SARS-CoV-2) aşkarlandı. Ümümdünya Səhiyyə Təşkilatı virusun insanlarda sürətlə yayılaraq Covid-19 xəstəliyini yaratması səbəbindən 2020-ci ilin 11mart tarixində pandemiya elan etdi. Təxmini 165 mln insan bu virusa yoluxmuş, 102 min insanda ağırlaşma halları qeydə alınmışdır. Xəstəlik zəif simptomlarla özünü göstərdiyi hallarla yanaşı, müxtəlif immun mexanizmlərlə ikincili bakterial ağırlaşmalara səbəb ola bilər. Bu bakteriyaların identifikasiyasında hemokulturaların mikrobioloji analizi xüsusi əhəmiyyət kəsb edir.

Məqsəd: ATU-TCK-da müalicə almış Covid-19 xəstələrinin hemokulturalarında identifikasiya olunmuş bakteriyalar və onların antibiotik həssaslığının müəyyən olunmasını planlaşdırdıq.

Material və metodlar: 01.04.2020 - 01.09.2020 tarixlərində klinikanın müxtəlif şöbələrində müalicə alan 65 kovidli xəstədən alınmış qan nümunələri müvafiq şüşələrə kultivasiya olunaraq Bactalert (Biomerieux) cihazına yerləşdirilmişdir. Pozitiv siqnal verən nümunələrin identifikasiyası və antibiotik həssaslığının təyini Vitek-2 Compact (Biomerieux) cihazında aparılmışdır.

Nəticə: Tədqiqata daxil edilmiş 65 xəstədən 23-də (35.3%) Koaqulaza Neqativ *Stafilokok*, 4-də (6.1%) *Klebsiella pneumoniae,* 1-də (1.5%) *Klebsiella oxytoca*, 2-də (3%) *Acinetobacter baumannii*, 4-də *Candida spp.* (6.1 %) inkişaf edilmişdir. MRKNS-87.5% olmuşdur.

Yekun: Viral infeksiya ilə birgə müşayət edən bakterial infeksiyalarda xəstələnmə və ölüm faizi daha yüksək olduğu qəbul edilir. Covid-19-lu bakterial infeksiyaya şübhəli xəstələri vaxtında dəyərləndirilib, düzgün antibiotik seçimini etmək, ağırlaşma və ölüm faizini əhəməiyyətli dərəcədə aşağı sala bilər.

Açar sözlər Antibiotik həssaslıq, Covid -19, Hemokultura.

Cədvəl 1.Qram mənfi bakteriaların antibiotik davam

Izolə edilən bakteriya	N	AMPİİSİLLİN-SULBAKTAM	AMOKSİSİLLİN-KLAVULON TURŞUSU	İMİPENEM	MEROPENEM	AMİKASİN	GENTAMİSİN	CİPROFLOKSASİN	LEVOFLOKSASİN	TRİME SULFO
K.pneaumonia	4	100	100	75	60	60	40	100	100	100
K. oxytoca	1	-	-	0	0	0	0	0	0	100
A.baumannii	2	-	-	50	50	50	50	100	100	50

P20

GƏNCƏ BÖLGƏSİNDƏ ABO VƏ RH QAN QRUPLARININ PAYLANMASI VƏ QAN QRUPLARINA GÖRƏ ANTİ-HİV, HBSAG, ANTİ-HCV VƏ TREPONEMA PALLİDUM POZİTİVLİYİ ÜZƏRİNDƏ BİR ARAŞDIRMA

Vüsalə ƏHMƏDOVA[1], Qumral VƏLİYEVA[1], Valeh HÜSEYNOV[2]

[1]Mərkəzi Qan Bankı ,Bakı,Azərbaycan

[2]Milli Hematologiya və Transfuziologiya Mərkəzi,Bakı,Azərbaycan

axmedova-vusala@mail.ru

Giriş : Qan qruplarının paylanması coğrafi bölgəyə ,etnik qrupa və subpopulyasiyalara görə dünyada fərqlənir.Bu araşdırmada bölgədə qan qruplarının paylanması ilə bağlı dəqiq məlumata sahib olmaq,lazım gəldikdə praktiki və elmi mənada istifadə etmək hədəflənmişdir. Material və metodlar:01.01.2022-01.01.2023 ci il tarixlərində Mərkəzi Qan Bankının Gəncə bölməsinə qan vermək məqsədilə müraciət edən 4764 donorun qeydləri əsasında qan qrupları və qan qruplarına görə Anti-HİV, Anti-HCV, HbsAg və Treponema Pallidium total pozitivliyi araşdırılmışdır. Məlumatlar e-Təbib proqramında təhlil edilmişdir. Qan qruplarının təyini izohemaqqlütinasiya zərdabları ilə,qeyd olunan infeksiyaların analizi isə Enzyme immunoassay(ELİSA)üsulu ilə icra olunmuşdur.

Nəticə: Donorlardan 3648 nəfər(76.6%) kişidir, 1116(23.4%) nəfər qadındır.Araşdırmada A,B,O və AB qan qruplarının paylanması sıra ilə 38.2% (1819 nəfər), 18.9% (901 nəfər), 35.3%(1668 nəfər),7 .94%(376 nəfər) olaraq müəyyən olunmuşdur. Rh pozitivliyinin 89.44% olduğu görülmüşdür. Qan qruplarının paylanması və qan qruplarına görə Anti-HİV, Anti-HCV, HbsAg və Treponema Pallidium total pozitivliyi Cədvəl -1 də göstərilmişdir.

Yekun: Düşünürük ki, əldə etdiyimiz nəticələr qan qruplarının paylanması ilə bağlı məlumat bazasının yaradılmasına eyni zamanda bölgəmizin qan qrupu profilinin müəyyən edilməsi qan təmininə töhfə verəcəkdir. Bununla yanaşıoxşar elmi çalışmalarda olduğu kimi bizim araştırmada da qan qrupları ilə Anti-HİV, Anti-HCV, HBsAg, Treponema Pallidum pozitivliyi arasında anlamlı bir əlaqə olduğu görülməmişdir.

Açar sözlər ABO Qan Qrupları, Anti-HİV, HBsAg, Anti- HCV, Treponema Pallidum total

Cədvəl 1

ABO və RH qan qrupları	%-lə tezliyi	Anti-HİV pozitiv%	HbsAg pozitiv%	Anti-HCV pozitiv %	Treponema Pallidium pozitiv%
O(I)Rh+	31.7%	0.04%	0.5%	0.84%	0.67%
O(I)Rh-	3.4%			0.04%	
A(II)RH+	33.9%		0.8%	0.59%	0.55%
A(II)RH-	4.3%			0.08%	0.06%
B(III)RH+	16.7%		0.5%	0.44%	0.4%
B(III)RH-	2.2%		0.02%	0.02%	0.06%
AB(IV)RH+	7.14%		0.12%	0.20%	0.13%
AB(IV)RH-	0.8%			0.02%	0.02%

ABO və Rh qan qrupları və qan qruplarına görə HbsAg,anti-HİV,anti-HCV,Treponema pallidium pozitivliyi

P21

AZƏRBAYCAN TİBB UNİVERSİTETİ TƏDRİS TERAPEVTİK KLİNİKASINDA 5 İLLİK HEPATİT B VƏ C POZİTİVLİK GÖSTƏRİCİLƏRİNİN İNCƏLƏNMƏSİ

Afət BAKAYEVA[1], Bayram TAĞIYEV[1], İskender KARALTI[1]

[1]Azərbacan Tibb Universiteti Tədris Terapevtik Klinikasi,Mərkəzi Laboratoriya,Bakı Azərbaycan

afabakayeva@gmail.com

Giriş: ÜST-nın 2019-cu il məlumatlarına əsasən hər il hepatit B (HBV) və C (HCV) virus infeksiyalarına 1.5 milyon insan yoluxur, hazırda isə dünya əhalisinin

müvafiq olaraq 296milyon HBV, 58 milyon isə xronik HCV xəstəsidir. Məqsəd: ATU TTK-da müayinə olunan, HBV və HCV nəticələri pozitiv olan pasientlərin yaş, cins üzrə bölünməsi və dünya statistikası ilə müqayisəsinin aparılması. Material və metodlar: ATU TTK-da retrospektiv laboratoriya məlumatlarına əsasən 2018-2023-cü il tarixlərində klinikada HBV və HCV analizləri verən, nəticəsi müsbət olan pasientlərin statistik məlumatlarının təhlili üçün araşdırma aparılmışdır. Cobas e 411 analyzer (Roche, Almaniya) cihazında HbsAg, Anti-HCV analizləri ECLİA (Elektrohemilüminessensiya) üsulu ilə yoxlanılmışdır. Sərhəd nəticələr Vidax Biomerux cihazı ilə dəqiqləşdirilmişdir. PCR (Polimerasa Chain Reaction) analizləri isə CFX-96 cihazında (Bio-Rad, Almaniya) və Montania-484 cihazında (Anatolia Geneworks, Türkiyə) FluorionTM Real -Time PCR reaktivləri ilə işlənilmişdir. Aparılan müayinələr aşağıdakı cədvəldə (Cədv. 1) öz əksini tapmışdır. Nəticələr: ATU-nun Tədris Terapevtik Klinikasında son 5 il ərzində 14067 nəfər HBV-dən analiz verib və alınan nəticələrinin 3,6% (500 xəstə) pozitiv olmuşdur, HCV-dən isə cəmi 14419 nəfər analiz verib və verilən analiz nəticələrinin 4,3% (614 xəstə) pozitiv olmuşdur (Diaq.1). HBV pozitiv diaqnozu qoyulmuş 500 pasientin 59.2% (296 xəstə) kişi, 40.8% (204 xəstə) qadın, 1.8% (9 xəstə) 18 yaş və 18 yaşdan kiçik, 98.2% (491) 18 yaşdan böyük şəxslər olduğu aşkar olunmuşdur. HCV pozitiv diaqnozu qoyulmuş 614 pasientin 54,1% (332 xəstə) kişi, 45,9% (282 xəstə) qadın, 1,1% (7 xəstə) 18 yaş və 18 yaşdan kiçik, 98,9% (607 xəstə) 18 yaşdan böyük şəxslər olduğu aşkar olunmuşdur (Diaq.2). Yekun. HCV/HBV nisbəti regionlara görə dəyişir, ümumiyyətlə, HBV daha çox Asiya və Afrikada, HCV isə Avropa və Amerikada daha çox yayılır. Azərbaycanda biz HCV-nin pozitivlik göstəricilərinin 1,23 dəfə HBV-dən yüksək olduğunu aşkarladıq. HBV və HCV-nin cins, yaş statistikasına baxdıqda isə hər iki infeksiyada cinsə görə kişilərdə, yaşa görə isə 18 yaşdan böyük şəxslərin üstünlük təşkil etdiyini aşkarladıq.

Açar sözlər HBV, HCV, HCV/HBV nisbəti

Diaqram 1,



Diaqram 2



Diaq. 1 *"5 il ərzində ATU TTK-da müayinə olunan və HBV, HCV nəticəsi pozitiv olan xəstələrin sayı"*

Diaq. 2 *HBV, HCV nəticəsi pozitiv xəstələrin cins və yaşa görə paylanması*

Cədvəl 1. *HBV və HCV üçün aparılan müayinələr*

Cəmi* (HBV)	14067	100%	Cəmi* (HCV)	14419	100%
HBV exspress analizi	2497	~18%	HCV exspress analizi	2763	~19%
HbsAg analizi	11210	~80%	Anti-HCV analizi	11140	~77%
HBV PCR	360	~2%	HCV PCR	516	~4%

Cəmi* - HBV və HCV üçün müayinə olunan ümumi pasientlərin sayı

P22

SİDİK YOLU İNFEKSİYASI TÖRƏDƏN BAKTERİYALARDA GENİŞLƏNMİŞ SPEKTRLİ BETA-LAKTAMAZA VARLIĞI

Vüsalə ƏHMƏDZADƏ[1], Nərminə MƏMMƏDOVA[1], Sədinə TAĞIYEVA[2]

[1]Azərbaycan Tibb Universiteti, Tibbi mikrobiologiya və immunologiya kafedrası

[2]HB Güvən Klinikası, Mikrobioloji laboratoriya

dr.mehtiyeva@gmail.com

Giriş: Sidik yolu infeksiyası (SYİ) dünyada ən sıx rastlanan infeksion xəstəlikdir. Uşaqlarda isə tənəffüs yolu infeksiyalarından sonra ikinci yerdə durur. Qadınlarda uretra kişilərə nisbətən qısa olduğuna görə daha çox sidik yolu infeksiyalarına rastlanır. SYİ etiologiyasında törədici 95% hallarda tək bakteriyadır. Enterobacteriaceae ailəsi içində yer alan Qram mənfi bakteriyaların təxminən 70%-dən çoxu SYİ törədicisidir və bu infeksiyalara 70-90% hallarda *Eschericia coli* səbəb olur. SYİ-da GSBL sintez edən ştammların artımı və antimikrobial davamlılığı gələcək üçün təhlükə yaradır. GSBL (Genişlənmiş Spektrli Beta Laktamaza) fermenti bəzi Qram(-) bakteriyalarda sefalosporinlərə,geniş spektrli penisillinlərə və monobaktamlara qarşı davamlılığa səbəb olur.

Məqsəd: Sidik yolu infeksiyası törədicilərində GSBL(+) və GSBL(-) hallarının müqayisəli tədqiqi.

Material və metodlar: SYİ törədicilərində GSBL araşdırılması məqsədilə 2022-2023-cü illərdə laboratoriyaya daxil olan 700 sidik nümunəsi 5%-li qoyun qanlı və Emb aqara kultivasiya olunmuşdur. Kultivasiya olunmuş 700 nümunədən 250 nümunədə inkişaf görülmüşdür. GSBL ifraz edən 185 nümunənin antimikrob həssaslıq testi EUCAST standartlarına əsasən disk-diffuziya üsulu ilə aparılmış, nəticələr Vitek 2- compact cihazı ilə təsdiqlənmişdir.Qanlı aqardan izolə edilən bakteriyanın 0.5 McF qatılığında suspenziyası hazırlanaraq Müller-Hinton aqarınayayıldı. Petri kasasının mərkəzinə Amoksisilin-klavulanik asit diski (AMC) və disklərin mərkəzləri arasındakı məsafə 20 mm olacaq şəkildə seftazidim (CAZ), seftriaksion (CRO) və ya sefotaksim (CTX),aztreonam (ATM) diskləri yerləşdirilərək 18-24 saat 350C-də inkubasiya olundu. İnkubasiyadan sonra sefalosporin və ya aztreonam ətrafındakı inhibisiya zonasının AMC diskinə doğru genişlənməsi GSBL pozitiv varlığını göstərir.

Nəticə: Araşdırma nəticəsində məlum olurki, 185 nümunədən 139 qadın və 46 kişi olmaqla 115 (62%) nümunədə GSBL(-) və 70 (38%) nümunədə GSBL(+) nəticə aşkarlandı. Nəticələrin törədicilər üzrə paylanması cədvəldə təsvir olunub.

Yekun: Aparılan tədqiqatın nəticəsindən məlum olur ki, ölkəmizdə də qadınlarda daha çox SYİ rastlanır və GSBL(-) törədicilər üstünlük təşkil edir.Bu nəticənin dahageniş xəstə sayını əhatə edən qruplarla aparılması məqsədəuyğundur.

Açar sözlər Disk-diffuziya testi, Escherichia coli, GSBL.

GSBL nəticələrin törədicilər üzrə paylanması

GSBL	Escherichia coli	Proteus spp	Klebsiella spp
+	59	1	10
-	101	9	5

P23

SATUREJA HORTENSİS BİTKİSİNDƏN ƏLDƏ EDİLƏN EFİR YAĞININ ANTİ HELİCOBACTER PYLORİ EFFEKTİNİN TƏYİNİ

Həyat ƏLİYEVA[1], Həqiqət QƏDİROVA[1], Nərgiz MƏMMƏDOVA[2]

[1]Azərbaycan Tibb Universiteti, Tibbi Mikrobiologiya və İmmunologiya Kafedrası

[2]Azərbaycan Tibb Universiteti, Farmakoqnoziya Kafedrası

AEMlifealiyeva@gmail.com

Əsrin əsas problemlərindən olan antibiotiklərə rezistent ştamların sürətlə artdığı bir dövrdə rezistentliklə bağlı xəstəliklərin müalicəsinin çətinləşməsi və ağırlaşmalara səbəb olması da aktual olaraq qalır. Artıq hər birimizi təşvişə salan bu problem bütün dünya alimləri tərəfindən öyrənilir, lakin hələ də öz həllini tapmamışdır. Bu problem eyni zamanda H.pylori-nin də antibiotiklərə qarşı artan rezistentliyinə aid olaraq, insan sağlamlığı üçün ciddi təhlükə törətdiyi göz önündədir. Rezistent ştammların artması müalicənın effektliyinin zəifləməsi ilə yanaşı mikrobisenozun pozulması problemlərini də yaradır ki, bu da kandidoz, allergiya və dizbioz kimi bir sıra patoloji proseslərlə nəticələnir. Bu səbəbdən antibiotiklərə alternativ müalicə sistemləri-lə yanaşmaların inkişaf etdirilməsinə dair tədqiqatların sayı artmaqdadır. Bitki mənşəli efir yağları antimikrob təsirə malik olduğundan bu istiqamətdə aparılan tədqiqatlar problemin həllində mühüm rol oynayır. Rezistentlik problemi getdikcə artdığına görə mikrob əleyhinə dərman preparatlarının arsenalının artması tələbi ortaya qoyulur və yeni terapevtik mənbələrin axtarılması ən mühüm və aktual problemlərdən olaraq öyrənilməyə başlanmışdır. Bitki mənşəli yeni xammal mənbələrinin axtarılması və onların əsasında daha effektli dərman vasitələrinin hazırlanması əczaçılığın və tibb elminin qarşı¬sında duran əsas məsələlərdən biridir. Hal-hazırda yer kürəsinin əksər ölkələrində 21000-dən çox dərman bitki növləri müxtəlif xəstə¬liklərin müalicə və profilaktikasında istifadə olunur. Bu tədqiqatda Satureja hortensis efir yağının keyfiyyət tərkibi və miqdarı (mq/kq) xromato-mass-spektrometrik üsulla Agilent Technologies 6890 xromatoqrafında mass-spektrometrik detektor 5973-lə təyin edilmişdir. Yeni sintez olunmuş efir yağının antibakterial və antifunqal xassələri H.pylori kulturalar üzərində öyrənilmişdir. Disk-diffuziya üsulunun nəticəsinə görə Satureja hortensis yağı H.pylori əkilmiş kasalarda 30-33 mm-dən də böyük steril zona əmələ gətirmişdir. Seriyalarda durulaşdırma üsulunda da fitopreparatın təsiri güclü nəticələnmişdir. Belə ki, 2 4, 8, 16 dəfə durulaşmış halda H.pylori -ni 10 dəq müddətində öldürmüşdür. Qeyd edildiyi kimi Azərbaycanda sintez olunmuş Satureja hortensis yüksək antibakterial təsirə malikdir. Satureja hortensis-dən əldə edilmiş efir yağı H.pylori ilə törədilən infeksion patologiyaların müalicəsində, eyni zamanda antiseptik kimi istifadə edilə bilər.

Açar sözlər Satureja hortensis ekstraktı, xromato-mass-spektrometriya, seriyalarda durulaşdırma, disk-diffuziya, H.pylori

P24

KPC-TİP KARBOPENAMAZA VƏ GSBL SİNTEZ EDƏN KLEBSİELLA SPP. ŞTAMLARININ ARAŞDIRILMASI

Ağaşah EMİNLİ[1], Leyla HƏŞİMOVA[1], Leyla MAHMUDOVA[1], Zülfiyyə XƏLİLOVA[1],Fatimə NƏSİRLİ[1]

[1]Azərbyacan Tibb Universiteti Tədris-Cərrahiyyə Klinikası Mikrobiologiya Bölməsi

dr_eminli@mail.ru

Giriş: KPC sintez edən mikorqanizmlərlə yoluxmuş xəstələr arasında ölüm nisbətinin yüksək olmasının səbəbi məhdud antibiotik seçiminin olmasıdır (kolistin, tigesiklin və aminoqlikozidlər). Son zamanların araşdırmalarına baxdıqda nazokomunal infeksiyaların yayılmasında Klebsiellanın daha virulentli ştamlarının rolunun olduğu görünür. Klebsiella-larda davamlılıq genlərinin plazmid vasitəsilə növ daxili ötürülməsi nəticəsində yaranan yeni ştamlar KPC xüssusiyyəti qazanır.

Məqsəd: Bu araşdırmadakı məqsədimiz Klebsiella spp. ştamlarında davamlılığın araşdırılması və müalicə seçimində düzgün tövsiyələrin verilməsidir.

Material və Metodlar: 01.03.2022-01.03.2023-cü il tarixlərində Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyə Klinikasının Klinik- Diaqnostik Laboratoriyasına müraciət edən 1222 xəstənin klinik nümunəsinin 8%-də inkişaf olmuş, bunlardan 20%-də Klebsiella spp. inkişaf etmişdir. Klinik nümunələr növünə uyğun aqarlaraəkilib, 35 dərəcədə 24 saat müddətində termostatda inkubasiya edilmişdir. İzolə edilən mikroorqanizmlərinidentifikasiyası və antibiotikə həssaslığı VİTEK 2 (bioMerieux, Fransa) cihazında aparılmışdır.

Nəticə: Klebsiellanın spp -nin karbopenemlər ilə yanaşı sefalosporinlərə davamlılıq və paralel olaraq GSBL müsbətştamların sayının artmasını müşahidə etdik. Əvvəkli dövrlərə nəzərən CRKP (Karbopenem Davamlı Klebsiella Pneumaniae) ştamlarında artım müşahidə olunmuşdur, beləki CRKP 30% olduğu halda, GSBL müsbət ştamlar 80% olmuşdur. Başqa bir nüans CRKP, GSBL və Colistinə davamlı olan ştamlarının pediratik xəstlərdə aşkar olunmasıdır.

Yekun: Bu hal panresistentlik kimi qiymətləndirilir. Colistinə davamlılığın VİTEK 2 cihazında MİK dəyəri ilə müəyyən olunmuş və bu referans klinik araşdırmaların nəticəsi ilə tamuyğun gəlmədiyi üçün colistinlə müalicəsi tövsiyyə olunur.

Açar sözlər COLİSTİN, GSBL, KPC

P25

COVİD-19 PANDEMİYASINDA ANTİBİOTİK İSTİFADƏSİNİN YENİDOĞULMUŞ QAN KULTURASINDAN İZOLƏ EDİLƏN MİKROORQANİZMLƏRİN PAYLANMASINA VƏ ANTBİOTİK DAVAMLILIĞINA TƏSİRİ

Fatimə NƏSİRLİ[1], Leyla HƏŞİMOVA[1], Leyla MAHMUDOVA[1], Zülfiyyə XƏLİLOVA[1], Ağaşah EMİNLİ[1]

[1]Azərbaycan Tibb Universiteti Tədris Cərrahiyyə Klinikası, Mikrobiologiya, Bakı.

drfatimanasirli@gmail.com

Giriş: Neonatal sepsis yenidoğulmuşlar arasında xəstələnmə və ölüm hallarının artmasına səbəb olan klinik sindromdur. Yenidoğulmuşlarda sepsisin rastgəlmə tezliyi təxminən 20%-dir ki, bu da perinatal risk faktorlarına, ekonomik standartlara və s. görə dəyişir. Hemokulturalardan mikroorqanizmlərin izolyasiyası sepsisin mikrobioloji diaqnozu üçün qızıl standartdır.

Məqsəd: Bu araşdırmadakı məqsəd COVİD-19 pandemiyası başlayandan əvvəl və sonra yenidoğulmuş hemokulturalarından izolə edilən mikrooqanizmlər və onların antibiotik həssaslığının dəyişməsinin öyrənilməsidir.

Material və metodlar: Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Klinik-Diaqnostik Laboratoriyasına 2017-2019-cu illərdə 109 və 2021-2023-cü illərdə 220 yenidoğulmuş hemokultura nümunəsi daxil olmuşdur. Hemokulturalar qan kultivasiya cihazında (Bact/ALERT 3D) inkubasiya olunmuş, inkubasiyanın 5-ci günündə siqnal olmayan şüşələr neqativ olaraq qeydə alınmışdır. Pozitiv siqnal verən şüşələr qanlı və EMB aqara əkilmiş, paralel olaraq qram boyalı preparatları mikroskopda dəyərləndirilmişdir. İzolə edilən mikroorqanizmlərin identifikasiyası və antibiotikə həssaslığı VİTEK 2 (bioMerieux, Fransa) cihazında aparılmışdır.

Nəticə: 2017-2019-cu illər arasında gələn 109 hemokulturadan 65-i pozitiv siqnal vermiş, bunlardan 6-sı kontaminasiya olmuşdur. 2021-2023-cü illər arasında gələn 220 hemokulturadan 49-u pozitiv siqnal vermiş, bunlardan 1-i kontaminasiya olmuşdur. Cədvəldən göründüyü kimi 2017-2019-cu illərdə ən çox izolə edilən mikroorqanizm qram pozitiv bakteriya olan MR (metisillinə-rezistent) S.epidermidis olmasına baxmayaraq, 2021-2023-cü illərdə ən çox izolə edilən mikroorqanizm qram neqativ bakteriya olan Klebsiella spp. olmuşdur. 2017-2019-ci illərdə Klebsiella spp. imipenem və meropenemdə 33.3%, 2021-2023-cü illərdə isə 36.8% davamlılıq görülmüşdür.

Yekun: Pandemiya dövründə istifadə olunan antibiotiklərin bakterial ko-infeksiyaların qarşısını alsa da, Klebsiella spp. kimi mikroorqanizmlərin antibiotiklərə davamlılığını artırması barədə bir çox araşdırmalar mövcuddur. Biz də araşdırmamızda COVİD-19 pandemiyasından sonrakı illərdə qram mənfi törədicilərin (xüsusilə Klebsiella spp.) və onların antibiotiklərə davamlılığının yenidoğulmuşlar arasında da artdığını müşahidə etdik.

Açar sözlər Covid-19, hemokultura, neonatal sepsis

Mikro orqanizmlərin paylanması

MR (metisillinə-rezistent) MS (metisillinə-həssas) KNS (koaqulaza neqativ stafilokoklar)

01.01.2017-01.01.2019		01.01.2021-01.01.2023	
MR Staphylococcus epidermidis	19 (32,2%)	MR Staphylococcus epidermidis	5 (10,4%
MS Staphylococcus epidermidis	6 (10,2%)	MS Staphylococcus epidermidis	1 (2,08%
MR Staphylococcus aureus	1 (1,7%)	MR Staphylococcus aureus	1 (2,08%
MS Staphylococcus aureus	2 (3,4%)	Digər MR KNS	3 (6,3%)
Digər MR KNS	6 (10,2%)	Digər MS KNS	1 (2,08%
Digər MS KNS	6 (10,2%)	Klebsiella spp	19 (39,6%
Klebsiella spp	3 (5,08%)	Acinetobacter spp	1 (2,08%
Acinetobacter spp	3 (5,08%)	Streptococcus spp.	1 (2,08%
Streptococcus spp.	5 (8,5%)	Candida spp.	3 (6,3%)
Listeria spp.	1 (1,7%)	Enterobacter spp.	3 (6,3%)
Enterobacter spp.	2 (3,4%)	Pseudomonas spp.	2 (4,2%)
Escherichia coli	2 (3,4%)	Digər	8 (16,6%
Digər	3 (5,08%)		
ÜMUMİ	59	ÜMUMİ	48

P26

SUMQAYIT ŞƏHƏR 1 SAYLI XƏSTƏXANA ÜZRƏ HİV POZİTİV XƏSTƏLƏRİN DEMOQRAFİK XARAKTERİSTİKASI

Elnarə XANƏLİYEVA[1], Bayram TAQİYEV[2], Həsən HƏSƏNOV[1], Cəlal AĞAYEV[3]

[1]Sumqayıt şəhər, 1 saylı xəstəxana

[2]Azərbaycan Tibb Universiteti, Tədris-Terapevtik Klinika

[3]Sumqayıt hospital

elnaraxaneliyeva81@mail.ru

Məqsəd: İnsan immunçatışmazlıq virusu (HIV) infeksiyası illik qlobal yeni yoluxma sayının və ölüm sayının azalmasına baxmayaraq rastgəlmə tezliyindəki artma səbəbindən qlobal səviyyədəki əhəmiyyətini saxlamaqdadır. Bu tədqiqat 2018-2022 tarixləri arasında Sumqayıt şəhəri 1 saylı xəstəxanaya müraciət edən və HİV testi icra olunmuş xəstələrinin nəticələrinin qiymətləndirilməsi məqsədilə aparılmışdır. Metod: Statistika Sumqayıt şəhəri 1 saylı xəstəxananın 2018-2022 tarixləri arasındakı HİV test nəticələrinə əsasən işlənilmişdir. HİV testi ELISA metodu ilə işlənilmişdir. Pozitiv nəticələr HİV mərkəzində referans metodla təsdiqlənmişdir. Nəticə: 10080 xəstə məlumatı üzərində analiz aparılmışdır. Bunlardan 4832-si kişi, 5248-i qadın idi. Cinslər üzrə müayinə və pozitivlik sayı cədvəldə göstərilmişdir (Cədvəl 1): Yekun. Analiz edilmiş 10080 xəstədən 63-də HİV testi pozitiv aşkarlanmışdır. Nəticələr illərə görə analiz edildikdə, illər keçdikdə HİV pozitivliyini artması müşahidə edilir. 2020-2021-ci illərdəki rəqəmlərin aşağı olması SARS-CoV-2 pandemiyasında test etmə imkanların nisbətən məhdud olması ilə əlaqələndirildi. Cinslər üzrə pozitivlik sayları illər üzrə dəyişkənlik göstərmişdir. HİV pozitiv 63 xəstənin 11.1 %-i 21-30 yaş, 38%-i 31-40 yaş, 11.1 %-i 41-50 yaş, 28.6 %-i 51-60 yaş, 12.7% 61-70 yaş intervalında idi. Tədqiqatın nəticəsinə əsasən HİV virusuna yoluxma 0.63% olmuşdur ki, bu da ÜST statistikasına (0.7%) yaxındır. HİV epidemiyanının qarşısını almaq üçün cəmiyyətdə cinsi yolla yoluxan infeksiyalar barədə məlumatlılığı gücləndirmək lazımdır.

Açar sözlər HİV, Sumqayıt, statistika, HİV pozitiv, dermoqrafik xarakteristika

Cinslər üzrə müayinə və pozitivlik sayı

Cədvəl 1

İllər	Müayinə sayı	Kişi	Qadın	Cəmi pozitiv sayı	Kişilərdə pozitivlik sayı
2018	1763	932	831	11	7
2019	2119	1070	1049	14	13
2020	826	404	422	4	1
2021	1588	905	683	7	6
2022	3784	1521	2263	27	11

KBUDEK

KBUD EKSTERNAL KALİTE KONTROL PROGRAMI

- Etanol/Amonyak
- HbA1c
- Hematoloji
- Hepatit/HIV/Sifiliz Paneli
- İlaç Düzeyi
- Immunoassay
- Immunoassay Özel Testleri
- İdrar
- Kan Bankacılığı
- Kan Gazları
- Kardiyak
- Klinik Biyokimya
- Koagülasyon
- Koagülasyon Özel Testleri
- Sedimantasyon (ESR)
- Spesifik Proteinler
- Spesifik Proteinler Özel Testleri
- TORCH Paneli
- Tümör Belirteçleri

TS EN ISO/IEC 17043 AKREDITE*

+90 212 241 26 53

info@kbudek.com

www.kbudek.com

KBUD EKSTERNAL KALİTE KONTROL PROGRAMI

KBUDEK

KLİNİK BİYOKİMYA UZMANLARI DERNEĞİ

KBUD

1999

AZLTK&LAB EXPO2023

SPONSORS

medaz MEDICAL SYSTEMS

mindray healthcare within reach

AS MEDICAL PROFESSIONAL MEDICAL COMPANY

China Resource

DIRUI

TRIOLAB

SpektrMed MEDICAL EQUIPMENTS & SOLUTIONS

AzəriMed Düzgün seçim - sizin sağlamlığınızdır!

Nesil group

BGI

PremiumMed

LABOR

sem-az

AKLAB BAKÜ

BAYCAN

BESAN

ALBATROS HEALTH CARE

UnoLab medical supplies

LS LABSERVIS LTD